1.Əlirzayev , A. Turizmin İqtisadiyyati və Idarəedilməsi , Azərbaycan Dövlət İqtisad Universiteti, 2011, 28 s

2 Baker, DA və Crompton, JL (2000). Keyfiyyət, məmnunluq və davranış niyyətləri. Annals of Tourism Research, 27, s. 785–804

3. Chalip , L. (2004) Təsirdən kənar: Hadisə leverage üçün ümumi model. İdman turizmində-qarşılıqlı əlaqələr, təsirlər və problemlər. Ritchie, B. Adair, D. (reds). Böyük Britaniya: Kanal Görünüşü səh-54-69.

4. Crompton, J. (1997). Festival tədbirlərində iştirak edən ziyarətçilərin motivləri, Turizm Tədqiqatının İlnamələri, 24(2), s. 425-439.

5. Getz, D. (2008). İdman-hadisə turizmi: Tərif, Təkamül və Tədqiqat. Turizm menecmenti, cild. 29, No3, səh.403-428.

6. Formula 1. Xəbərlər, [link: https://www.bakucitycircuit.com/az/news], giriş tarixi: 18.03.19.

7. Azərbaycanda turizm. Azərbaycan turizmi haqqında qısa məlumat. Azərbaycanın turistik yerləri və destinasiyaları. Azərbaycanda turizm və səyahət, [link: https://azerbaijan.orexca.com/tourism_azerbaijan.shtml], giriş tarixi: 18.03.19.

8. Dünya Səyahət və Turizm Şurası. Travel & Tourism Economic Impact 2018 report for Azerbaijan, (PDF), [link: https://www.wttc.org/-/media/files/reports/economic-impact-research/countries-2018/azerbaijan2018.pdf], giriş tarixi: 18.03.19

Məqalənin redaksiyaya daxilolma tarixi: 30.05.2024
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 07.06.2024
Məqalənin çapa qəbul olunma tarixi: 10.06.2024

DOI: doi.org/10.61226/12.2.2023/20242.5
UOT: 331
İlahə ƏLİYEVA
Azərbaycan Turizm və Menecment Universiteti, müəllim
i.aliyeva@atmu.edu.az
https://orcid.org/0000-0001-7025-5445

Orxan SADIQOV
Azərbaycan Turizm və Menecment Universiteti, magistrant
Sdqv.rkhn.20012233@mail.ru
https://orcid.org/0009-0006-3768-5092

AZƏRBAYCANDA ELEKTRON BİZNESİN İNKİŞAFINDA BEYNƏLXALQ TƏCRÜBƏNİN TƏTBİQİ İSTİQAMƏTLƏRİ

Xülasə: İnformasiya texnologiyaları son on ildə inkişaf edərək artıq bank sisteminə, elmi araşdırmaya, jurnalistikaya, təhsilə, iş həyatına, səyahətə və bunlar kimi bir çox sahəyə yön verməkdədir. Bu inkişafın məhsulu olan, virtual mühitdə biznesdə yeni norma və prinsipləri olan bir tədqiqat sahəsinə və liberal iqtisadiyyatın əsas meyarına çevrilmişdir.E-bizneslə (elektron biznes) geniş anlayışdır həmçinin ticarətlə bərabər internetdə olan bütün xidmətlər, virtual əməliyyatlar və virtual biznes tərəfadaşlıqları daxildir. E-ticarət (elektron ticarət) isə e-biznesdən fərqli olaraq yalnız satın alma, internet vasitəsi ilə məhsulların, informasiyanın və xidmətlərin köçürülməsi daxildir. E-ticarətə biznes tərəfdaşlığı, müştərilər arası mübadilə də daxildir.

Məqalədə elektron biznesin inkişafının dünyaya nələr qazandıracağı və ayrı-ayrı ölkələrdə e-ticarət ncə inkişaf edir, bunun təhlili aparılacaq. Və məqalədə hər bir ölkənin davamlı inkişafının hərəkətverici qüvvəsi kimi elektron biznesin iqtisadiyyata təsirinin öyrənilməsinin vacibliyi əsaslandırılır. Elektron biznesin inkişafının iqtisadiyyata müxtəlif səviyyələrdə təsir xüsusiyyətləri araşdırılır. Habelə elektron biznesin inkişaf səviyyəsini təmin edən obyektiv və subyektiv amillər tədqiq edilir. Azərbaycanda elektron biznesin inkişafını sürətləndirən və ona mane olan amillər təhlil edilməklə, bu sahədə müvafiq təkmilləşdirici təkliflər irəli sürülür.

Açar sözlər: e-ticarət, e-biznes, elektron kommersiya,ölkə iqtisadiyyatı.

Ilaha ALIYEVA, Orkhan SADIGOV

DIRECTIONS OF APPLICATION OF INTERNATIONAL EXPERIENCE IN THE DEVELOPMENT OF E-BUSINESS IN AZERBAIJAN

Abstract: Information technologies have developed in the last ten years and are already influencing the banking system, scientific research, journalism, education, business life, travel and many other fields like these. The product of this development has become a field of research with new norms and principles in business in the virtual environment and the main criterion of the liberal economy. E-business (electronic business) is a broad concept and includes all services, virtual transactions and virtual business partnerships on the Internet along with commerce. Unlike e-business, e-commerce (electronic commerce) includes only the purchase and transfer of products, information and services via the Internet. E-commerce includes business partnership and exchange between customers. Unfortunately, Azerbaijan does not have a liberal economic environment necessary for business, and business in Azerbaijan is deprived of the advantages brought by developing information technologies. Also, due to the low level of higher education, productive research on information technologies is not conducted.

The article will analyze what the development of electronic business will bring to the world and how e-commerce is developing in individual countries. And the article justifies the importance of studying the impact of e-business on the economy as a driving force for the sustainable development of each country. The effects of e-business development on the economy at different levels are investigated. In addition, objective and subjective factors that ensure the level of development of electronic business are studied. By analyzing the factors that accelerate and hinder the development of e-business in Azerbaijan, appropriate improvement proposals are put forward in this field.

Keywords: e-commerce, e-business, enational economy

Илаха АЛИЕВА, Орхан САДЫГОВ

НАПРАВЛЕНИЯ ПРИМЕНЕНИЯ МЕЖДУНАРОДНОГО ОПЫТА В РАЗВИТИИ ЭЛЕКТРОННОГО БИЗНЕСА В АЗЕРБАЙДЖАНЕ

Абстракт: Информационные технологии развивались за последние десять лет и уже влияют на банковскую систему, научные исследования, журналистику, образование, деловую жизнь, путешествия и многие другие подобные области. Продуктом этого развития стала область исследований с новыми нормами и принципами ведения бизнеса в виртуальной среде и основным критерием либеральной экономики. Электронный бизнес

(электронный бизнес) представляет собой широкое понятие и включает в себя все услуги, виртуальные транзакции и. виртуальное деловое партнерство в Интернете наряду с коммерцией. В отличие от электронного бизнеса, электронная коммерция (электронная коммерция) включает в себя только покупку и передачу товаров, информации и услуг через Интернет. Электронная коммерция включает в себя деловое партнерство и обмен между клиентами. К сожалению, в Азербайджане нет либеральной экономической среды, необходимой для бизнеса, и бизнес в Азербайджане лишен преимуществ, которые дает развитие информационных технологий. Также из-за низкого уровня высшего образования не проводятся продуктивные исследования в области информационных технологий.

В статье будет проанализировано, что принесет миру развитие электронного бизнеса и как развивается электронная коммерция в отдельных странах. А в статье обоснована важность изучения влияния электронного бизнеса на экономику как движущей силы устойчивого развития каждой страны. Исследуется влияние развития электронного бизнеса на экономику на разных уровнях. Кроме того, изучаются объективные и субъективные факторы, обеспечивающие уровень развития электронного бизнеса. Путем анализа факторов, ускоряющих и препятствующих развитию электронного бизнеса в Азербайджане, выдвигаются соответствующие предложения по улучшению этой сферы.

Ключевые слова: электронная коммерция, электронный бизнес, национальная экономика.

İnternet şəbəkəsinin inkişafı biznesin aparılması üsullarını köklü surətdə dəyişdirmişdir. İnternet indi nəinki təkcə məhsul və xidmətlərin yeni reklam kanalı kimi istifadə edilir, o həm də şirkətin müştərilərlə qarşılıqlı əlaqələri kanalı olub, tələbin öyrənilməsini, sifarişlərin təşkilini, məhsul və xidmətlərin satışını və satış sonrası qulluq edilməsini təmin edir. Bazar haqqında gerçək və daim təzələnən və dəqiqləşdirilən informasiyanın mövcudluğu təşkilat rəhbərliyinə imkan verir ki, həm biznes partnyorlara, həm də məhsul və xidmətlərin son istehlakçılarına nəzərən dəyişikliyə uğrayan situasiyalarda operativ reaksiya versin. Sərt bazar rəqabəti şəraitində təşkilatın uğur qazanması mövcud və potensial müştərilərlə qarşılıdlı fəaliyyət göstərmək bacarığından çox asılıdır. Müştərilərin tələbi və bəyəndikləri barədə zəruri informasiyanın alınması və bacarıqla istifadə edilməsi müştərilərlə uzunmüddətli və qarşılıqlı faydalı münasibətlər yaradılmasına imkan verir. Müştərilərlə qarşılıqlı münasibətlərin təkmilləşdirilməsi müştəri qruplarını anlamaq və hər bir qrupla ayrıca səmərəli qarşılıqlı fəaliyyət qurmağa kömək edən təşkilati intizamdır. İqtisadi fəaliyyətin informasiya təminatının təkmilləşdirilməsi həm bazarda təmsil olunmuş informasiya xidməti satıcılarının, yaxud informasiya vasitəçilərinin fəaliyyəti hesabına, həm də yuxarı idarəetmə səviyyəsinin menecerlərinin təşəbbüsü ilə təşkilatdaxili biznes-proseslərin mahiyyətcə dəyişilməsi hesabına həyata keçirilə bilər. Hesabata əsasən, 2015-ci ildə fiziki məhsulların onlayn satış həcmi 294,45 milyard dollar təşkil edib. Bu halda

proqnozlara görə, 2021-ci ilədək həmin məhsulların satış həcmi 485 milyard dolları ötəcək.

Maraqlıdır ki, ABŞ ümumi pərakəndə satış həcmində elektron ticarət payının göstəricisinə görə bir neçə ölkədən geri qalır. Məsələn, 2016-cı ildə Çində bütün pərakəndə satış həcminin təxminən beşdəbiri internetin payına düşüb. ABŞ-da bu göstərici 8,1 faiz təşkil edib.

Forrester Research-ın məlumatına görə 2004-cü ildə dünyada elektron ticarətin ümumi həcmi 6,8 trillion dollar artıq olmuşdur. Həmin dövrdə ABŞ və Kanada iqtisadiyyatın bu sektorunda kiçik xüsusi çəkiyə malik olsalar da, burada vəziyyət sürətlə dəyişməkdədir. Asiya-Sakit Okean regionu ölkələrində və Qərbi Avropada elektron biznes sürətlə artır. Mütəxəssislər B2C (əmtəə və xidmətlərin son istifadəçilərinə yönəlik elektron biznes modeli) sferasında daha sürətli artım gözləyirlər [2].

2004 və 2015-ci illərdə verilən proqnoza nəzər yetirsək, görərik ki, 10 il ərzində electron ticarətin ümumi həcmi 15 dəfədən çox artmışdır.

İdarəedici qərarların keyfiyyətinin yüksəldilməsinin yaxşı tanınmış üsulu qərar qəbulu üçün lazım olan informasiyanın gerçəkliyinin yüksəldilməsi ilə yanaşı onun alınması vaxtının qısaldılmasından ibarətdir.

İnformasiya Texnologiyalarının (İT) Tədarük Zənciri İdarəsinə üç fərqli üstünlük gətirir:



Diaqram 1. İT-nin tədarük zənciri idarəsinə gətirdiyi üstünlüklər


İT məlumatın istehsalat və əməliyyat zamanı axışın sürətləndirir və bu yuxarda qeyd etdiyimiz istiqamətlərə böyük üstünlük gətirir.

Rəqabət şəraitində biznesin uğurla aparılmasının mühüm amili partnyorlarla qarşılıqlı fəaliyyət bacarığıdır. Biznes partnyorların gerçək imkanları və planlaşdırdıqları əməliyyatlar barədə lazımi informasiyanın operativ qaydada alınması, həmçinin yaxşı təşkil edilmiş elektron məlumat mübadiləsi texnologiyası uzunmüddətli və qarşılıqlı faydalı münasibətlər yaratmağa imkan verir. ABŞ-da ümumiqtisadi tənəzzüllə əlaqədar olaraq Şimali Amerikada əmtəə və xidmətlərin son istifadəçilərinə yönəlik elektron biznes modeli olan B2C modelinin inkişafının zəifləməsi fonunda Asiya-Sakit Okean regionunda pərakəndə satıcıların onlayn fəallığı günbəgün artmaqdadır. Bu bazar ildə 100%-dən çox artır. Boston Consulting Group (www.bcg.com) şirkətinin verdiyi məlumata görə, Yaponiyada, Avstraliyada, Tayvanda, Koreyada və digər region ölkələrində pərakəndə elektron mağazaların uğurları, ilk növbədə, iri nüfuzlu bazar iştirakçılarının səyi ilə mümkün olmuşdur. Asiya-Sakit Okean regionunda pərakəndə elektron bazarın sonrakı inkişafı iki əsas amillə bağlı olmuşdur: birinci, İnternet auditoriyasının

genişlənməsi tempidir. Belə ki, 2015- ci ildə bu regionda sənayecə inkişaf etmiş ölkələrdəki əhalinin 50%-i kompüter şəbəkələrindən istifadə edirdi. İkinci amil son istehlakçıya yönəlik elektron biznes üzrə əlavə xidmətlərin (Xidmətlərə görə hesablara ödəmələr, informasiyalı xəbər mübadiləsi (biletlərin, mehmanxanada yerlərin, turist qruplarında iştiraketmələrin bronlaşdırılması və s.)) böyük sürətlə inkişaf etməsidir. Asiya-Sakit Okean regionunda son istehlakçıya yönəlik elektron biznes bazarının xüsusi çəkisi Avropa İttifaqını ötərək Şimali Amerikanın xüsusi çəkisinə yaxınlaşmış və 24% təşkil etmişdir. ABŞ-da elektron biznesin 25%-i son istehlakçıya yönəlik biznesdir. Avropada bu göstərici 20%-dir.


Elektron ticarət vasitəsi ilə daha çox geyim və texnoloji avadanlıqlar alınır. Dünyada onlayn alış-veriş saytları iki hissəyə bölünür: "Məhsullarını birbaşa satan və tədarükçü firmalar var. Məsələn, Ebay və Amozon kimi saytlarda istənilən məhsulu istənilən qiymətə tapmaq olar". Azərbaycanda xarici ölkələrdən, xüsusilə də Türkiyədən məhsul sifarişi ildən-ilə çoxalır. Bu isə yüklərin təklükəsiz, qısa zamanda və sərfəli şərtlərlə Azərbaycana gətirilməsi məsələsini aktuallaşdırır [1].

Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsinin saytı www.stat.gov.az



Yuxarıdakı qrafik Azərbaycanın beynəlxalq regionlar olaraq ölkələrin təcrübəsinə əsasən elektron biznesin inkişafını əks etdirir. Hal-hazırda Azərbaycan 33 % Qərbi Avropa təcrübəsinə əsaslanaraq elektron ticarətini inkişaf etdirir. 26 % Qərbi Asiya təcrübəsi, 22% Şərqi Asiya və 19% isə Şimali Amerikanın elektron biznes təcrübələrinə əsaslanaraq e-biznesi inkişaf etdirir [5].

Hal-hazırda son istehlakçıya yönəlik istehlakçıya yönəlik biznesin aşağıdakı modelləri fərqləndirilir.



Diaqram 3. Biznesin istehlakçıya yönəlik modelləri

Satınalmaların elektron idarə edilməsi sisteminin qurulması xərclərinin azaldılması məqsədilə bir-neçə sifarişçi birləşə bilir. Bu sistemin hər bir sifarişçi üçün ucuz başa gəlməsindən ötrü hərə öz malgöndərənini sistemə daxil edərək qalan sifarişçilər üçün seçim imkanını genişləndirirlər. Bir-biri ilə kooperasiya əlaqəsinə girməklə müəssisələr birgə sifariş hazırlayıb müəyyən güzəştə nail ola bilirlər.

Nəticə

Qeyd edək ki, elektron ödəmə sistemi İnternet infrastrukturundan istifadə edilməklə bank hesablarının idarə edilməsi (elektron bankinq və ya İnternet-bankinq) kimi bank xidmətinin tərkib hissəsi deyildir. Xidmətin bu növü bankın ənənəvi xidmətidir ki, bu da müştəriyə öz hesabını idarə etməyi asanlaşdıran yeni forma təklifidir. iberal İqtisadi Sisteminin yüz illərdir var olan İngiltərə Krallığının Ticarət və Sənaye Departamenti (Department of Trade and Industry) e-biznesi belə tərif edir:

Biznesin tam fəaliyyəti informasiya və kommunikasiya texnologiyaları (İKT) ilə vahid halda birləşərək potensial bütün əməliyyatlar İKT ilə yenidən şəkillənirsə yeni biznes modelləri ortaya çıxar. E-biznesi ancaq bütün daxili biznes fəaliyyətlərinin bütün əməliyyatları İKT'a inteqrasiya edilərsə anlamaq daha asan olar.

Əlbəttə ki, elektron biznes və elektron ticarət informasiya texnologiyaları inkişaf edərək özlüyündə dəyişik model və prinsiplərini yaratmış və yaradacaqdır. Ancaq Azərbaycan bir çox inqilablar kimi informasiya inqilabında qaçırmaqdadır. Bu gün Azərbaycan vətəndaşının Qərbdəki kimi internetdən alış verişin və digər əməliyyatların edə bilməməsinin səbəbi azad bazarın olmaması və bank sisteminə inamsızlıqdır.

İşgüzar münasibətlərin fərqli prinsiplərə uyğun, fərqli institusional mühit və qaydalar əsasında fəaliyyət göstərən yeni infrastrukturu və mexanizmləri

formalaşır. Bu, məhsulların çatdırılması, ödənişlərin təşkili və xidmət göstərilməsi ilə bağlı münasibətlərin bütün növ və formalarını əhatə edir. E-biznesin iqtisadiyyata təsirinin tədqiqi bir sıra müsbət və mənfi xarakterli cəhətləri üzə çıxarmağa imkan verir. E-biznes şəbəkələrinin yaradılması zamanı bütün ölkələr üçün həlli vacib olan və hər bir ölkənin inkişaf səviyyəsinə uyğun formada həyata keçirilən başlıca institusional vəzifələr Azərbaycan üçün də xarakterikdir. Bu nöqteyi nəzərdən, ölkəmizdə də e-biznesin inkişafı xüsusi diqqət və tənzimlənmə tədbirlərinin həyata keçirilməsini tələb edir. Bu vəzifələr, ödəniş və nəqliyyat-logistik infrastrukturun e-biznesin mövcud və potensial tələblərinə uyğun transformasiyası, habelə bu sahədə normativ-hüquqi tənzimlənmənin daima təkmilləşdirilməsi ilə bağlıdır. Nəzərə almaq lazımdır ki, hazırda ayrı-ayrı milli iqtisadiyyatların gələcək inkişaf xəttini müəyyən edən əsas cəhətlərdən biri də, ölkədə firmadaxili logistik infrastrukturun e-biznesin tələblərinə uyğunluğu səviyyəsinin əldə olunmasıdır. Bunun üçün isə, Azərbaycanda e-biznesin iqtisadiyyata təsirini aşkara çıxarmağa imkan verən ilkin statistik göstəricilərin toplanması, emalı və təqdim olunması vacibdir.

ƏDƏBİYYAT

1. Musayev İ.K. Əlizadə M.N., Mahmudov A.B. Elektron biznes. Bakı, "MSVNƏŞR" nəşriyyatı, 2016.
2. De Leoz et al. Assessing the Impacts of E-Commerce Diffusion on Development. Proceedings of the Tenth Midwest Association for Information Systems Conference, Pittsburg, Kansas, May 14-15, 2015.
3. Kenneth C. Laudon, Carol Guercio Traver. E-commerce: business. technology. society. - 10th.ed. Published by Pearson Education, Inc., 2014.
4. Дѐмина А.В. Электронный бизнес: учебное пособие. Саратов, 2015.
5. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin saytı: [elektron resurs] / URL: hhttps://www.stat.gov.az/source/tourism/
6. Role of Information Technology in Supply Chain Management, Rohita Kumar Mishra, Sambalpur University http://www.indianmba.com/Faculty_Column/FC461/fc461.html
7. Measuring Electronic Business: Definitions, Underlying Concepts, and Measurement Plans, Thomas L. Mesenbourg, Assistant Director for Economic Programs Bureau of the Census http://www.census.gov/epcd/www/ebusines.htm

Məqalənin redaksiyaya daxilolma tarixi: 05.06.2024
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.06.2024
Məqalənin çapa qəbul olunma tarixi: 16.06.2024

DOI: doi.org/10.61226/12.2.2023/20242.6
UOT: 379.86
Sevinc MƏMMƏDOVA
Odlar Yurdu Universiteti, müəllim
memmedovasevinc473 @gmail.com
https://orcid.org/0009-0009-9442-4499

KOMMERSİYA MÜƏSSİSƏSİNİN BİZNES PROSESLƏRİNİN TƏDQİQİNİN METODİKİ ÜSULLARI VƏ METODİKALARININ İŞLƏNİB HAZIRLANMASI

Xülasə. Ölkəmizin iqtisadiyyatı səmərəli idarə edilməsi xüsusilə maddi, maliyyə, əmək və başqa xammal və ehtiyatların təmin olunması səviyyəsindən asılıdır. Böyük miqdarda müxtəlif məhsulların bir məkanda cəmləşməsi üçün infrastruktur adlanan sistemdən istifadə edilir. Respublika iqtisadiyyatında bazar təsərrüfatı prinsiplərinin bərpa olunması üçün həyata keçirilən sosial, o cümlədən iqtisadi islahat çərçivəsində iqtisadiyyatımızın infrastruktur təminatı problemini və bazar münasibətləri sisteminin təşkilində bazar infrastrukturun rolunun artması kimi məsələnin araşdırılması mühüm aktuallıq və önəmlilik kəsb edir.

Kommersiya müəssisələrində marketinq fəaliyyətinə təsir edən ətraf mühit amillərinin və öz imkanlarının təhlili, marketinqin məqsədinin müəyyən edilməsi, həmçinin marketinq fəaliyyətinin istiqamətləri üzrə qərarların qəbulu və onların həyata keçirilməsi üzrə tədbirlər müstəsna əhəmiyyətinə malikdir. Bu işdə marketinq planlaşdırması mühüm rol oynayır. Kommersiya müəssisəsində marketinqin planlaşdırılması prosesi onun realizasiyası üzrə ardıcıl mərhələ və əməliyyatların, yerinə yetirilən hərəkətlərin cəmidir. Belə ki, marketinqin planlaşdırılması strateji marketinq planlaşdırılması və illik marketinq planlaşdırılması formasında özünü birüzə verir. Kommersiya müəssisəsində strateji marketinq planlaşdırılması müəssisənin məqsədi, imkanları və ehtiyatları arasında, həmçinin onlarla bazar imkanları arasında uzunmüddətli sabit tarazlıq yaradılması və bu tarazlığın saxlanması üzrə idarəetmədər ibarətdir.

Məqalədə müəyyən edilmişdir ki, kommersiya müəssisələrində biznes-proseslərin uğurla həyata keçirilməsi üçün əsas metodiki üsullar dəqiqləşdirilməli və tədqiqatın müvafiq metodikası işlənib hazırlanmalıdır. Hazırki dövrdə çoxlu sayda yanaşmalar və müəssisələrin biznes-proseslərinin tədqiqinin onlarla metodikaları mövcuddur. Ancaq kommersiya müəssisələri üzrə biznes-proseslərin tədqiqinin vahid metodikasının işlənib hazırlanması sahəsində konkret tədqiqatlar praktiki olaraq aparılmamışdır. Bizim fikrimizcə, bu mürəkkəb problemin həlli üçün kommersiya müəssisələrində biznes-proseslərin tədqiqi metodikalarının işlənib hazırlanması sferasında bir sıra mərhələli işlər aparılmalıdır.

Açar sözlər: biznes-proses, kommersiya müəssisələrinin əsas fəaliyyət göstəriciləri, Tableau of board,- BS metodologiyası, kommersiya müəssisələri , biznes-proseslərinin planlaşması .

Sevinj MAMMADOVA

DEVELOPMENT OF METHODOLOGİCAL APPROACHES AND METHODS OF THE RESEARCH OF BUSINESS PROCESSES OF COMMERCIAL ENTERPRISES

Abstract: Effective management of the economy of our country depends on the level of provision of material, financial, labor and other raw materials and resources. A system called infrastructure is used to concentrate a large amount of different products in one place. Within the framework of the social and economic reform implemented for the restoration of market economy principles in the republic's economy, the investigation of the problem of infrastructure provision of our economy and the increase of the role of market infrastructure in the organization of the system of market relations is of great relevance and importance.

The analysis of environmental factors affecting marketing activity and their own opportunities in commercial enterprises, determining the purpose of marketing, as well as taking decisions on the directions of marketing activity and measures for their implementation are of exceptional importance. Marketing planning plays an important role in this.

The process of marketing planning in a commercial enterprise is the sum of successive stages and operations, performed actions for its realization. Thus, marketing planning manifests itself in the form of strategic marketing planning and annual marketing planning.

Strategic marketing planning in a commercial enterprise consists in the management of creating and maintaining a long-term stable balance between the purpose, capabilities and resources of the enterprise, as well as between them and market opportunities.

It is determined in the article that for the successful implementation of business processes in commercial enterprises, the main methodical methods should be specified and the appropriate methodology of the research should be developed. Currently, there are a large number of approaches and dozens of methods of studying the business processes of enterprises. However, concrete studies in the field of developing a single methodology for the study of business processes for commercial enterprises have not been practically conducted. In our opinion, in order to solve this complex problem, a number of phased works should be carried out in the sphere of developing business process research methodologies in commercial enterprises.

Keywords: business process, main performance indicators of commercial enterprises Tableau of board, - BS methodology, commercial enterprises, planning of business processes.

Севиндж МАММЕДОВА

РАЗРАБОТКА МЕТОДИЧЕСКИХ МЕТОДОВ И МЕТОДОВ ИССЛЕДОВАНИЯ БИЗНЕС-ПРОЦЕССОВ ТОРГОВЫХ ПРЕДПРИЯТИЙ

Абстракт: Эффективное управление экономикой нашей страны зависит от уровня обеспеченности материальными, финансовыми, трудовыми и другими сырьевыми ресурсами и ресурсами. Система, называемая инфраструктурой, используется для концентрации большого количества различных продуктов в одном месте. В рамках социально-экономической реформы, проводимой в целях восстановления принципов рыночной экономики в экономике республики, исследования проблемы инфраструктурного обеспечения нашей экономики и повышения роли рыночной инфраструктуры в организации системы рыночные отношения имеют огромную актуальность и значение.

Исключительное значение имеют анализ факторов внешней среды, влияющих на маркетинговую деятельность и собственные возможности коммерческих предприятий, определение целей маркетинга, а также принятие решений о направлениях маркетинговой деятельности и мерах по их реализации. Важную роль в этом играет маркетинговое планирование.

Процесс маркетингового планирования на коммерческом предприятии представляет собой сумму последовательных этапов и операций, выполняемых действий для его реализации. Таким образом, маркетинговое планирование проявляется в форме стратегического маркетингового планирования и ежегодного маркетингового планирования.

Стратегическое маркетинговое планирование на коммерческом предприятии заключается в управлении созданием и поддержанием долгосрочного устойчивого баланса между целью, возможностями и ресурсами предприятия, а также между ними и возможностями рынка.

В статье определено, что для успешной реализации бизнес-процессов на коммерческих предприятиях необходимо указать основные методические методы и разработать соответствующую методологию исследования. В настоящее время существует большое количество подходов и десятки методов исследования бизнес-процессов предприятий. Однако конкретных исследований в области разработки единой методологии исследования бизнес-процессов коммерческих предприятий практически не проводилось. На наш взгляд, для решения этой сложной проблемы необходимо провести ряд поэтапных работ в сфере разработки методологий исследования бизнес-процессов коммерческих предприятий.

Ключевые слова: бизнес-процесс, основные показатели эффективности коммерческого предприятия, Таблица правления, - методология БС, коммерческие предприятия, планирование бизнес-процессов.

Giriş

Kommersiya müəssisələrində biznes-proseslərin tədqiqi metodikalarının işlənib hazırlanması sferasında bir sıra mərhələli işlər aparılmalıdır:

- kommersiya müəssisələrinin əsas fəaliyyət göstəricilərinin (KMƏFG) müəyyən edilməsi özünə aşağıdakıları daxil edir: KMƏFG-nin hesablanması və tətbiqi, KMƏFG-nə münasibətdə əsas göstəricilərinin seçilməsi;
- EVA idarəetməsi və Tableau of board əsasında kommersiya müəssisələrində biznes-proseslərin effektivlik göstəricilərinin müəyyən edilməsi, BSC metodologiyası;
- kommersiya müəssisələrində biznes-proseslərin iqtisadi effektivliliklərinin qiymətləndirilməsi metodikasının işlənib hazırlanması özünə aşağıdakı mərhələləri daxil edir: biznes-proses istehlakçılarının mühümlük kriteriyası üzrə təsnifləşdirilməsi; gözlənilən keyfiyyət göstəricilərinin və onların vaciblik dərəcələrinin müəyyən edilməsi; istehlakçıların biznes-proseslərin keyfiyyətindən məmnun qalma göstəricisinin müəyyən edilməsi; prioritet proseslərin aşkar edilməsi; proseslərin effektivliyinin müəyyən edilməsi; prioritet biznes-proseslərin seçilməsi;
- kommersiya müəssisələrində biznes-proseslərin yerinə yetirilməsi effektivliyi kriteriyalarının işlənib hazırlanması;
- satış metodikasının işlənib hazırlanması və onun effektivlik göstəricilərinin müəyyən edilməsi (satışa proses yanaşması, satış sisteminin effektivlik göstəriciləri, satışda problem metodları və s.);
- biznes-proseslərin əməliyyat effektivliyi göstəricilərinin müəyyən edilməsi (yaradılmış əlavə dəyərin təhlili və s.);
- kommersiya müəssisələrində biznes-proseslərin idarə edilməsi effektivliyinin qiymətləndirilməsi üçün göstəricilər sisteminin müəyyən edilməsi (biznes-proses göstəriciləri, kommersiya müəssisəsinin təşkilati struktur göstəriciləri, istehlakçıların təmin olunma göstəriciləri, əmtəənin keyfiyyət göstəriciləri, texniki-iqtisadi və maliyyə göstəriciləri).


Əsas hissə

1.Kommersiya müəssisələrində biznes-proseslərin tədqiqi metodikası

Kommersiya müəssisələrində biznes-proseslərin tədqiqi metodikasının vahid metodikasının ümumi sxemi şəkil 1-də təqdim edilmişdir.

Daha sonra kommersiya müəssisələrində biznes-proseslərin kompleks tədqiq edilməsinin daha müfəssəl sistemini nəzərdən keçirəcəyik.

Kommersiya müəssisələrində biznes-proseslərin tədqiqi metodikasının vahid metodikasının ümumi sxemi (müəllif yanaşması)



Şəkil 1

Kommersiya müəssisələri fəaliyyət sferasından asılı olmayaraq biznesin və heyətin işinin effektivliyinin artırılmasında maraqlıdır. Bu məqsədlərə nail olunması çox halda kəmiyyətcə ölçülə bilən və qiymətləndirmədə etibarlı olan göstəricilərin, məsələn fəaliyyətin kompleks göstəricilərinin (FKG) tətbiqinə şərait yaradır.

Əsas göstəricilər bazasında qurulmuş sistemin başlıca üstünlüyü universallıqdır. O, heyətin kommersiyanın fəaliyyətinin nəticəsində maraqlılığının

artırılmasına da istiqamətlənmişdir. FKG-in işlənib hazırlanması zamanı təşkilatın fəaliyyət xüsusiyyətləri nəzərə alınır. FKG-dən isə həm bütünlükdə kompaniyanın, həm onun ayrı-ayrı bölmələrinin, həm də konkret işçilərin işinin qiymətləndirilməsi üçün istifadə etmək olar. Bundan başqa, FKG sistemi müxtəlif şəraitlərdə baş verən eynicinsli prosesləri müqayisə etməyə imkan verir.

FKG-dən pərakəndə ticarətin çox şaxəli şəbəkəyə malik iri kommersiya müəssisələrində istifadə edilməsi daha effektivdir. Bu biznesdə hər bir ticarət nöqtəsi eyni biznes-prosesləri formalaşdırır. Bu, baş ofisin top-menecmentinə filialların işindəki fərqləri görməyə və çətinlikləri əvvəlcədən görməyə imkan verir. Bununla yanaşı, bu göstəricilər əsasında heyətin motivləşdirilməsi sistemini qurmaq mümkündür. Eyni zamanda bölmələrdən hər birinin fəaliyyət nəticələrini daimi olaraq müqayisə və təhlil edərək ümumən biznesin inkişaf tendensiyasını proqnozlaşdırmaq mümkündür.

Göstəricilərin işlənib hazırlanması və müqayisəsi ilə daxili biznes-analitik məşğul olmalıdır, çünki bu proseslərin həyata keçirilməsi üçün məhz həmin analitikin əlində olan dəqiq informasiyalara ehtiyac olur. O, bütün göstəricilərin mənfi və müsbət tərəflərini dəqiq təsəvvür etməlidir. Çünki həm ümumən biznesin, həm də top-menecerin qiymətləndirilməsi üçün tətbiq olunan göstəriciləri çox vaxt hər hansı şöbənin qiymətləndirilməsi üçün istifadə etmək mümkün olmur. Hər şey hər bir struktur vahidinin işinin spesifikliyi ilə izah edilir. Misal üçün, məsuliyyət mərkəzi rəhbərinin qiymətləndirilməsi üçün vergi və faizlərin ödənilməzindən öncə müəssisənin sərəncamında olan mənfəət göstəricisindən istifadə etmək olar. Ancaq bu göstərici müştərilərlə iş üzrə şöbənin menecerinin işini qiymətləndirmək üçün tətbiq oluna bilməz.

Bundan başqa, FKG bir sıra başqa funksiyaları da yerinə yetirir [1]: hər bir işçi və ya qrupun işini qiymətləndirməyə imkan verir; heyətin nəticə yönümlü olmasına şərait yaradır; hər bir işçinin öz iş sahəsinə görə məsuliyyətini artırır; biznesin ən perspektiv istiqamətlərinin inkişaf etmək və yaxşılaşdırmağa imkan verir; biznesdə "zəif" yerlərin axtarılması üçün menecmentə baza verir; bu və ya digər prosesin nəticəyə təsirini əyani və əlverişli formada göstərir; hər bir idarəetmə qərarına rasionallıq verir.

FKG sisteminin işlənib hazırlanması zamanı hər bir əmsala qarşı irəli sürülən müəyyən tələbləri nəzərə almaq lazımdır: hər bir əmsal dəqiq müəyyən edilməli, belə olduqda istənilən istifadəçi onu ölçə biləcəkdir. Hətta fəaliyyət nəticəsi bu indikatorla qiymətləndirilən əməkdaş belə bu ölçmə işinə cəlb oluna bilər.

Cədvəl 2-də kommersiya müəssisəsinin FKG sistemində istifadə oluna biləcək göstəricilər təqdim edilmişdir.

Cədvəl 1

Kommersiya müəssisəsinin işinin nəticələrinin qiymətləndirilməsi üçün göstəricilər

Göstərici	Nəyi ifadə edir	Kim qiymətləndirilir	Hesablamanın mümkün dövrlülüyü	Tətbiq sahəsi
Vergilər, faizlər və dividentlər ödənildikdən sonra yerdə qalan mənfəət (P)	Gəlirlərin, xərclərin və investisiyaların təsir göstərdiyi və vergilər ödənildikdən sonra yerdə qalan mənfəət	Müəssisənin rəhbərliyi	Sistematik	Müəssisənin işinin effektivliyinin hesablanması
Mənfəətlilik səviyyəsi (%-lə) (R)	Ümumi mənfəətin qazanca münasibəti	Struktur bölmələrin rəhbəri	İl ərzində	Müəssisənin rentabelliyinin hesablanması
Kadrların rotasiyası (Ur)	İşdən çıxanlarla işləyənlərin nisbəti	Heyətin rəhbəri	Sistematik	Heyətin işinin effektivliyinin müəyyən edilməsi üçün
Satışın orta həcmi (Or)	Satış həcmi, satış üzrə menecer	Satış şöbəsi, satış üzrə menecer	Sistematik	Struktur bölməsinin işinin effektivliyinin müəyyən edilməsi

2. Biznes-proseslərin bir sıra effektivlik göstəriciləri

Metodikanın bu bölməsində biznes-proseslərin bir sıra effektivlik göstəricilərini nəzərdən keçirəcəyik.

Hazırki dövrdə kompaniyanın işinin və bu işin strateji idarə edilməsinin effektivliyini qiymətləndirməyə imkan verən kifayət qədər müxtəlif metodikalar mövcuddur. Bir qayda olaraq, onların hamısı maliyyə göstəricilərinin ənənəvi sistemi ilə başqa qeyri-maliyyə göstəricilərinin kombinasiyası arasında qızıl ortanın tapılmasına cəhd göstərilməsi ilə bağlıdır [2].

Kommersiya müəssisəsində biznes-proseslərin iqtisadi effektivliyinin qiymətləndirilməsi metodikasının tədqiqinə böyük maraq mövcuddur [3, s. 83-89].

Biznes-prosesin iqtisadi effektivliyi üç göstəricidən ibarətdir – prosesin dəyər üzrə effektivliyi, prosesin zaman üzrə effektivliyi və prosesin keyfiyyət üzrə effektivliyi. Adətən biznes-proseslərin effektivliyinin qiymətləndirilməsi bir neçə

qarşılıqlı asılı olan mərhələlər üzrə həyata keçirilməlidir və bu mərhələlərə aşağıdakılar aiddir:

A. Biznes-proseslərin iştirakçıları vaciblik kriteriyası üzrə təsnifləşdirilir və onlara çəki mənimsədilir:

$$K_S = \sum_{n=1}^{m} \overline{S} = 1$$

harada ki, K_s – müəssisənin biznes-proseslərinin bütün sinifdən olan istehlakçılarının ümumi çəkisi;

$\overline{S}$ - istehlakçıların *i*-ci sinfinin vacibliyinin xüsusi çəkisi (hissə ilə);

n - 1-dən *m*-ə qədər istehlakçılar sinfidir.

B. Gözlənilən keyfiyyət göstəricilərinin və onların vacibliyinin müəyyən edilməsi üçün hər bir istehlakçılar sinin sorğusu həyata keçirilir. İstehlakçılar tərəfindən seçilən gözlənilən keyfiyyətdə olan hər bir göstəricinin orta çəkili vacibliyi aşağıdakı düsturla hesablanır:

$$O_i = \sum_{n=1}^{m} SO_2$$

harada ki, O_i - gözlənilən keyfiyyətdə olan *j*-cu göstəricinin orta çəkili vacibliyi (%-lə);

S – *i*-ci sinifdən olan istehlakçıların xüsusi çəkisi (hissə ilə);

O_2 – *i*-ci istehlakçılar sinfi tərəfindən mənimsədilən gözlənilən keyfiyyətdə olan *j*-cu göstəricinin vacibliyi (%-lə);

n – 1-dən *m*-ə qədər istehlakçılar sinfidir.

C. İstehlakçıların biznes-proseslərin keyfiyyətindən məmnun qalma göstəricisi müəyyən olunur və bu, əvvəldə müəyyən olunmuş gözlənilən keyfiyyət göstəricisinin aşkar edilməsi yolu ilə aparılır. Hər bir göstəricidən məmnun qalma iştirakçıların rəylərinin toplanması metodlarının köməyilə müəyyən olunur, daha sonra isə aşağıdakı düsturla istehlakçıların keyfiyyətdən məmnun qalmalarının orta çəkili göstəricisi hesablanır:

$$Y_i = \sum_{n=1}^{m} SY_2$$

harada ki, Y_1 – istehlakçıların keyfiyyətin *j*-cu göstəricisindən məmnun qalması (%-lə);

S – istehlakçıların *i*-ci sinfinin xüsusi çəkisi (hissə ilə);

Y_2 – *i*-ci istehlakçı sinfi tərəfindən mənimsədilmiş *j*-cu keyfiyyət göstəricisindən məmnun qalma (%-lə);

n – 1-dən *m*-ə qədər istehlakçılar sinfidir.

İstehlakçının keyfiyyətdən orta məmnun qalma göstəricisi aşağıdakı düsturla hesablanır:

$$Y_{İS} = \frac{\sum_{n=1}^{m} \overline{Y_{2S}}}{t}$$

harada ki, $Y_{İS}$ - istehlakçının keyfiyyətdən orta məmnun qalma göstəricisi (%-lə);

$\overline{Y_{2S}}$ - istehlakçıların *I*-ci keyfiyyət göstəricisindən məmnun qalmasının orta çəkili göstəricisi (%-lə);

t – keyfiyyət göstəricilərinin sayıdır.

Istehlakçıların keyfiyyətdən orta məmnun qalma göstəricisini müəyyən etdikdən sonra müəssisənin rəhbərliyi və işçi qrup istehlakçıların keyfiyyətdən məmnun qalmasının normativ-məqsədli qiymətinin təyin edilməsi üzrə qərar qəbul edirlər, buna isə biznes-proseslərin reinjinirinqi zamanı nail olunmalıdır.

Biznes-proseslərin keyfiyyət göstəricisi üzrə reinjinirinqin aparılması üçün prioritet sahələrin aşkar edilməsi üçün "A" matrisi qurulur, bu matrisdə absis oxu üzrə vaciblik göstəriciləri (gözlənilən keyfiyyət), ordinat oxu üzrə isə istehlakçıların məmnun qalma göstəricisinin normativ-məqsədli qiymətdən kənarlaşması yerləşdirilir, adı çəkilən kənarlaşma isə aşağıdakı düsturla hesablanır:

$$\Delta y = \overline{y_{s1}} - y_{s2}$$

Δy - məmnun qalma göstəricisinin normativ-məqsədli qiymətdən kənarlaşması (%-lə);

$\overline{y_{s1}}$ - istehlakçıların *j*-cu keyfiyyət göstəricisindən məmnun qalmasının orta çəkili göstəricisi, (%-lə);

y_{s2} - istehlakçıların keyfiyyətdən məmnun qalması üzrə rəhbərlik tərəfindən müəyyən olunmuş normativ-məqsədli qiymət (%-lə).

Daha sonra proseslərin vacibliyinin müəyyən edilməsi və "B" matrisinin qurulması yolu ilə korreksiya edici fəaliyyətlər və reinjinirinq tələb edən prioritet proseslər aşkar edilir. Proseslərin vacibliyi aşağıdakı düsturla hesablanır:

$$V_S = \frac{D_1 \cdot O_1}{100}$$

harada ki, V_S – *jz*-ci prosesin vacibliyi (%-lə);

D_1 – *jz*-ci prosesin keyfiyyət göstəricisinə təsir dərəcəsi (%-lə);

O_1 – gözlənilən keyfiyyətdə olan *j*-cu göstəricinin orta çəkili vacibliyi (%-lə).

D. Proseslərin effektivliyinin zaman və prioritetlik üzrə müəyyən edilməsi aşağıdakı ardıcıllıqla həyata keçirilir: müəyyən təhlil metodu ilə prosesin yerinə yetirilməsi zamanı təhlil edilir; zaman göstəricisi üzrə prioritet proseslərin aşkar edilməsi matrisinin qurulması yolu ilə reinjinirinqin aparılmasını tələb edən proseslər aşkar edilir.

3.Biznes-proseslərin yerinə yetirilməsi zamanının təhlilinin aparılması üçün PERT metodu.

Biznes-proseslərin yerinə yetirilməsi zamanının təhlilinin aparılması üçün PERT metodundan istifadə olunur. PERT-təhlil metodunda hər bir proses üçün bir determinasiya kəmiyyətinin yerinə onun davamiyyət müddətinin üç qiyməti verilir – optimist (t_{min}), ən ehtimal olunan (t_b) və pessimist (t_{max}) və bu qiymətlər biznes-prosesin gözlənilən davamiyyət müddətini ($t_{göz}$) hesablamağa imkan verir. Bu hesablama b-paylanma statistik konsepsiyasına əsaslanır, bu konsepsiyaya görə prosesin davamiyyət müddətinin ən ehtimal olan qiyməti davamiyyətin pessimist və optimist qiymətlərindən 4 dəfə çoxdur.

$$t_{iac} = \frac{t_{\min} + 4t_a + t_{\max}}{6}$$

Əgər hər bir alt prosesin gözlənilən davamiyyət müddətini determinasiyalı modelə yerləşdirsək, prosesin ümumi davamiyyət müddətini tapa bilərik.

Reinjinirinq tələb edən prioritet proseslərin seçilməsi prosesin dəyər üzrə effektivlik göstəricisi üzrə həyata keçirilir.

Müəssisədə xərclərin resursların dəyərinə köçürüldüyü kimi, dolayı xərclərin kəmiyyəti seçilmiş xərc drayveri vasitəsilə proporsional olaraq resursların üzərinə köçürülür:

$$P = \sum_{n=1}^{m} (m \cdot c_1)$$

harada ki, P – j-cu resursun dəyəri;

m – j-cu resurs tərəfindən istifadə olunan xərc d-drayver vahidlərinin sayı;

c_1 – xərc d-drayverinin dəyəridir.

Bundan sonra proseslərin dəyər üzrə effektivlik göstəricisini hesablamaq lazımdır. Bunun üçün biznes-proseslərin qrafiki təsviri metodunun köməyilə proseslərin çıxışı müəyyən olunur, daha sonra isə ekspert qiymətləndirməsinin köməyilə hər bir prosesin məhsul və ya xidmətin yaradılmasındakı payı aşkar edilir. Bu zaman proseslərin dəyər üzrə effektivlik göstəricisi (F) aşağıdakı düsturla hesablanır:

$$F = \frac{W_1}{R_1}$$

harada ki, W_1 - prosesin çıxşının yaradılmasında alt prosesin payı (%-lə);

R_1 – alt prosesin prosesin dəyərindəki payıdır (%-lə).

Prosesin inteqral ranqı özündə biznes-prosesin məcmu iqtisadi effektivliyini əks etdirir:

$$I_{IN} \sum_{m=1}^{4} I_2$$

harada ki, I_{IN} – N prosesinin inteqral ranqı;

I_2 – m matrisi üzrə N prosesinin ranqı;

m – 1:4 ölçülü matrisdir.

İnteqral ranqı minimal olan proses ən aşağı effektivliyə malik olacaq və

reinjinirinq tələb edəcəkdir. Böhran nöqtəsinə düşən proseslər üçün reinjinirinqin tətbiqi metodunun seçilməsi onunla şərtlənir ki, bu metod fəaliyyət göstəricilərinin əsaslı şəkildə yaxşılaşdırılması, o cümlədən proseslərin dəyər, zaman və keyfiyyət üzrə effektivliyinin artırılması məqsədilə radikal yenidən layihələşdirməyə imkan verir.

4. Biznesin qiymətləndirilməsinin məqsədlərinin təsnifatı

Kommersiya müəssisəsində biznes-proseslərin yerinə yetirilməsinin effektivlik kriteriyalarının işlənib hazırlanması üçün biznesin qiymətləndirilməsinin mövcud məqsədlərinin təsnifatını vermək lazımdır [4, s. 5].

Daha sonra mütəxəssislərin ekspert qiymətləndirmələri əsasında biznes-proseslərin kəmiyyət xarakteristikalarını vermək lazımdır. Hər hansı biznes-proses üzrə yerinə yetirilmənin effektivlik kriteriyalarının müqayisəli qiymətləndirilməsinin aparılması üçün adətən T.Saatinin iyerarxiyaların təhlili metodundan (İTM) istifadə olunur. İyerarxiyaların təhlili metodu kriteriyalar üzrə biznes-proseslərin xarakteristikalarının müqayisəli qiymətləndirilməsinin həyata keçirilməsinə, habelə nəzərdən keçirilən kriteriyaları öz aralarında ranqlara bölməyə və müqayisə olunan biznes-proseslər üzrə yekun kəmiyyət qiymətinin əldə edilməsinə imkan verir. Beləliklə, biznes-proseslərin effektivliyinin qiymətləndirilməsi aşağıdakı tədqiqatda təqdim edilmiş metodikaya uyğun olaraq həyata keçirilir [5].

Tədqiqatlarda satış biznes-prosesləri və onun effektivlik göstəriciləri mühüm yer tutur.

Satışın təşkilati strukturunu başa düşərək satıcıların fəaliyyətini effektiv şəkildə yaxşılaşdırmaq, müəyyən vəzifələrin yerinə yetirilməsi üçün bölmələri ixtisar etmək və ya genişləndirmək, biznes-prosesləri təkmilləşdirmək mümkündür. Satış sisteminə proses nöqteyi-nəzərindən baxış problemləri daha rasional və dəqiq şəkildə aşkar etməyə, bölmələr qarşısında daha dəqiq və məntiqi məqsədlər qoymağa imkan verir [6].

Bu yanaşma müəssisədə effektiv satış sisteminin layihələşdirilməsi zamanı tətbiq oluna bilər. Onun əsasında satışın təşkilati strukturunu məntiqi şəkildə qurmaq, məqsədli oriyentirləri planlaşdırmaq mümkündür. Həmçinin problemli zonaların diaqnostikası və onların həllinin ümumi istiqamətlərini də nəzərdən keçirək.

Praktiki olaraq bütün müəssisələrdə satış üzrə məsuliyyət daşıyan müəyyən bölmələr fəaliyyət göstərir. Bir sıra kompaniyalarda bu işi heç bir qərar qəbul etməyən yükləmə-boşaltma şöbələri həyata keçirir və proses yalnız anbar proqramında müəyyən qeydlərin edilməsindən ibarət olur.

Başqa bir qrup müəssisələrdə isə satış sistemi ticarət evi qismində çıxış edir və bu ticarət evi eyni zamanda təchizatı da nəzarətdə saxlayır. Eyni zamanda onun istehsalla qarşılıqlı əlaqəsi kifayət qədər uzaq ola bilər. Bir sıra firmalarda satış sistemi fəal satış bölmələri formasında mövcud olur: menecerlər daimi olaraq müştəri axtarır, onlarla qarşılıqlı münasibətlər üzrə məsuliyyət daşıyırlar və

məhsulun keyfiyyəti, malgöndərmə həcmi və müddətləri üzrə cavabdehdirlər.

Müəssisədə satış sisteminin hansı formada mövcud olmasından asılı olmayaraq, istənilən halda o, özündə eyni elementlərə malik prosesi əks etdirir: prosesin girişi, bilavasitə prosesin özü, prosesin çıxışı, prosesin idarə edilməsi, zəruri resurslar və icraçılar.

Son nəticə, satış sisteminin əsas effektivlik göstəricisi, yəni onun "çıxışı" nədən ibarətdir? Hər şeydən əvvəl, iki başlıca göstəricilər qrupunu fərqləndirmək olar.

1. Satışın kəmiyyət göstəriciləri: həcm göstəriciləri, satışda güzəştlərin və stimullaşdırıcıların payı, satışın təşkili və həyata keçirilməsi üzrə xərclərin payı, bir müştəri üzrə orta satış, müştərilərin həcm və mənfəətlilik üzrə təsnifləşdirilməsi, satışda müştəri seqmentinin payı.

2. Müştərilərin məmnunluğu: müştəri növlər üzrə məmnunluq dərəcəsi, təkrar təmasların/sifarişlərin payı və dinamikası, dəstək xidmətinə müraciətlərin/iradların sayı və dinamikası [7].

Qeyri-effektiv satışın dərin səbəbləri ondan ibarətdir ki, satış çox vaxt bu problemlər istehsal və satış şöbələrinin uzlaşmamış fəaliyyəti nəticəsində meydana çıxır. Bu uyğunsuzluğu bir çox istehsalçıların fərqləndirici xüsusiyyətinə çevrilmiş geniş məhsul çeşidi bir qədər də mürəkkəbləşdirir. Çeşidin genişləndirilməsi o vaxt məntiqi yol idi ki, bazar iqtisadiyyatına yenicə keçid almış və zəmanətli satış imkanlarını itirmiş müəssisələr yatan istehsal güclərini hər vəcdlə yenidən yükləməyə çalışırdılar.

Buna görə də marketinq sahəsində taktiki problemlərə diqqət yetirmək daha məqsədəuyğundur: məqsədli istehlakçıların qeyri-düzgün müəyyənləşdirilməsi, satışın reklam dəstəyinin olmaması, məhsulların qeyri-düzgün mövqeləşdirilməsi, yüksək qiymətlər və qeyri-rasional güzəştlər.

Bu problemlər çox vaxt satışın aşağı düşməsinin təhlili zamanı nəzərə alınmır. Marketinq sahəsində düşünülmüş siyasət həyata keçirməkdənsə, bütün marketinq problemləri və vəzifələrini satıcıların üzərinə qoymaq daha asandır. Əgər bazarda rəqabət kifayət qədər kəskindirsə, onda zəif marketinq dəstəyi satış həcmini azaldan əsas problemə çevrilir.

Bu problemlərin səbəbləri adətən kifayət qədər heyətin olmaması, onların aşağı ixtisaslılığı, qeyri-düzgün yerləşdirilmə və kompaniyanın məqsədləri ilə uzlaşdırılmamış motivasiya sistemidir.

Daha doğrusu, satışın effektivliyinin yüksəldilməsi üçün kadr siyasəti sahəsində satışla məşğul olan kifayət sayda əməkdaşın olması, onların ixtisas səviyyəsinin bazar tələblərinə və kompaniyanın məqsədlərinə uyğun olması və tarazlaşdırılmış motivasiya sisteminin mövcud olması tələb olunur [8].

Satışın daxili təşkili problemlərinə aiddir:

1. Satış planı "maliyyə" üzrə tərtib olunur. Kompaniyanın stabil maliyyə vəziyyətinin təmin edilməsi üçün tələb olunan satış həcmi planlaşdırılır. Bu zaman çox vaxt real bazar proqnozları nəzərə alınmır, bu proqnozlar izə arzu olunan səviyyədən çox uzaq ola bilərlər və nəticədə planlar yerinə yetirilmir.

2. Satış planı "istehsal" üzrə tərtib olunur. Satış planının istehsal imkanlarına əsaslanaraq tərtib olunduğu müəssisələrdə vəziyyət daha pisdir. Hazırda satışı məhz bu cür planlaşdıran çox az sayda müəssisə mövcuddur, baxmayaraq ki, çox vaxt satışın effektivliyi istehsal oluna biləcək maksimal həcmdə məhsulu sata bilmək qabiliyyəti kimi nəzərdən keçirilir.

Təşkilatların əsas problemi ondan ibarətdir ki, onların məhsullarının bazarın ödəməyə hazır olduğu qiymətlə ifadə olunan dəyəri təşkilatın sərf etdiyi xərclərdən çox olmalıdır. Beləliklə, yaradılmış əlavə dəyər bazar dəyəri ilə məhsul üzrə çəkilmiş xərclərin nisbəti ilə ifadə olunan nəzəri konsepsiyadır. Yaradılmış əlavə dəyərin kəmiyyətini (ƏOD) aşağıdakı düsturla tapmaq olar:

$$ƏOD = C_1 – C_2$$

harada ki, C_1 – emaldan sonrakı dəyər;

C_2 – emaldan əvvəlki dəyər.

İqtisadi dəyər əlavə edən biznes-proseslərin (xərclər) qiymətləndirilməsi üçün ayrıca biznes-prosesdə bu yaradılmış əlavə dəyəri xüsusi çəki göstəricisi ilə ifadə etmək olar.

Kompaniyanın ümumən fəaliyyətinin yüksək effektivliyinə yalnız onun ayrı-ayrı biznes-proseslərinin və müvafiq olaraq da onları yerinə yetirən şəxslərin kifayət qədər effektiv olması halında nail olmaq olar.

Biznes-proseslərin davamiyyət müddəti ilə bağlı olan əsas göstərici istehsal və əməliyyat dövrünün effektivlik göstəricisidir , bu göstərici isə prosesin bütün əməliyyatlarının yerinə yetirilməsinə sərf olunan məcmu vaxtın biznes-prosesin ümumi dövrünün davamiyyət müddətinə nisbəti kimi müəyyən olunur (OS):

$$OS = \frac{V_1}{V_2}$$

harada ki, V_1 – istehsal müddəti;

V_2 – ümumi istehsal dövrünün davamiyyət müddəti.

$$V_1 = \sum_{m=1}^{n} V_0$$

harada ki, V_0 – yerinə yetirmə müddəti;

n - əməliyyatlar;

m – 1-dən n-ə qədər prosesdə əməliyyatların sayıdır.

$$V_{dövr} = V_3 + V_4 + V_5 + V_6$$

harada ki, $V4$ – keyfiyyətə nəzarət müddəti;

V_5 – məhsulların nəqli və yerdəyişməsi müddəti;

V_6 – dayanma/saxlama müddəti.

Nəticə

Kommersiya müəssisələrində marketinqin planlaşdırılması müəssisənin marketinqin ətraf mühitinin və öz imkanlarının təhlili, marketinqin məqsədinin müəyyən edilməsi, həmçinin marketinq fəaliyyətinin istiqamətləri üzrə qərarların

qəbulu və onların həyata keçirilməsi üzrə tədbirlər, üsullarının cəmidir. Kommersiya müəssisələrində planlaşdırmanın məqsədi müəssisənin nəyi necə etməli olduğunu, nə əldə etmək istədiyini və konkret vəziyyətdə hansı işləri görməli olduğunu qabaqcadan müəyyənləşdirməyi şərait yaradır. Biznes-proseslərin davamiyyət müddəti ilə bağlı olan əsas göstərici istehsal və əməliyyat dövrünün effektivlik göstəricisidir , bu göstərici isə prosesin bütün əməliyyatlarının yerinə yetirilməsinə sərf olunan məcmu vaxtın biznes-prosesin ümumi dövrünün davamiyyət müddətinə nisbəti kimi müəyyən olunur .Bu göstərici hər zaman vahiddən kiçikdir, çünki proseslərdə zaman kəsikləri baş verir və əksər hallarda bu göstərici 0,05-0,2 arasında olur. OS göstəricisi vahidə nə qədər yaxındırsa, istehsal (əməliyyat) dövrünün effektivliyi bir o qədər yüksəkdir və nəticə etibarı ilə göstərici vahidə yaxınlaşmağa çalışmalıdır.

ƏDƏBİYYAT

1. Seyidov, S. Kommersiya fəaliyyətinin formalaşması və səmərəliliyi. – Bakı. – 2008, – 360 s.
2. Карамов, О.Г. Бизнес-планирование. М.: Евразийский открытый институт. – 2010, – 124 с.
3. Иванов, С.В. Реинжиниринг бизнес-процессов предприятий сферы услуг. Авт. Дис. СПб.: СПбГУЭФ. – 2002, – 178 с.
4. Киль, М.Ю. Коммерческая деятельность в сфере услуг: учубное пособие/ СПб: Изд-во СПб ГУЭФ. – 2010.
5. Уткин, Э.А. Этика бизнеса.Учебник. –Москва. – 2000, 87 с.
6. Долгополова, Е. Е. Информационное обеспечение маркетинга: теория и практика : научно-практическое пособие / Е.Е.Долгополова. – Минск: Новое знание, – 2010. – 143 с.
7. Allen, K. Current trends affecting providers of business information // Business Information Review, – 2011. № 28(1). – p. 39.
8. Robert, H. G. The Role of Public Libraries in Local Economic Development / – Kansas: Kansas State Library, – 2000. Report No. 260 (November). – 61 p.

Məqalənin redaksiyaya daxilolma tarixi: 23.05.2024
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 30.05.2024
Məqalənin çapa qəbul olunma tarixi: 10.06.2024

DOI: doi.org/10.61226/12.2.2023/20242.7
UOT: 339.732
Simnar PAŞAZADƏ
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
İqtisadiyyat İnstitutu, doktorant
simnarpasazade@gmail.com
https://orcid.org/0009-0007-3554-4007

İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRDƏ XARİCİ KAPİTALIN ƏHƏMİYYƏTİ

Xülasə: Kapitalın cəlb edilməsi inkişaf etməkdə olan ölkələrdə müəssisələrin ən çox üzləşdiyi əsas problemlərdən biridir. Həmin problemi həll etmək üçün ya bazara qiymətli kağızlar buraxırlar, ya da maliyyə qurumlarından borc götürürlər. İnkişaf etməkdə olan ölkələrdə səhm və istiqraz bazarı yaxşı inkişaf etmədiyi üçün bəzən müəssisələr inkişaf üçün kifayət qədər kapital cəlb etməkdə çətinlik çəkirlər. Buna görə də müəssisələr beynəlxalq investorlar və maliyyə institutları axtarırlar. Məqalədə əsasən xarici kapitalın 2 növü, yəni portfel investisiyaları və beynəlxalq maliyyə təşkilatlarından alınan borclar araşdırılır. Məqalədə həm portfel investisiyalarının, həm də borclanmaların üstünlükləri və çatışmazlıqları təhlil edilir, real vaxt nümunələri verilir və inkişaf etməkdə olan ölkələrdə müəssisələr üçün ən uyğun olanı müəyyən etmək üçün müqayisəli təhlil aparılır. Bundan əlavə, inkişaf üçün ən yaxşı strategiyanın seçilməsinə kömək etmək üçün inkişaf etməkdə olan ölkələrdə fəaliyyət göstərən müəssisələr üçün ən yaxşı strategiya real dünya nümunələrinə istinadla müzakirə edilir.

Açar sözlər: portfel investisiyaları, alınan borclar, inkişaf etdirməkdə olan ölkələr, xarici kapital, müqayisəli analiz.

Simnar PASHAZADE

THE IMPORTANCE OF FOREIGN CAPITAL IN DEVELOPING COUNTRIES

Abstract: Attraction of capital is one of the major challenges that entities in developing countries mostly face. In order to solve that problem, they either issue securities to the market or get borrowings from financial institutions. As the stock and bond market in developing countries is not well-developed, sometimes the entities find it difficult to attract enough capital for development. Therefore, the entities seek for multinational investors and financial institutions. The article examines mainly the 2 types of foreign capital which are portfolio investments and borrowings from international financial organizations. In the article advantages and disadvantages of both portfolio investments and borrowings are analyzed, the real time examples are provided and comparative analysis are made to determine the best-fit for the entities in developing countries. In addition, the best strategy for the entities in developing countries is discussed with reference to the real-world

examples to help to choose best strategy for development.

Keywords: portfolio investments, get borrowings, developing countries, foreign capital, comparative analysis.

Симнар ПАШАЗАДЕ

ЗНАЧЕНИЕ ИНОСТРАННОГО КАПИТАЛА В РАЗВИВАЮЩИХСЯ СТРАНАХ

Абстракт: Привлечение капитала является одной из основных проблем, с которой чаще всего сталкиваются предприятия в развивающихся странах. Чтобы решить эту проблему, они либо выпускают ценные бумаги на рынок, либо получают займы от финансовых учреждений. Поскольку рынок акций и облигаций в развивающихся странах недостаточно развит, иногда предприятиям трудно привлечь достаточный капитал для развития. Поэтому предприятия ищут транснациональных инвесторов и финансовые учреждения. В статье рассматриваются преимущественно 2 вида иностранного капитала – это портфельные инвестиции и заимствования международных финансовых организаций. В статье анализируются преимущества и недостатки как портфельных инвестиций, так и заимствований, приводятся примеры в реальном времени и проводится сравнительный анализ для определения наиболее подходящих для предприятий в развивающихся странах. Кроме того, обсуждается лучшая стратегия для предприятий в развивающихся странах со ссылкой на примеры из реальной жизни, чтобы помочь выбрать лучшую стратегию развития.

Ключевые слова: портфельные инвестиции, получение заимствований, развивающиеся страны, иностранный капитал, сравнительный анализ.

INTRODUCTION

In a world of globalized capital flows, developing countries face the complex task of harnessing foreign capital to fuel their economic transformation. Foreign direct investment (FDI), portfolio investments, and debt financing (both private and official) present a mix of opportunities and risks for nations seeking to accelerate growth, modernize industries, and improve living standards [2, s. 3-5]. This essay delves into these distinct types of foreign capital, exploring their benefits, drawbacks, and suitability within the context of developing economies. It argues that while foreign capital is a potentially powerful development tool, its impact depends crucially on a country's policy approach, absorptive capacity, and ability to manage the inherent trade-offs [3, s. 1-14].

Historically, limited domestic savings within developing nations have constrained the investments necessary to build productive capacity, upgrade technology, and expand essential infrastructure. Foreign capital offers a critical avenue for bridging this financing gap, potentially setting in motion a cycle of

economic expansion [1, s. 328-343]. Moreover, foreign investors frequently introduce advanced technologies, managerial expertise, and integration into global production networks. These spillovers can boost productivity and competitiveness within the host economy, providing an avenue for moving up value chains [6, s. 824-839].

However, reliance on foreign capital necessitates careful consideration of potential drawbacks. Short-term portfolio flows, driven by global financial actors seeking quick returns, can be highly volatile. Developing economies become vulnerable to sudden capital outflows during periods of external economic shocks, amplifying financial instability and undermining growth prospects [7, s. 939-949]. Furthermore, foreign direct investment, while potentially transformative, comes with risks. Concerns persist about multinational corporations prioritizing profits over equitable local development, exploiting labor, or neglecting environmental standards. Additionally, excessive reliance on debt financing, whether from private lenders seeking high yields or official institutions offering concessional loans, raises the specter of unsustainable debt burdens. This can cripple a nation's long-term fiscal health and constrain its ability to fund essential development spending [4, s. 12-14].

The policy landscape within a developing nation is a paramount factor in shaping the outcomes of foreign capital inflows. Proactive governments do not merely stand by as passive recipients but play a pivotal role in attracting specific types of capital, establishing regulations that safeguard national interests, and ensuring alignment with broader, long-term development goals. Policies focused on strengthening domestic industries, upskilling the labor force, and promoting technology transfer can complement foreign capital inflows, improving a country's ability to unlock the potential benefits and mitigate the risks [5, s. 1-11].

Importantly, the effectiveness of foreign capital is not preordained. Historical experiences of developing countries paint a mixed picture. East Asian nations successfully leveraged FDI in export-oriented manufacturing to achieve rapid industrialization [9, s. 79-89]. Conversely, many nations in Latin America and Africa have struggled to translate FDI inflows or periods of foreign borrowing into sustained, inclusive growth. These contrasting experiences underscore that the developmental impact of foreign capital is determined by a complex interplay of external opportunities, domestic capacities, and proactive policy choices [8, s. 32-35].

The primary purpose of this study is to analyze the multifaceted ways in which foreign capital influences the development trajectory of developing nations, highlighting both the potential gains and the risks. It emphasizes the contingent nature of these impacts and the central role of domestic policies in shaping outcomes.

This study has a duty to go beyond simplistic generalizations about whether foreign capital is inherently good or bad. It seeks to provide a nuanced understanding based on economic research, real-world case studies, and an acknowledgment of the complexities involved.

LITERATURE REVIEW

Alessia A., Margaret S. and Marco S. challenged the assumption that FDI automatically boosts capital formation within developing countries. Their industry-level analysis reveals that FDI's impact is highly contingent on the strength of local financial markets. Their findings suggest that in countries with underdeveloped financial systems, FDI may crowd out domestic investment, offering a cautionary note for policymakers focused on maximizing FDI's developmental role.

In Global Investment Competitiveness Report (2017-2018) it was discussed that foreign capital is very crucial for improvement of industries and economies of developing countries and pros and cons of foreign capitals especially in the form of foreign direct investment (FDI) was analyzed.

Adams, S., Sakyi, D., & Opoku, E. E. O. had discussed the form of capital inflows especially foreign capital in Sub-Saharan African countries, their effects from both positive and negative perspectives. They also discussed that although foreign capital is good for immediate improvement of economy, it somehow should be managed by the government, therefore it should be monitored regularly.

ANALYSIS

Developing countries, driven by the need to stimulate economic growth and close financing gaps, increasingly engage with international capital markets in search of foreign capital. This analysis focuses on two key forms of this engagement – portfolio investments and external debt – and explores both their potential contributions and substantial risks for developing economies.

Developing Stock Markets and Bond Issuance

The development of domestic stock and bond markets offers a pathway for developing nations to attract foreign portfolio investments. Well-functioning capital markets provide firms with a source of financing beyond traditional bank loans, potentially spurring innovation and expansionary investment. For governments, the ability to issue bonds, particularly those denominated in their own currency, can be a valuable tool in financing infrastructure and other development needs while reducing foreign exchange risks. Countries such as South Africa and Malaysia have made notable strides in deepening their capital markets. Targeted regulatory reforms, investor education initiatives, and the establishment of credible credit rating agencies contributed to an expansion of both their stock exchanges and bond markets. Consequently, these nations experienced increased inflows of foreign portfolio investment, providing domestic firms with more diversified funding options [10, s. 6-8].

However, the path to well-developed capital markets is fraught with challenges for many developing countries. Stock markets often remain small, characterized by low liquidity and a concentrated base of listed companies. Bond markets, particularly for local currency bonds, struggle to attract sufficient global investor interest. Without substantial reform efforts, developing countries risk finding themselves perpetually reliant on short-term, yield-seeking "hot money" flows from foreign portfolio investors rather than long-term capital supportive of broader development objectives.

Sudden Stops and Contagion

The volatility inherent in much of international portfolio investment poses a major challenge to developing economies. Sudden shifts in global investor sentiment, often caused by events in major developed economies, can trigger what economists' term "sudden stops" – abrupt reversals of capital inflows into emerging markets. These sudden stops frequently destabilize developing countries with weak macroeconomic fundamentals or highly dollarized economies, leading to currency depreciations, financial distress, and ultimately, economic recessions.

A classic example of this phenomenon is the 1997 Asian Financial Crisis, initially triggered by a currency crisis in Thailand. The crisis quickly spilled over to other Southeast Asian economies, fueled by contagion effects as foreign investors indiscriminately withdrew funds from the entire region. Similar episodes of "sudden stops" and contagion have unfolded in Latin America (most notably, the Tequila Crisis in Mexico in 1994) and periodically affect other emerging economies. The "Taper Tantrum" of 2013, where mere signals of tighter monetary policy in the United States led to capital outflows and market turmoil in some developing nations, underscores the persistent vulnerability stemming from reliance on fickle short-term portfolio flows.

The Debt Conundrum

Developing countries utilize diverse channels to access external debt financing, ranging from traditional bilateral loans to borrowing from multilateral institutions and tapping into international bond markets. While debt, if used judiciously, can fund critical development projects, a recurring theme for many developing nations has been the unsustainable build-up of debt burdens, ultimately hindering their economic progress.

The growing role of private sector debt is a notable trend. Governments and corporations in developing countries are increasingly issuing bonds held by global investors or obtaining loans from commercial banks. This shift away from purely concessional lending from development banks carries greater risks, as private bondholders and banks are primarily motivated by maximizing returns and less forgiving during periods of economic distress. Furthermore, the rise of Chinese financing, exemplified by the Belt and Road Initiative, has created a new landscape of lending to developing countries, often with less transparency around terms and conditionalities compared to traditional lenders.

Case studies such as Zambia's recent debt default and Sri Lanka's economic collapse driven by unsustainable external debt serve as stark reminders of the perils of debt dependency. Yet even countries that avoid outright crises can find themselves in a "debt overhang" situation. Excessive debt servicing costs limit the fiscal space available for governments to invest in education, health, and infrastructure – essential building blocks for long-term development.

CONCLUSION

As a conclusion, we can summarize the following pros and cons for both portfolio investments and debt financing from above analysis:

Table 1: Pros and cons of portfolio investments and debt financing




Table 1 resource: From author.

The potential for foreign capital to accelerate development within low- and middle-income nations is undeniable yet comes with a complex set of trade-offs. This analysis, with a focus on portfolio investments and debt financing, demonstrates that both opportunity and risk coexist, making careful country-specific strategies a necessity.

The promise of developing stock and bond markets lies in diversifying financing options, potentially reducing reliance on volatile short-term flows. However, achieving well-functioning capital markets requires dedicated reforms, investor protections, and transparency. Without concerted policy efforts, many developing nations will remain susceptible to the whims of 'hot money', undermining long-term growth prospects.

The inherent volatility of portfolio investments remains a persistent threat. Sudden shifts in global market sentiment can trigger sharp reversals of capital inflows, destabilizing economies with macroeconomic weaknesses. While the exact role of capital controls remains contested, prioritizing sound economic fundamentals and strengthening financial sector resilience are vital for countries seeking to benefit from portfolio investments.

External debt, when used judiciously for productive projects, can fund critical infrastructure and development needs. Yet, history offers countless cautionary tales of unsustainable debt build-up hindering growth and diverting scarce resources away from social sectors. The rise of private sector debt, while offering more flexible terms in some cases, carries heightened risks due to higher interest rates and lack of transparency. Enhanced debt management capabilities and transparent reporting by both borrowers and lenders are crucial to avoid debt traps.

This analysis underscores that simplistic, universally applicable prescriptions for engaging with foreign capital are misguided. Developing nations

must tailor their approach based on their specific economic context, level of institutional development, and existing debt exposure. Importantly, proactive governments have enormous agency in shaping the outcomes of foreign capital inflows. Policies focused on deepening domestic financial systems, reducing foreign exchange vulnerability, investing in human capital, and promoting good governance are essential.

Going forward, future research should explore the diverging impacts of different debt sources (private vs. official) and how foreign capital influences individual firms and sectors within developing countries. Crucially, this research agenda must extend beyond purely economic metrics to rigorously examine the social and environmental implications of foreign investments.

ƏDƏBİYYAT

1. Adams, S., Sakyi, D., and Opoku, E. E. O. Capital Inflows and Domestic Investment in Sub-Saharan Africa: Evidence from Pooled Mean Group (PMG) Estimation Approach // Foreign Trade Review, - 2016. 51(4), -p. 328-343.
2. Alessia A., Margaret S. and Marco S. FDI and capital formation in developing economies: New evidence from industry-level data // National Bureau of Economic Research, -2017. Working paper 23049, -p. 3-5.
3. Helmut Reisen and Marcelo Soto. Which types of Capital inflows foster developing-country growth? // International Finance, -2001. 4:1, -p. 1-14.
4. Kalim Siddiqui. Foreign Capital Investment into Developing Countries: Some Economic Policy Issues // Research in World Economy, -2015. Vol. 6, No. 2, -p. 12-14.
5. Milner, Helen V. Introduction: The Global Economy, FDI, and the Regime for Investment // World Politics, -2014. Vol. 66 No. 1, -p. 1-11.
6. Parantap Basu and Alessandra Guariglia. Foreign Direct Investment, inequality, and growth // Journal of Macroeconomics, -2007. Vol. 29, Issue 4, -p. 824-839.
7. Samuel Adams. Foreign Direct investment, domestic investment, and economic growth in Sub-Saharan Africa // Journal of Policy Modeling, -2009. №31, -p. 939–949.
8. Sebastian Edwards. Capital Flows and the Emerging Economies: Theory, Evidence, and Controversies // NBER Books, National Bureau of Economic Research, -2000. Inc, number edwa00-1, -p. 32-35.
9. Tasinda, O., Tian, Z. , Imanche, S., Bekoe, B. and Raphael, F. The Impacts of Foreign Direct Investment Flows on the Economic Growth during the Pre-Covid-19 Era // Open Journal of Social Sciences, -2022. Vol. 10, -p. 79-89.
10. The World Bank. Foreign Investor Perpectives and Policy Implications // 2017-2018 Global Investment Competitiveness Report, -2017, -p. 6-8.

Məqalənin redaksiyaya daxilolma tarixi: 17.04.2024
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 24.04.2024
Məqalənin çapa qəbul olunma tarixi: 21.05.2024

DOI: doi.org/10.61226/12.2.2023/20242.8
UOT: 93
Məhərrəm ZÜLFÜQARLI
Azərbaycan Turizm və Menecment Universiteti,
tarix üzrə elmlər doktoru, professor
mzulfugarli@gmail.com
https://orcid.org/0000-0003-0345-4318

TÜRKİYƏYƏ QARŞI BOLŞEVİK TƏXRİBATI: ƏRZİNCAN SOVET RESPUBLİKASI (1916-1921)

Xülasə: Rusiya XX əsrin əvvələrindəki ictimai-siyasi vəziyyətdən sui-istifadə edərək qardaş Türkiyəyə qarşı daim təxribatlar törətmişdir. "Ərzincan Sovet Respublikası"nın bu təxribatın demək olar ki, başlanğıcı olmuşdur. Sonradan Türkiyə və Sovet Rusiyasının eyni düşmənə, Antantaya qarşı mübarizə aparması onların yaxınlaşmasına səbəb olmuşdur. Bundan sui-istifadə edərək Bolşeviklər Türkiyə milli-azadlıq hərəkatının yönün dəyişmək, Türkiyəni sovetləşdirməklə öz təsiri altına salmağa çalışırdı. Bu məqalədə Rusiyanın köməkliyi Türkiyənin qoynunda təxribat yuvası olan ilə "Ərzincan Sovet Respublikası (1916-1921)"nın fəaliyyətindən bəhs edilir. Seperatçı erməni qüvvələrinin rəhbərlik etdiyi bu sovet respublikası 1921-ci ildə Türkiyə ordusu tərəfindən məğlub edilmişdir.
Açar sözlər: sovet rejimi, bolşevik, müqavilə, I Dünya müharibəsi, Rusiya, Türkiyə

Maharram ZULFUGARLI

BOLSHEVIK PROVOKATION AGAINST TURKEY: ERZINJAN SOVIET REPUBLIC (1916-1921)

Abstract: Russia, abusing the socio-political situation at the beginning of the 20th century, has constantly committed provocations against brother Turkey. The "Soviet Republic of Erzincan" was almost the beginning of this provocation. Later, the fact that Turkey and Soviet Russia fought against the same enemy, the Entente, led to their rapprochement. By abusing this, the Bolsheviks tried to change the direction of the Turkish national liberation movement and bring Turkey under their influence by sovietizing it. This article talks about the activities of the "Soviet Republic of Erzincan (1916-1921)" which was a nest of subversion in the bosom of Turkey with the help of Russia. This Soviet republic led by separatist Armenian forces was defeated by the Turkish army in 1921.
Keywords: Soviet regime, Bolshevik, treaty, World War I, Russia, Turkey

Магаррам ЗУЛЬФУГАРЛЫ

БОЛЬШЕВИСТСКАЯ ПРОВОКАЦИЯ ПРОТИВ ТУРЦИИ: ЭРЗИНДЖАНСКАЯ СОВЕТСКАЯ РЕСПУБЛИКА (1916-1921)

Абстракт: Россия, злоупотребляя общественно-политической ситуацией в начале XX века, постоянно совершала провокации против братской Турции. «Советская республика Эрзинджан» была едва ли не началом этой провокации. Позднее тот факт, что Турция и Советская Россия воевали против одного и того же врага – Антанты, привел к их сближению. Злоупотребляя этим, большевики пытались изменить направление турецкого национально-освободительного движения и подчинить Турцию своему влиянию путем ее советизации. В данной статье рассказывается о деятельности «Советской Республики Эрзинджан (1916-1921)», которая была подрывным гнездом в лоне Турции при помощи России. Эта советская республика, возглавляемая сепаратистскими армянскими силами, потерпела поражение от турецкой армии в 1921 году.

Ключевые слова: советская власть, большевики, договор, Первая мировая война, Россия, Турция.



Ön söz

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və ayaqda qalmasında qardaş Türkiyənin mühüm rolu danılmazdır. Lakin hələ də əksəriyyət bilmir ki, 1918-ci ilin iyununda Azərbaycan Xalq Cümhuriyyətinə köməyə gələn Osmanlı Türkiyəsinin digər problemləri ilə yanaşı qoynunda qara yara olan, "Ərzincan Şurası" və ya digər adı "Ərzincan Sovet Respublikası" olan saxta, qondarma erməni-bolşevik qurumu olmuşdur. Azərbaycan tarixşünaslığında diqqətdən kənarda qalmış mövzulardan biri də məhz "Ərzincan Sovet Respublikası (1916-1921)" mövzusudur. Fikrimizcə müasir dövrdə Osmanlı Türkiyəsində və Azərbaycan Xalq Cümhuriyyətində 1918-ci ildə baş vermiş hadisələrə münasibət bildirərkən mütləq o dövrün reallıqlarını nəzərə almaq lazımdır. Yalnız Osmanlı Türkiyəsinin yardımı ilə öz varlığını qoruyub saxlamağa ümid edən Cümhuriyyətimizin qurucu babaları, qardaş ölkənin də çətin durumunu nəzərə almağa borclu, hətta buna məhkum idilər. Qardaş ölkəni parçalayıb, dağıtmaq və dövlətçiliyinin varlığına son qoymaq istəyən dünyaynın o zamanki aparıcı dövlətləri, bugün olduğu kimi 1914 – 1923-cü illərdə də erməni kartından məharətlə istifadə edirdilər. "Ərzincan Sovet Respublikası" da erməni seperatçılarının uzun illər çörəyini yeyib, suyunu içdiyi öz vətənləri olan Türkiyəyə arxadan xain zərbəsindən başqa bir şey deyildi.

1918-ci ildə qardaş Türkiyədə, cənubi Qafqazda, o cümlədən Azərbaycanda baş verən hadisələrə obyektiv münasibət bildirmək üçün fikrimizcə dərin araşdırmaların aparılmasına ciddi ehtiyac var. Bunun üçün ən azı I Dünya müharibəsi dövründə Qafqazda və ona yaxın ərazilərdə baş vermiş hadisələrin dərin təhlili aparılmalıdır. Fikrimizcə bu hadisələrin obyektiv təhlili aparılmadan onlara hər hansı münasibət bildirmək qeyri-ciddi yanaşmadan başqa bir şey deyildir.

Bəşəriyyətə faciələr yaşatmış bolşevizm və onun ideoloqları 1917-ci ilin oktyabr çevrilişindən sonra digər ölkələrə qarşı "sosialist inqilabı", "proletar beynəlmiləlçiliyi" pərdəsi altında işğallar, təcavüzkar siyasət həyata keçirmiş və öz oyuncaq rejimlərini yaratmışlar. Bunlara misal olaraq, 1919-cu ilin fevral-may aylarında mövcud olmuş Bavariya Sovet Respublikasını, Azərbaycan Xalq Cümhuriyyətinə arxadan zərbə vurmaq üçün yaradılmış, qondarma Muğan Sovet Respublikasını (15 may-23 iyun 1919), Gilan Sovet Sosialist Respublikası və ya İran Sovet Sosialist Respublikasını (iyun1920- sentyabr 1921), XI ordunun işğalı ilə Azərbaycan Xalq Cümhuriyyətinin devirilməsində sonra yaradılan Azərbaycan Sovet Sosialist Respublikasını (27 may 1920- 18 oktyabr 1991) və s. göstərmək olar. Buraya keçmiş SSRİ-nin tərkibinə qatılmış respublikaları,Varşava müqaviləsinə daxil edilmiş ölkələri, 1979-cu ildə işğala məruz qalmış Əfqanıstanı və bu siyasətin qurbanına çevrilmiş digər ölkələr də daxil etmək olar.

Tarixi faktlar sübut edir ki, Rusiya XX əsrin əvvələrindəki ictimai-siyasi vəziyyətdən sui-istifadə edərək qardaş Türkiyəyə qarşı daim təxribatlar törətmişdir. "Ərzincan Sovet Respublikası" bu təxribatın demək olar ki, başlanğıcı olmuşdur. Sonradan Türkiyə və Sovet Rusiyasının eyni düşmənə, Antantaya qarşı mübarizə aparması onların yaxınlaşmasına səbəb olmuşdur. Bundan sui-istifadə edərək

Bolşeviklər Türkiyədə milli-azadlıq hərəkatının yönün dəyişmək, Türkiyəni sovetləşdirməklə öz təsiri altına salmağa çalışmışlar. Bakıda 1920-ci ilin sentyabrında keşirilmiş Şərq xalqlarının qurultayında Türkiyənin nüfuzlu nümayəndə heyətinin iştirakına şəraitin yaradılması da bu məqsədə xidmət edirdi. Aprel işğalından az sonra Bakıda I Şərq xalqları qurultayının keçirilməsində də əsas məqsəd şərq xalqlarını bolşeviklərin vədlərinə olan inamını artırmaq və inqilabı şərq ölkələrinə ixrac etmək üçün sovet Azərbaycanından dayaq nöqtəsi kimi istifadə etmək idi.

1920-ci il sentyabrın 1-7-də keçirilmiş qurultaya 1891 nümayəndə - Qafqaz, Orta Asiya, Əfqanıstan, Misir, Hindistan, Çin, Koreya, Suriya, Türkiyə, Yaponiya və digər ölkələrdən 37 millətin nümayəndəsi gəlmişdi. Nümayəndələrin 55 nəfəri qadın idi. Şərq xalqlarının birinci qurultayı aşağıdakı məsələləri müzakirə etdi: beynəlxalq vəziyyət və şərqin zəhmətkeş kütlələrinin vəzifələri, milli məsələ, müstəmləkə məsələsi, aqrar məsələ, şərq ölkələrində sovet quruculuğu haqqında və s.[1,s.60]

Bolşeviklər Türkiyənin sovetləşməsinə razı olmayacağı təqdirdə Mustafa Kamal Paşanın digər rəhbərlə, Şərq Xalqları qurultayında iştirak etmiş Ənvər paşa ilə əvəz etməyi də planlaşdırmışdılar. Lakin Mustafa Kamal Paşanın uzaqgörən siyasəti nəticəsində Sovet Rusiyasının bu məkirli niyyəyi baş tutmadı.

Bəşəriyyətə faciələr yaşatmış sovet sisetimim XX əsrin 90-cı illərində dağılması bu sitemin yararsız olduğunu və böyük Atatürkün uzaq görən siyasətçi olduğunu bir daha sübut etdi.

Rus işğalı nəticəsində Ərzincan Sovet Respublikasının yaranması

Ərzincanda sonradan baş verən hadisələrin əsası demək olar ki, San-Stefano (1878) və Berlin (1878) müqavilələri ilə qoyulub.

Çar Rusiyası Qafqaz və Balkanlarda mövqelərini möhkəmlətmək məqsədilə Osmanlı dövləti ilə 24 aprel 1877-ci ildə növbəti müharibəyə başladı və müharibə Osmanlının məğlubiyyəti ilə nəticələndi. San-Stefano sülh müqaviləsinə (1878) əsasən, Rusiya Türkiyənin ermənilərin də yaşadığı Qars, Ərdəhan və s. bölgələrini ələ keçirdi. [15,s.24]

Lakin Qərbi Avropa ölkələrinin bu müqavilənin şərtlərindən narazı qalması nəticəsində bu müqavilə öz qüvvəsini itirmiş və Osmanlı, Rusiya, Böyük Britaniya, Almaniya, Avstriya-Macarıstan, İtaliya krallığı və Fransa arasında 13 iyul 1878-ci ildı Berlində yeni müqavilə imzalanmışdı. Müqaviləyə görə Qars, Batum, Artvin və Ərdahan sancaqlıqları Rusiyaya verildi. Bundan başqa Osmalı dövləti Balkanlarda, şərqi Avropada, Yunanıstana yaxın ərazilərdə böyük torpaq itkisinə məruz qaldı. Kipr isə İngiltərəyə icarəyə verildi.

Müqaviləyə görə Osmanlı dövləti Vilayət-i Sittə adlanan Şərqi Anadoludakı bölgələrdə və Manastr əyalətində ermənilər lehinə islahatlar aparmalı idi. Ancaq qanunlara görə ermənilərin sayları bəs etmədiyi üçün ayrıca bəylik qura bilmədilər.Bu iki maddə həyata keçirilmədi.[16;19]

.

Sarıqamış faciəsi



Ərzincanın rus qoşunlarının əlinə keçməsinin əsası Sarıqamış faciəsi ilə qoyulmuşdur. I Dünya müharibəsinin gedişində 1914-cü il dekabrın 21-də Şərq cəbhəsində, yənu Rus-Türk cəbhəsində əməliyyatlara başlanıldı. 125 minə yaxın əsgər və zabitdən ibarət isti paltarsız, təminatsız, zəif silahlanmış Osmanlı ordusu dekabrın 22-də şaxtalı dağlara doğru hərəkətə başlayır. Düzgün hesablanmamış bu səhv plana görə, 9-cu ordu Sarıqamış dağlarını, 10-cu ordu isə Allahuəkbər dağlarını aşaraq rusları Sarıqamışda mühasirəyə almalı idi. Lakin ordu rəhbərliyinin səhvi üzündən 18 yanvar 1915-ci il tarixdə Sarıqamışa doğru hərəkət edən 90 mindən çox əsgər soyuqdan donaraq həlak oldu. Bundan sonra Türkiyənin şərq hissəsi rus ordusunun işğalına, Qars və Ərzurum əhalisi isə rus və ermənilərin kütləvi qırğınına məruz qaldı. 1916-cı ilin fevralında Ərzurum, martda İsfahan, apreldə Trabzon, mayda Xoy və Dilman, iyunda Ərzincan, avqustda isə Mus rus ordusu və erməni terrorçu dəstələri tərəfindən işğal edildi. Sarıqamış məğlubiyyətindən sonra Anadolunun şərqində Ermənistanın və Kürdüstanın qurulması planlaşdırıldı. [3;4, s.423-324]

Ərzincanda sovet hakimiyyətinin yaranmasının 1916-cı il göstərilməsinə bir qədər aydınlıq gətirilməsinə ehtiyac var. Bildiyimiz kimi proletariat diktaturasının bir forması olan sovetlər 1905-ci ildə I Rus inqilabı zamanı formalaşmışdır. 25 iyul 1916-cı ildə çar Rusiyası qoşunlarının Ərzincanı işğal etməsi ilə buradakı erməni və rusların arasında bolşevik təbliğatı ilə Ərzincan Şurasının əsası qoyulmuşdur. Lakin bu qurum Peterburqda bolşeviklərin çevrilişdən (7 noyabr (25 oktyabr) 1917-ci il) və Ərzincan müqaviləsindən (5 (18) dekabr 1917-ci il) sonra əsil sovet, bolşevik mahiyyəti almışdı.

Birinci Dünya müharibəsinin gedişində Osmanlı dövlətinin səfərbərlik elan etməsi ilə Ərzincan və ətrafında yaşayan ermənilərin dördə üçünün rusların tərəfinə keçməsi vəziyyəti daha da ağırlaşdırmışdı. Ərzincan 25 iyul 1916-cı ildə işğal olunan kimi rus əsgərləri erməni komitəsinin üzvləri ilə birlikdə yerli əhaliyə qarşı dəhşətli soyqırım və kütləvi soyğunçuluq həyata keçirmişlər. [5;9;11]

Polkovnik Tverdohlebov rus ordu komandanlığından və zabitlərindən aldığı məlumata görə işğalın ilk günlərində 800-ə yaxın türk qətlə yetirilmiş, qarşıdurmada yalnız bir ermənin ölmüşdü. [14]

Rusiyanın paytaxtı Peterburqda bolşeviklərin çevriliş (25 oktyabr (7 noyabr) 1917) nəticəsində müvəqqəti hökuməti devirib, hakimiyyəti ələ aldıqdan sonra elan etdikləri "Sülh haqqında" dekretlə (26 oktyabr (8 noyabr)1917) müharibədən çıxmaq üçün "Üçlər ittifaqına" daxil olan ölkələrlə danışıqlara başladılar. Rusiya ilə Türkiyə arasında danışıqlarda Rusiya tərəfdən bolşeviklərin deyil, hakimiyyətdən devrilmiş müvəqqəti hökümətin səlahiyyətli qurumu olan "Cənubi Qafqaz komissarlığı" nümayəndələrinin iştirak etməsi qarşı tərəfdə bəzi məsələləri aydınlaşdırmaq zərurəti yaratmışdı. Hərbi nazir Ənvər paşa Vehip paşaya Zaqafqaziya komissarlığı ilə müqavilə bağlamağın mümkünlüyünü öyrənməyi tapşırıb. Peterbuqdaki bolşevik hökuməti cavabında bildirmişdi ki, biz Rusiyanın mövcud qurumlarına sülüh danışıqlarına qatılmağı təklif edirik. Bu vaxt bolşeviklər Brestdə Almaniya, Osmanlı və digər ölkələrlə danışıq apardığından və müharibədən çıxmaq istədiyindən "Cənubi Qafqaz komissarlığı" nümayəndələrinin Türkiyə ilə danışıqlarına mane olmadılar və Ərzincan müqaviləsini tanıdılar [2, s.248]

26 noyabr 1917-ci ildə rus nümayəndələri cəbhəni keçərək, Alman Ali Baş Komandanlığına müraciət etdilər. Rusların sülh tələbləri alman Şərq cəbhəsi komandanlığı tərəfindən qəbul olundu. Bu məqsədlə "Üçlər ittifaqı" nümayəndələri ilə rus nümayəndələri Brest-Litovsk şəhərində qarşılıqlı razılığa gələrək 2 (15) dekabrda atəşkəs haqqında ümumi bir müqavilə imzaladılar və sülh danışıqlarına başlamağı qərara aldılar.

"Cənubi Qafqaz komissarlığı"nın qərarı ilə Rus ordusunun baş komandanı general Perjivalski III Ordu komandiri Vehip paşa danışıqlara hazır olduqlarını və müzakirə aparmaq üçün hər iki tərəfin iştirakı ilə komissiya təşkil etməyi irəli sürdülər. Müxtəlif yazışmalardan sonra tərkibi müəyyənləşən Osmanlı və rus nümayəndələri rusların işğalı altında olan Ərzincan şəhərinə gəldilər. 5(18) dekabr 1917-ci il tarixdə 14 maddəlik bir atəşkəs müqaviləsi imzalandı. [12;19]

Müqavilənin şərtlərinə uyğun olaraq rus qoşunları 3 ay müddətinə işğal etdiyi ərazilərdən çıxarılması nəzərdə tutulurdu. Müqaviləyə əsasən ruslar işğal olunmuş əraziləri tərk etdikdən sonra Osmanlı ordusu da bu əraziyə müdaxilə etməyəcəkdi. Rusiya və Osmanlı dövlətlərinin qarantı ilə Ərzincan əhalisi seçki yolu ilə öz müqəddaratını təyin edəcəkdi. Fikrimizcə Ərzincan Sovet Respublikasının yaranması tarixi 1916-cı ildən göstərlsə də, burada sovet reyimi məhz Ərzincan müqaviləsindən sonra formalaşmasını demək daha düzgün olar.

Bu dövürdə Balkanda və İraqda müharibəni davam etdirən Osmanlı dövləti bu şərtləri qəbul etməyə məcbur oldu. Lakin Ənvər paşanın əmisi Xəlil paşa bunun kağız üzərində qalacağını və bu ərazilərin Türkiyəyə qaytarılacağını bəyan etmişdi.

Rus qoşunları Ərzincan və ətraf ərazilərindən çıxarkən 200 min tüfəngi və sürsatı Ərzincan Sovet Respublikasına təhvil verdilər. Bunun nəticəsi olaraq tezliklə 3000 nəfərlik ordu, 500 nəfərlik milis təşkil edildi. Rus qoşunlarının bölgəni tərk etdikdən sonra Sovetlərə nəzarətin erməni Muradov paşaya keçməsindən türk əhali narazı idi. Osmanlı dövləti rusların bu hərəkətindən narazı

qalsa da müdaxilə edə bilmirdi. Türkiyə ermənisinin rəhbərlik etdiyi Ərzincan Sovet Respublikası sonradan cənubi Qafqazda olan ermənilərlə birləşərək Türkiyə torpaqları işğal edəcəyində ehtiyat edirdi.

Bundan sonra Əzincanda bütün hökümət binalarına sovet bayraqları asılaraq Ərzincan Sovet Respublikası qurulduğu rəsmi şəkildə elan olundu. Ərzincan şurasının ərazisi Ərzurum, Otlukbeli, Tercan, Kemah, Refehiye, Kemaliye, Çayırlı, Üzümlü, İliç, Bayburd, Dersin torpaqlarını əhatə edirdi. Paytaxt 1916-1918-ci illərdə Ərzincan, 1918-1921-ci illərdə isə Yeşilyazı şəhəri olub.

Dersimdə olan Rus ordusu "Qırmızı mühafizlər" dəstəsi olaraq yenidən formalaşdırıldı. "Qırmızı mühafizlər" dəstəsinin əsas təşkilatçısı olan Arşak Calalyan bölgədə olan türk, erməni və kürd xalqlarının "təmsilçiliyi" ilə bir toplantı təşkil etdi. Bu toplantıda ermənləri Muradov, kürdləri Alişer bəy və Alişan bəy, türkləri isə Ərzincan müftisi təmsil etdirdi. Məhz bu toplantıda Ərzincan Soveti yaradıldığı elan olundu.

Ərzincan Sovet Respublikasını Ərzincan, Erzurum, Bayburt ve Dersi bölgələrindən toplanmış 25 nəfərdən (erməni mənbələri 75 nəfər olduğunu bildirir) ibarət olan Şura idarə edirdi. Şuraya isə ilk vaxtlar erməni Arşak Calalyanın, sonradan isə digər erməni Muradov paşa rəhbərlik etmişdi. Qurumun rəsmi dili kimi erməni, kürd, türk dilləri elan olunsa da, rəsmi yazışmalarda əsasən erməni dilindən istifadə olunurdu. Lakin daxildə millətlərarası ünsiyyət dili kimi türk dili işlədilirdi. Əhalini öz tərəflərinə çəkmək üçün ilk vaxtlar Rusiyada olduğu kimi kəndlilərə torpaq verməyə başladılar. Fikrimizcə bu qurum qalsaydı Rusiyada olduğu kimi sonradan torpaqlar kəndlilərdən alınıb kommuna və ya kolxozlar yaradılaraq kəndliləri torpağa həsrət qoymaqla yanaşı, dolayı yolla istismar edəcəkdilər. Hələlik isə kəndlilərdən toplanan vergilər Osmanlıya deyil, bolşevik Rusiyasına verilirdi.

Vehip paşanın əldə etdiyi məlumata görə Ərzincan müqaviləsindən sonra ermənilər düşmənçiliyi davam etdirmək fikrində idilər. Gürcülər Pozof və Adigön, ermənilər isə Ərzincan-Ərzurum-Kars-Ərdahan istiqamətində Osmanlı dövlətinin əleyhinə faəliyyətə başlamışdılar. Qərbi Tuncelidən Alişan bəy iki nümayəndə və 8 min əsgərlə Ərzincana gələrkən sovet ordusu və ermənilər onları hərbi qaydada təntənə ilə qarşıladılar. Bu zaman Türklərin 5 nəfərlik nümayəndələri bu qarşılanma törəninə qatılmadılar. Bu qarşılanma törənində erməni Muradov paşa rus kommunistləri kimi populistcəsinə çıxış edərək demişdir: " Türklər, Kürdlər və Ermənilər qardaşdır. Bizim bir-birimizə qırdıran imperialistlər və onları yerli havadarlarıdır...Bizim Sultanlara ehtiyacımız yoxdur. Rus fəhlələri çarı devirib öz hakimiyyətlərini qurublar, biz də birləşərək öz hakimiyyətimizi qurmalıyıq. Lenin və ordusu bizi dəstəkləyir"

Belə bir vəziyyətdə Osmanlı dövləti torpaqları geri almaq üçün fürsət gözləyir, Ərzincan bolşevikləri isə ərazisini genişləndirmək istəyilə təbliğatını genişləndirirdi. Osmanlı dövlətinin antikommunist təbliğatı gücləndirməsi Ərzincan Şura rəhbərlərini narahat etdiyindən kömək üçün Rusiyaya müraciət etdilər. Bu zaman Cənubi Qafqaz Seymindən ayrılaraq yaranmış üç respublikadan bir olan Ermənstan Respublikasının bolşeviklərə düşmən mövqe tutması, Rusiyanın

daxilində vətəndaş müharibəsinin getməsi Rusiyanın Ərzincan Sovet Respublikasına kömək etməyə imkan vermirdi. Digər tərəfdən Sovet Rusiyası ehtiyat edirdi ki, müdaxilə etsə bu Osmanlı tərəfindən işğal kimi dəyərləndirilə bilərdi. Əsas maliyyə ehtiyatını vətəndaş müharibəsinə sərf edən bolşevik Rusiyasının maliyyə yardımı edə bilməməsi, özünün isə maliyyə imkanı olmadığından Ərzincan şura hökuməti böhran keçirməyə başladı. Vəziyyətin get-gedə ağırlaşması əhali arasında narazılığı gücləndirirdi. Ərzincan şurasının türk əhalisinin yenidən Osmanlıya birləşmək istəməsi daxildən parçalanmaya səbəb oldu.

1919-cu ildə "Qırmızı mühafizlər" Ərzincandan köçdükdən sonra Türk nümayəndə heyəti İstanbul hökümətinə bağlı olduqlarını açıqladılar və azlıq təşkil etmələrinə baxmayaraq Şura adından 9-cu Osmanlı Ordusunu bölgəyə dəvət etdilər. Sovetləri məğlub etmə kampaniyası Tünceli nümayəndələrinin Osmanlı tərəfinə çəkmək işi ilə paralel aparılırdı. Osmanlı hökuməti adından danışıqları Azadi dəstəsinin səlahiyyətli nümayəndəsi minbaşı Cıbranlı Halit bəy aparırdı. Lakin danışıqlar heç bir nəticə vermədi. Ərzincan hökümətindəki Tünceli nümayəndələri, bir neçə erməni nümayəndələri və Həsən Vəfa bəy Sovet hökümətinin mərkəzini Ovacıq, Yeşilyazıya köçürməyi qərar aldılar.Yaşılyazıyı dağlıq ərazi olduğundan Osmanlı qoşunu bura girməsi asan olmayacaqdı. Buna görə də Şuranın başında duran erməni Muradov paşa mərkəzi Yaşılyazıya köçürdü. Bu dövrdə yalnız Ovacık ərazisində kommunistlər üstünlüyə malik idilər.

1919-cu ilin martında Sivasda hücuma keçən türk qoşunları Əzincan və ətrafını azad edib, Osmanlı ərazisinə qatdılar. Yaşılyazıya hücuma keçən qüvvələr isə kürd əşirət qüvvələrinin düşmənə yardım etdiyindən oranı tuta bilmədilər.

19 may 1919-cu ildə 9-cu ordunun komandanı Müstafa Kamal paşanın Samsuna göndərilməsinin bir səbəbi də həmin ərazidəki vəziyyəti öyrənib, Osmanlı rəhbərliyinə məlumat verməsi idi. O, mərkəzə məlumat verərək Yaşılyazıyı daha güclü qüvvələrin göndərilməsinin vacib olduğunu bildirdi.

Lakin Mustafa Kamal paşanın Samsunda milli-azadlıq hərəkatına başlaması Yaşılyazının bir müddət kənarda qalmasına səbəb oldu. 1921-ci ilə qədər fəaliyyət göstərn Yaşılyazı Şura qurumu ölkənin azadlıq mücadiləsinə düşmən olduğundan bu mücadiləyə heç bir yardım etmədi.

1921-ci ilin sonlarında Milli azadlıq mübarizləri Dersin ərazisinə gələrək Yaşılyazıya hücuma keçdilər. Başda Koşkiyə əşirətləri olmaqla kürd əşirətləri müqavimət göstərsələr də məqlubiyyətə uğradılar. Bununla da bolşeviklərin təxribatı olan Ərzincan Sovet Respublikası tamamilə məğlub oldu və əhatə etdiyi ərazilər Türkiyəyə qaytarıldı. Qəhrəman türk ordusu öz şücaəti nəticəsində vətənin qoynunda qara yara olan bu qondarma qurumun varlığına son qoymaqla ölkəsini kommunist ideologiyasının yaradacağı faciələrdən xilas etdi.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920 - iyun 1941). Bakı. "Elm". 2008. 568 səh. + 48 səh. illüstrasiya.
2. Baykara H., Azərbaycan istiqlal mübarizəsi tarixi, B., 1992;

3. Rzalı R. Sarıqamış məğlubiyyəti Anadolunun şərqində Ermənistan dövlətinin yaradılması ilə nəticələndi. "Azərbaycan" qəz. 2011.- 20 yanvar.- S. 7.
4. I Dünya müharibəsində Türk hərbi Qafqaz cəbhəsi. 3-cü ordu hərakatı. II c. Ankara 1993,
5. Altan Deliorman, Türklere Karşı Ermeni Komitecileri, Boğaziçi Yay. İstanbul, 1975, s.194-195.
6. Ahmet Refik, İki Komite İki Kıtâl, (Haz: Hamide Koyukan), Kebikeç Yay. Ankara, 1994, s.52-76;
7. Erzincan Şurası: Halklar Arasında Savaşa, Sınıflar Arasındaki Barışa Son", KöZ gazetesi, 29 Aralık 2005
8. Ronald Qriqor Suy Bakı komunçı (Rus dövründə millət və sinif) İstanbul, 1990, s. 195-196
9. Ermeni Komitelerinin A'mal ve Harekât-ı İhtilâliyesi, (Haz: H. Erdoğan Cengiz), Ankara, 1983, s.236.
10. Kenan Tez ERZİNCAN SOVYET CUMHURİYETİ. 28 OCA 2021 https://www.yenimarmaragazetesi.com/erzincan-sovyet-cumhuriyeti-17503.html;
11. Mehmet Ethemoğlu, Ermeni Terörünün Kısa Tarihi, Diyarbakır, 1987, s.33-36;
12. Ronald Qriqor Suy Bakı komunçı (Rus dövründə millət və sinif) İstanbul, 1990, s. 195-196
13. Talat Paşa'nın Anıları, (Haz: Mehmet Kasım), İstanbul, 1986, s.104-143.
14. Tverdohlebof, Gördüklerim ve Yaşadıklarım, (Çev.: Ertuğrul Bostancı), Genelkurmay Yay. Ankara, 2007, s.17
15. Uçak, Nurcan (1997), 1877-1878 Osmanlı-Rus Harbi'nin Türk edebiyatındaki akisleri, Ankara, s. 483
16. Left Wing of the Turkish Communist Party in Erzincan. https://libcom.org/ 2 noyabr 2008
17. Берлинский конгресс (rus.). // Энциклопедический словарь / под ред. И. Е. Андреевский СПб: Брокгауз — Ефрон, 1892. Т. IIIa. С. 544–545.
18. Берлинский конгресс (rus.). // Военная энциклопедия СПб: Иван Дмитриевич Сытин, 1911. Т. 4. С. 503–505.
19. Документы и материалы по внешней политике Закавказья и Грузии, Тифлис, 1919, sənəd № 8, s. 11-12,

Məqalənin redaksiyaya daxilolma tarixi: 01.06.2024
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 06.06.2024
Məqalənin çapa qəbul olunma tarixi: 10.06.2024

DOI: doi.org/10.61226/12.2.2023/20242.9
UOT: 9.327
Aqil ƏHMƏDOV
Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu,
tarix üzrə fəlsəfə doktoru, dosent
agilahma@gmail.com
https://orcid.org/0000-0002-9212-5147

AZƏRBAYCAN RESPUBLİKASININ QƏRBİ AVROPA ÖLKƏLƏRİ İLƏ MİQRASİYA ƏLAQƏLƏRİ

Xülasə: Qərbi Avropa regionu əsasən sosial-iqtisadi, siyasi, hüquqi və demokratik tərəqqi yolu keçmiş ölkələri bir arada toplayan mühüm coğrafi və geostrateji məkan kimi əməkçi miqrantların diqqətini cəlb edir. BMT-nin müəyyən etdiyi statistik göstəriciyə nəzər salsaq, regiona dünyanın 11 ölkəsinin – Avstriya, Belçika, İngiltərə, Almaniya, İrlandiya, Fransa, İsveçrə, Niderland, Lixtenşteyn, Lyuksemburq, Monakonun daxil olduğunu görərik. Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpasından ötən dövr ərzində adları qeyd olunan Avropa ölkələrilə diplomatik münasibətlər qurmuşdur. Həmin coğrafi məkan bəzi hallarda mərkəzi Avropa regionu kimi də tanınır və əməkçi miqrantların üz tutduqları ölkələr sırasında ilk yerdə durur. Qlobal xarakter daşıyan miqrasiya əlaqələri Azərbyacan Respublikası üçün əməkdaşlıq baxımından əhəmiyyətli sahələrdən biridir. Təbii proses kimi miqrasiya Azərbaycanda milli qanunvericilik əsasında yüksək səviyyədə tənzimlənir. Respublikanın çoxtərəfli və ikitərəfli əsaslarda əlaqələrinin qurulması və inkişafında Dövlət Miqrasiya Xidməti (DMX) mühüm rola malikdir. Hazırda ümumavropa məkanında baş verən proseslər miqrasiya kimi həssas sahəyə də təsirsiz ötüşmür.

Aparılan təhlillər göstərir ki, Azərbaycan Respublikasının Qərbi Avropa ölkələri ilə qurulan miqrasiya əlaqələri milli tarixşünaslıq, bilavasitə dövlətin xarici siyasəti üçün aktuallıq kəsb edir. Azərbaycan yuxarıda adları çəkilən ölkələrlə aktiv miqrasiya əlaqələrinə malik olmasa da diplomatik, iqtisadi münasibətlərin qurulması fonunda mövcud sahənin inkişaf etdirilməsi prioritet olaraq qalır. Azərbaycanın miqrasiya sahəsində xüsusilə: Almaniya, Fransa, Belçika, Niderland, İsveçrə və Avstriya ilə qurduğu əlaqələr son illər bir qədər də irəliləmiş və əməkdaşlıq üçün əsas yaratmışdır.

Məqalədə Azərbaycan Respublikasının qeyd olunan ölkələrlə miqrasiya əlaqələrinin bəzi vacib aspektləri tədqiqat obyektinə çevrilmişdir. Göstərilən on bir dövlətin bəziləri ilə Azərbaycan arasında qurulan miqrasiya əlaqələrinin ölkə tarixşünaslığı və xarici siyasəti üçün əhəmiyyəti öz əksini tapmışdır. Mövzunun elmi-nəzəri təhlili tədqiqat işinin bitmədiyini, gələcək araşdırmalara cəlb olunacağını göstərir.

Açar sözlər: Azərbaycan, Qərbi Avropa, miqrasiya, əlaqələr, region, miqrant, coğrafiya, geosiyasi.

Agil AHMADOV

MIGRATION COMMUNICATIONS OF THE REPUBLIC OF AZERBAIJAN WITH THE COUNTRIES OF WESTERN EUROPE

Abstract: The Western European region is notable mainly as an important geographical and geostrategic space uniting countries that have passed the path of socio-economic, political, legal and democratic progress. If we look at the statistics established by the UN, we will see that the region includes 11 countries of the world – Austria, Belgium, England, Germany, Ireland, France, Switzerland, the Netherlands, Liechtenstein, Luxembourg, Monaco. During the period since the restoration of state independence, the Republic of Azerbaijan has established diplomatic relations with these European countries. In some cases, this geographical area is also known as the Central European region and ranks first among the countries where migrant workers go. Migration communications, which are global in nature, are one of the important areas of cooperation for the Republic of Azerbaijan. Migration as a natural process in Azerbaijan is regulated at a high level on the basis of legislation. The State Migration Service (GMS) plays an important role in the establishment and development of multilateral and bilateral relations of the Republic. The processes currently taking place in the pan-European space also affect such a vulnerable area as migration.

The conducted analyses show that the migration relations of the Republic of Azerbaijan with the countries of Western Europe are relevant for the state's foreign policy. Despite the fact that Azerbaijan does not have active migration ties with the above-mentioned countries, the development of the existing sphere of diplomatic and economic relations remains a priority. The communications established by Azerbaijan in the field of migration, in particular, with Germany, France, Belgium, the Netherlands, Switzerland and Austria, have made some progress in recent years and have created a basis for cooperation.

The article focuses on some important aspects of the migration relations of the Republic of Azerbaijan with these countries. The works on the historiography of the topic are analyzed. The migration links established between the eleven mentioned states and Azerbaijan reflect the importance for the historiography and foreign policy of the country. The scientific and theoretical analysis of the topic reflects that the research work has not yet been completed, it will be involved in future research.

Keywords: Azerbaijan, Western Europe, migration, connections, region, migrant, geography, geopolitics.

Агиль АХМЕДОВ

МИГРАЦИОННЫЕ СВЯЗИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ СО СТРАНАМИ ЗАПАДНОЙ ЕВРОПЫ

Абстракт: Западноевропейский регион примечателен в основном как важное географическое и геостратегическое пространство, объединяющее страны, прошедшие путь социально-экономического, политического, правового и демократического прогресса. Если посмотрим на статистику, установленную ООН, то увидим, что в регион входят 11 стран мира – Австрия, Бельгия, Англия, Германия, Ирландия, Франция, Швейцария, Нидерланды, Лихтенштейн, Люксембург, Монако. Азербайджанская Республика за прошедший период, после восстановления государственной независимости, установила дипломатические отношения с названными европейскими странами. Это географическое пространство в некоторых случаях также известно как центральноевропейский регион и занимает первое место среди стран, куда направляются трудовые мигранты. Миграционные связи, носящие глобальный характер, являются одной из важных сфер сотрудничества для Азербайджанской Республики. Миграция как естественный процесс в Азербайджане регулируется на высоком уровне на основе законодательства. Государственная Миграционная Служба (ГМС) играет важную роль в установлении и развитии многосторонних и двусторонних связей республики. Процессы, происходящие в настоящее время в общеевропейском пространстве, влияют и на такую уязвимую сферу, как миграция.

Проведенные анализы показывают, что миграционные связи Азербайджанской Республики со странами Западной Европы имеют актуальность для внешней политики государства. Несмотря на то, что Азербайджан не имеет активных миграционных связей с вышеназванными странами, развитие существующей сферы дипломатических, экономических отношений остается приоритетом. Связи, установленные Азербайджаном в сфере миграции, в частности, с Германией, Францией, Бельгией, Нидерландами, Швейцарией и Австрией, в последние годы несколько продвинулись и создали основу для сотрудничества.

В статье объектом исследования стали некоторые важные аспекты миграционных связей Азербайджанской Республики с указанными странами. Проанализированы работы по историографии темы. Миграционные связи, установленные между одиннадцатью указанными государствами и Азербайджаном, отражают значение для историографии и внешней политики страны. Научно-теоретический анализ темы отражает то, что исследовательская работа еще не завершена, она будет задействована в будущих исследованиях.

Ключевые слова: Азербайджан, Западная Европа, миграция, связи, регион, мигрант, география, геополитика.

Giriş. XXI əsrdə miqrasiyanın bir sıra (sosial, iqtisadi, siyasi, hüquqi, demoqrafik, intellektual, ekoloji və s.) aspekləri dünya alimləri tərəfindən akademik araşdırmalara cəlb olunur. Lakin, miqrasiya hər şeydən əvvəl tarixi proses olub, insanlığın yaranmasından günümüzə qədər formalaşma və böyük inkişaf yolu keçib. Bu baxımdan, dövlətlərin tarixşünaslığında, paralel olaraq müasir beynəlxalq münasibətlər tarixində miqrasiya amili dünyanın aparıcı aktoruna çevriləcək qədər aktuallıq kəsb edir. Belə olduğu təqdirdə, dövlət müstəqilliyinin bərpasından ötən dövr ərzində Azərbaycan Respublikasının Avropa regionu ilə qurduğu əlaqələr onun enerji siyasətinin inkişafına təkan vermiş və diplomatik münasibətlərinin genişlənməsinə səbəb yaratmışdır. Burada əhali miqrasiyası kimi mühüm məqamların təhlil olunması göstərir ki, Qərbi Avropa regionunda baş verən miqrasiya prosesləri və Azərbaycanla əlaqələrin öyrənilməsi mövzu olaraq müasir dövrdə aktual səslənir.

Müstəqillik əldə edildikdən sonra Azərbaycandan başqa ölkələrə daimi yaşayış üçün və ya əmək miqrantları kimi gedən insanların sayı bir zamanlar kəskin artmışdı [24, s.196]. Dövrün siyasi və iqtisadi mənzərəsi, əsasən 1991-1992-ci illər respublikada miqrasiya proseslərinin, yəni emiqrasiyanın yüksəldyini əks etdirməklə, bölgələrdən paytaxta olan işçi axınının, əsasənd də Ermənistan silahlı qüvvələrinin yaratmış olduğu sünii münaqişə ocağı daxildə miqrasiya proseslərinin tənzimlənməsində problemlər yaratmış və demoqrafik göstəricilər yüksək olmuşdur.

Əhali miqrasiyasının elmi əsasları və qanunauyğunluqları ilk dəfə XIX əsrin sonunda London Universitetində araşdırılmışdır. İngilis tədqiqatçı alimi E.Ravenşteyn statistik məlumatların kompleks analizi nəticəsində miqrasiyanın intensivliyi və əsas istiqamətləri arasındakı qarşılıqlı asılılığı müəyyən etmişdi [15, s. 56]. Qərbi Avropanın iqtisadi və demokartik baxımdan inkişaf etmiş ölkələrindən biri olan İngiltərə ilə Azərbaycan Respublikası arasında diplomatik-siyasi, iqtisadi münasibətlər fonunda, son illər ümumavropa məkanı ilə ikitərəfli əlaqələrdə miqrasiya sahəsinə diqqət artmışdır. Miqrasiya ilə bağlı Qərbi Avropadan inkişaf etməyə başlayan tezislər çox keçmədən dünyanın əksər regionlarında miqrasiyanın nəzəri aspektlərinin öyrənilməsinə şərait yaratdı. Belə bir analogiya Azərbaycanın miqrasiya siyasətində Avropa istiqamətinin inkişafına və elmi-nəzəri tədqiqinə əhəmiyyətli təsir göstərmiş və region dövlətləri ilə əlaqələrinin yaranmasında siyasi və iqtisadi faktorlar əhəmiyyətli rol oynamışdır.

Avropanın müxtəlif regionları ilə yaradılan siyasi və iqtisadi əlaqələrlə yanaşı Azərbaycanın son illər Qərbi Avropa dövlətlərilə qurulan miqrasiya təmasları, əməkdaşlıq üçün getdikcə yeni prioritetlər yaratmışdır. Yuxarıda adları çəkilən həmin ölkələr iqtisadi tərəqqi yolunda addımlayan dövlətlər kimi Azərbaycan üçün diplomatik-siyai münasibətlərlə yanaşı, miqrasiya kimi həssas sahədə əlaqələr qurulması baxımından əhəmiyyət daşıyır. Belə mühüm məqamlar mövcud tədqiqat işinin ölkə tarixşünaslığı üçün elmi-nəzəri əhəmiyyət daşıdığını göstərməklə, respublikanın daxili, həmçinin xarici siyasəti üçün praktik əhəmiyyətə malik olduğunu göstərir.

Azərbaycanda miqrasiya prosesləri cəmiyyətin sosial-iqtisadi və siyasi həyatına fərqli təsir göstərən əlamət və fərqləndirici xüsusiyyətlərə malik olan bir neçə mərhələdən keçmişdir. Birinci mərhələ (1988-1994-cü illər) hələ Sovet İttifaqı dövründə yaranmış və Qarabağ hadisəsi, eləcə də Azərbaycandan böyük miqrasiya axınlarına və dövlətdə əhəmiyyətli demoqrafik dəyişikliklərə səbəb olan SSRİ-nin dağılması ilə bağlı olmuşdur [25, s. 49]. 1980-ci illərin sonu 1990-cı illərin əvvəlləri respublikada əsasən daxili miqrasiya proseslərinin yüksəlməsi ilə yadda qalmışdır. Ölkədə baş verən iqtisadi-siyasi böhran və artıq tarixə qovuşmuş erməni işğalı daxildə miqrasiya ilə bağlı mürəkkəb hal yaratmış və bəzi hallarda insanların emiqrasiyası qaçılmaz olmuşdur. Hazırda Azərbaycan Respublikası müstəqil xarici siyasət yürüdən, 44 günlük Vətən müharibəsində parlaq qələbə əldə edərək dünya birliyi ilə bir qədər də yaxınlaşan, inkişaf etməkdə olan dövlət kimi Avropanın Qərb hissəsi ilə miqrasiya əlaqələrini bir qədər də artırmış və əməkdaşlıq münasibətlərinə diqqət yetirmişdir.

Qərbi Avropada yerləşən dövlətlər – Almaniya, Fransa, İtaliya, Böyük Britaniya, Avstriya, Norveç, İsveç, Finlandiya, Danimarka, Niderland və digər ölkələrdə yaşayan azərbaycanlıların sayı 500 min nəfərdən artıqdır. Təkcə Almaniyada 200 mindən artıq azərbaycanlı yaşayır. Qərbi Avropada yaşayan azərbaycanlıların 80-dən artıq müxtəlif təşkilatı fəaliyyət göstərir [22, s. 5]. Azərbaycan mədəniyyətinin təmsilçiləri olan azərbaycanlı miqrantların qeyd olunan ölkələrə emiqrasiyası əsasən 90-cı illərin əvvəllərinə təsadüf edir. Həmvətənlərimiz uzun illərdir dünyanın demək olar ki, hər tərəfinə səpələnmiş, bu baxımdan Qərbi Avropa ölkələri ilə miqrasiya əlaqələrinin öyrənilməsində, mövzu elmi-nəzəri əhəmiyyət daşıyır.

Azərbaycanın dövlət müstəqilliyi Böyük Britaniya tərəfindən 1991-ci ilin dekabrında, Fransa, Almaniya və İtaliya tərəfindən isə 1992-ci ilin yanvarında tanınmış, həmin ilin əvvəllərində diplomatik münasibətlər yaradılmışdır. 1992-ci ilin martında Fransa, sentyabrında Almaniya, 1993-cü ilin sentyabr ayında isə Böyük Britaniya Azərbaycanda öz səfirliyini açmışdır. Azərbaycan isə əvvəl Almaniyada (1992, sentyabr), daha sonra Böyük Britaniya (1994, yanvar) və Fransada (1994, oktyabr) diplomatik nümayəndəliyini təsis etmişdir. İtaliyanın Azərbaycanda səfirliyi bir neçə il sonra – 1997-ci ildə, Azərbaycanın İtaliyada səfirliyi isə 2003-cü ildə açılmışdır [19, s. 14]. Qeyd olunan məqamlar Qərbi Avropanın Azərbaycanla münasibətlər qurması baxımından, ilkin mərhələdə uğurlu diplomatik addım kimi miqrasiya əlaqələrinin öyrənilməsinə əlverişli şərait yaratmışdır. Həmin ölkələrdə yaşayan azərbaycanlılar fəaliyyət göstərdikləri Qərb regionu dövlətlərinə emiqrasiya edərək, artıq uzun illərdir bir diaspora çevrilmiş, ikitərəfli mədəni körpülərin qurulmasında yaxından iştirak edirlər. Ümumi götürsək, əməkçi miqrantlarla bağlı problemlərlə üzləşən həmin ölkələrin miqrasiya siyasətində etdikləri əsaslı dəyişikliklər mövzunun aktual və həssas olduğunu göstərir. Azərbaycanın qeyd olunan Avropa regionu ölkələrilə miqrasiya sahəsində nəzərə çarpacaq problemləri yaşanmasa da miqrasiya əlaqələri mövzu olaraq dialoq və əməkdaşlıq mühitinin yaradılmasının vacib olduğunu əks etdirir.

Azərbaycan Respublikasının Avropa dünyası ilə ikitərəfli və çoxtərəfli

münasibətlərinin inkişafı və bilavasitə miqrasiya əlaqələrinin yaranmasında görkəmli dövlət və siyasi xadim Heydər Əliyev mühüm rol oynamışdır. Məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrü respublikanın Avroməkanda yaxından tanınmasına xidmət etmiş, çoxsaylı rəsmi səfər və görüşlər zamanı diplomatik-siyasi münasibətlər dinamik xarakter daşımışdır.

Qərbi Avropa regionu ilə siyasi münasibətlərin miqrasiya əlaqələrinə müsbət təsiri

Siyasi münasibətlər paralel olaraq dövlətlər arasında siyasi dialoqun inkişafına müsbət təsir göstərir. Bu baxımdan, Azərbaycan Respublikasının Qərbi Avropa regionu dövlətlərilə miqrasiya əlaqələrinin yaranması və gələcək əməkdaşlığının genişlənnməsində siyasi münasibətlərin təhlili mühüm əhəmiyyətə malikdir. Burada şəxsiyyət faktoru da mühüm rol oyanyır və ümummilli lider Heydər Əliyevin dünya birliyi ilə qurduğu siyasi əlaqələr Azərbaycanın inkişaf etmiş Qərbi Avropa ilə diplomatik münasibətlərinin inkişafına dinamizm qatmışdır.

Bu səbəbdən, Prezident Heydər Əliyev Azərbaycanın Avropa ölkələri ilə münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verirdi. Bununla bağlı görkəmli dövlət xadimi, 22 aprel 1996-cı ildə Lüksemburqa rəsmi səfərində demişdir: "Azərbaycan Avropa ölkələri arasında inteqrasiya proseslərinin gələcəyinə böyük ümidlər bəsləyir və bərabərhüquqlu tərəfdaş kimi bu proseslərdə fəal iştirak edəcəkdir" [6, s. 7]. Burada inteqrasiya və miqrasiya bir-biri ilə sıx bağlı olaraq, ikitərəfli münasibətlərdə miqrasiya kimi qlobal prosesin öyrənilməsini vacib edir. Azərbaycan hazırda Avropa üçün strateji tərəfdaş olaraq qalır. Avropanın enerji siyasətində mühüm rol alan Azərbaycana və eləcə də yuxarıda qeyd olunan Qərbi Avropa ölkələrinə maraq son illər bir qədər də artmışdır. Belə mühüm məqamlar elmi-tədqiqatın yerinə yetirilməsində əsas xət təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən miqrasiya, o cümlədən multikulturalizm siyasəti sahəsində əldə edilən böyük nailiyyətlər uğurlu xarici siyasət fəaliyyətinin əsas səbəblərindən biri kimi çıxış edir [9, s. 20]. Respublikada hər il yeniləşən və mütərəqqi təcrübənin tətbiq olunduğu sahələrdən biri kimi miqrasiya idarəçiliyinin müasir dövrün tələblərinə çatdırılmasında Prezident İlham Əliyevin rolu böyükdür. Həyatın bütün sahələrində və bilavasitə miqrasiya kimi həssas sahədə innovativ idarəçilik sisteminin qurulmasında dövlət başçısının diqqəti ümumi inkişafa öz töhfəsini verir.

Azərbaycan Respublikasını Avropa Qonşuluq Siyasətinə (AQS) daxil etmək haqqında Aİ Şurasının 14 iyun 2004-cü il tarixli qərarından 20 il ötür. Aİ-ni xüsusilə narahat edən sığınacaq və miqrasiya ilə bağlı insan haqlarıdır. [6, s. 12-13, 177]. Keçən dövr ərzində (2004-2024) həmin siyasətə qoşulan Azərbaycanın Avropa regionu, xüsusilə də Qərbi Avropa ölkələri ilə miqrasiya sahəsində əməkdaşlıq əlaqələri xeyli genişlənmişdir. Bakı və Brüssel arasında baş verən yaxınlaşma Azərbaycan-Belçika diplomatik münasibətlərində miqrasiya kimi mühüm məsələlər ətrafında müzakirələrin aparılmasına müsbət təsir göstərmişdir.

Azərbaycan Respublikası Avropa İttifaqı ilə (25 dövləti əhatə edir), həmçinin

Norveç Krallığı, İsveçrə Konfederasiyası və Monteneqro ilə readmissiya sazişləri imzalayıb [18, s. 14]. Həmin sazişlər dövlətlər arasında rəsmi şəkildə imzalandığı təqdirdə miqrantın öz ölkəsinə könüllü qayıdışını nəzərdə tutur və belə səpkidə ikitərəfli sənədlər proseslərin ümumi tənzimlənməsinə müsbət təsir göstərir. Burada ikitərəfli əlaqələrdən danışarkən DMX-nin mövcud sahədə həyata keçirdiyi siyasət, rəsmi səfərlər və təmaslar zamanı imzalanan əməkdaşlıq bəyannamələri və layihələr xüsusilə hüquqi və sosial-siyasi əhəmiyyəti ilə seçilir.

DMX rəisinin 17-21 noyabr 2008-ci ildə Almaniyada keçirdiyi rəsmi görüşlər miqrasiya sahəsində ikitərəfli əməkdaşlığın gələcək inkişafına müsbət təsir göstərmiş, mütərəqqi təcrübənin öyrənilməsinə, müvəqqəti sığınacaq və qanunvericilik məsələlərinə diqqəti artırmışdır [16, s. 806; 10]. Azərbaycan Respublikası Almaniya kimi Qərbi Avropanın inkişaf etmiş ölkəsi ilə diplomatik sahədə olduğu kimi, miqrasiya idarəçiliyi kimi həssas mövzuda da əlaqələrinin qurulmasına müsbət baxır. Bu baxımdan qeyd olunan görüş Azərbaycan-Almaniya miqrasiya əlaqələrinin yaxın tarixinin araşdırılması baxımından ciddi fakt kimi təhlil olunur. Burada diqqət çəkən məqamlardan biri Qərbi Avropa dövlətlərinin Azərbaycanda fəaliyyət göstərən diplomatlarının, əsasən səfirlərinin DMX-də keçirilən rəsmi görüşləri ilə bağlıdır. Təmaslar zamanı ölkələr arası münasibətlərdə miqrasiyanın rolu, idarəçilikdə yarana biləcək problemlər, təcrübələr, əməkdaşlıq sənədlərinin imzalanması, qarşılıqlı səfərlərin faydaları, xüsusilə də əməkçi miqrantların, vətəndaşlığı olmayan şəxslərin hüquqlarının qorunması ətrafında aparılan fikir mübadiləsi dialoq və müzakirələr yolu ilə aydınlaşmış olur.

13 yanvar 2009-cu ildə DMX rəisi Niderlandın Azərbaycana yeni təyin olunmuş səfiri J.L.İ.Hoomu ilə görüşdə miqrasiya qanunvericiliyi ətrafında müzakirə aparmışdır [21]. Görüş miqrasiya sahəsində hər iki ölkənin qanunvericiliklərinin öyrənilməsi və beynəlxalq qanunvericiliyin araşdırılmasının son dərəcə vacib olduğunu əks etdirir. Bu baxımdan, Azərbaycan-Niderland münasibətlərində miqrasiya məsələsi aktual səslənir. Diplomatlarla DMX-də baş tutan görüşlər dövlətlərin siyasi və hüquqi iradəsini əks etdirməklə, gələcəkdə miqrasiya sahəsində əməkdaşlıq əlaqələrinin genişlənməsinə əlverişli şərait yaradır.

7 may 2009-cu ildə Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) miqrasiya, qaçqınlar və əhali üzrə məruzəçisi C.Qrinveyin Azərbaycan parlamentinin sədri ilə görüşündə qaçqın və məcburi köçkünlərin məsələləri müzakirə olunmuşdur [1, s. 2]. Avroparlament ilə Azərbaycan parlamenti arasında qurulan münasibətlərdə miqrasiya məsələlərinin öyrənilməsi respublikanın xüsusilə Qərbi Avropa ölkələri ilə yaxınlaşmasına müsbət təsir göstərə bilər.

2009-cu ilin 1 iyulunda Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) və Niderland Krallığı Repatriasiya və Geri Qaytarma Xidməti arasında qeyri-qanuni miqrasiyaya qarşı mübarizə üzrə Anlaşma Memorandumu imzalanmışdır [17, s. 52]. Miqrasiya və sərhəd təhlükəsizliyi məsələləri həssas sahələrdən biri kimi mövcud istiqamətdə Azərbaycan sərhəd xidmətinin fəaliyyətində miqrasiyanın əhəmiyyətini artırır. Azərbaycanla Niderland arasında sərhəd mövcud olmasa da belə səpkidə öyrənilən mövzular ikitərəfli miqrasiya əlaqələri tarixinin tədqiqində faydalı məlumat bazası kimi elmi-tədqiqat işlərinin

mənbəşünaslığının və tarixşünaslığının zənginləşməsinə müsbət təsir göstərir.

2009-cu ilin 28 iyununda Almaniyanın daxili işlər nazirinin müavini A.Hanninqin başçılıq etdiyi nümayəndə heyətinin DMX rəisi ilə görüşündə, miqrasiya proseslərinin idarə olunmasında "bir pəncərə" prinsipinin tətbiqi ətrafında fikir mübadiləsi aparılmışdır [2, s. 6]. Bir pəncərə sistemi Azərbaycanın innovativ miqrasiya idarəçiliyinin inkişafına müsbət təsir göstərmişdir. Əməkçi miqrantların hüquqi və sosial problemlərinin həllində məhz birpəncərə sistemi vahid idarəçilik ilə miqrantların hüquqlarının müdafiəsi işinə fayda vermiş olur.

Həmçinin, 2009-cu ildə DMX-nin rəisi Niderlandın Repatriasiya və Deportasiya Xidmətinin dəvəti ilə bu ölkəyə səfər etmişdir [11]. Göründüyü kimi, Azərbaycanın Qərbi Avropa ölkələri ilə miqrasiya əlaqələrinin öyrənilmsində rəsmi qarşılıqlı görüşlərin əhəmiyyəti getdikcə daha aydın görünür. Bu baxımdan, 2009-cu il xüsusilə dinamik keçmiş və hər iki ölkə rəsmiləri miqrasiya ətrafında geniş fikir mübadiləsi apara bilmişlər.

9 avqust 2010-cu ildə Niderlandın ədliyyə naziri E.X.Balli Azərbaycana rəsmi səfəri çərçivəsində DMX-nin rəisi ilə görüşmüşdür [3, s. 2]. Ədliyyə və DMX təmasları Azərbaycan-Niderland münasibətlərinin irəliləməsi baxımından vacib görüş olmuşdur. Hər iki tərəfin bir-birinə olan ciddi münasibətləri Azərbaycanın həmçinin beynəlxalq aləmdə artan nüfuzu ilə birbaşa bağlıdır. Respublikanın həyata keçirdiyi enerji siyasəti Avropa üçün cəlbedici olduğu üçün burada əməkçi miqrantlarla bağlı məsələlər də gündəmə gəlməkdədir. Mütəmadi miqrasiya prosesləri demək olar ki, Avropada populyarlaşmış və bir qədər də problemlərin yaşandığı mühüm sahələrdən birinə çevrilmişdir.

Avropa İttifaqı daxilində miqrasiyalar intensiv xarakter alır. Nisbətən aşağı yaşayış şəraitinə malik olan yeni üzv dövlətlərin Qərbi Avropaya axını sürətlə artmışdır. Onların yerləşdirilməsi, iş yerləri, mənzil, sosial xidmətlərlə təminatı ciddi problemlərə səbəb olur [20, s. 82]. Aİ-yə daxil olan yeni üzv ölkələrin ümumuavropa regionuna gətirdikləri problemlər Qərbi Avropa ölkələrindən də yan keçməmiş və miqrasiya sahəsində yaranan çatışmazlıqlar proseslərin tənzimlənməsində zaman-zaman fasilələr yaratmışdır. Azərbaycanda isə vəziyyət fərqlidir. Ölkədə müşahidə olunan iqtisadi tərəqqi və təhlükəsizlik şəraiti emiqrasiyanın kəskin azalmasına gətirib çıxarmışdır. Yeni iş yerləri və istehsal vasitələrinin artması vətəndaş və dövlət arasında münasibətlərin möhkəmlənməsinə xidmət etmişdir.

Azərbaycandan əmək miqrasiyası getdikcə azalır, çünki daxili bazar ölkədə iş tapmaq üçün daha çox imkanlar təklif edir. Rəsmi məlumatlara görə, respondentlərin yalnız 18 %-i xaricə köçmək istəyir, onların 10 %-i kişi, 8 %-i isə zərif cinsin nümayəndələridir [25, s. 59]. Son iyirmi ildə Azərbaycan Respublikası siyasi və iqtisadi potensialını yüksəltməklə yoxsulluğun faizinin kəskin aşağı düşməsinə və əksinə yeni iş yerlərinin açılmasına nail olmuşdur. Ölkəyə cəlb olunan sərmayələr bölgələrdə iqtisadi inkişafa gətirib çıxarmış, ölkədən getmək istəyən vətəndaşların sayı 18 faizi keçməmişdir.

4 aprel 2011-ci ildə Almaniyanın Federal Kriminal Polis İdarəsinin rəhbəri Y.Sirken ilə DMX-də keçirilən görüşdə iqtisadi tərəqqiyə nail olan Azərbaycandan

emiqrasiya edənlərin sayında xeyli azalma baş verdiyi vurğulanmışdır [4, s. 4]. Həmin ilin 16-22 oktyabr tarixlərində DMX rəisi Almaniya, Niderland və Belçikaya rəsmi səfər etmişdir [12]. Qərbi Avropa ölkələri ilə miqrasiya sahəsində baş tutan rəsmi görüşlər gələcək əməkdaşlıq üçün yeni prioritetlər yaratmışdır. Ölkədə vahid miqrasiya siyasəti həyata keçirən DMX-nin həyata keçirdiyi beynəlxalq əlaqələr Azərbaycanın bütün sahələrdə tərəqqi etdiyini göstərir.

5 dekabr 2013-cü ildə Brüsseldə Azərbaycan Respublikası ilə Avropa İttifaqı (Aİ) və quruma üzv dövlətlər arasında yerdəyişmə üzrə tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır. Aİ-nin Daxili İşlər üzrə Şurasının iclası çərçivəsində imzalanmış bu sənəd Azərbaycanın miqrasiya siyasətinin idarə olunması imkanlarını gücləndirməklə insanların daha asan və rahat şəraitdə yerdəyişməsinin təmin olunması üçün səmərəli mexanizmdir [23, s. 4]. İnsanların miqrasiya proseslərində rahat yerdəyişməsinə müsbət təsir göstərən ikitərəfli sənədlər Azərbaycan-Avropa əlaqələrində miqrasiya faktorunun az əhəmiyyət daşımadığını, mövcud sahədə əməkdaşlıq üçün əsas yaratdığını əks etdirir.

Azərbaycan-Avstriya əlaqələrində miqrasiya ilə bağlı məsələlər diqqət çəkir. Qərbi Avropanın inkişaf etmiş ölkələrindən biri olan Avstriya Respublikasının Avropa, inteqrasiya və xarici işlər federal nazirinin 11 sentyabr 2014-cü ildə Prezident İlham Əliyevlə görüşü mövcud sahədə qarşılıqlı inkişafa səbəb yaratmışdır [5]. Hazırda Azərbaycan-Avstriya əlaqələri diplomatik münasibətlər sayəsində genişlənir. Dövlət başçısı ilə keçirilən görüş mövcud sahəyə marağı bir qədər də artırmış, miqrasiya və inteqrasiya prosesləri kimi mühüm məsələlər, müzakirədə miqrasiya sahəsində yeni idarəçilik və qanunvericiliyin tətbiq olunmasına diqqət çəkmişdir.

Qeyd edək ki, qeyri-qanuni miqrasiya ilə mübarizə aparmaq üçün effektiv vasitələrdən biri də yuxarı səhifələrdə qeyd olunduğu kimi readmissiyadır. 2014-cü ildə Brüsseldə qeyri-qanuni immiqrasiyaya qarşı daha səmərəli mübarizə aparmaq məqsədilə öz aralarında əməkdaşlığı gücləndirmək niyyəti ilə "Azərbaycan Respublikası və Avropa İttifaqı arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında" Saziş imzalanmışdır [8, s. 24]. Mövcud saziş könüllü qayıdış üçün əlverişli şərait yaradır. Bu baxımdan, Azərbaycanın miqrasiya sahəsində Aİ kimi nüfuzlu beynəlxalq təşkilatla qurduğu əlaqələr qurumda təmsil olunan Qərbi Avropa ölkələri ilə miqrasiya əlaqələrinin inkişafına dinamik təsir göstərir. Yuxarıda qeyd olunduğu kimi Avstirya ilə son illər qurulan əlaqələr əməkçi miqrantlarla bağlı Avropanın yeni yollar axtardığını bəyan edir.

Əlaqələrin davamında 16 iyun 2016-cı ildə Avstriyanın Federal Daxili İşlər Nazirliyinin Gürcüstan və Azərbaycan üzrə əlaqələndirici şəxsi K.C.Gortano ilə DMX-də keçirilən görüşdə əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur [14]. DMX-də keçirilən görüşlər, xüsusilə Azərbaycanın Avropanın Qərb regionu ölkələri ilə aparılan müzakirələri ikitərəfli əlaqələrə impuls verir və Cənubi Qafqazda baş verən proseslərdə miqrasiyanın mühüm müsbət məqamlarını üzə çıxarır.

18 may 2017-ci ildə DMX rəisi Avstiryaya səfəri çərçivəsində bu ölkənin Daxili İşlər Nazirliyinin Sığınacaq, Miqrasiya, Vətəndaşlıq, Vətəndaşlıq vəziyyəti

məsələləri və İnsan Hüquqları üzrə Baş direktorluğunun, həmçinin Polis, Mülki Müdafiə və Böhran Vəziyyətlərinin İdarəolunması üzrə Baş direktorluğunun, o cümlədən İmmiqrasiya və Sığınacaq üzrə Federal Ofisin, Dublin və Beynəlxalq əlaqələr üzrə departamentin rəhbərləri ilə görüşmüşdür [13]. Azərbaycanın Avstirya ilə miqrasiya əlaqələri uğurla davam edir. Göründüyü kimi son illər ikitərəfli siyasi-iqtisadi münasibətlər miqrasiya sahəsində rəsmi təmasların genişləndiyini göstərir. Bununla yanaşı, aşağıda göstərildiyi kimi, mövcud sahədə Azərbaycan-Britaniya münasibətləri əmək miqrasiyası ilə bağlı yeni sənədlərin imzalanmasının əhəmiyyətini əks etdirir.

12 may 2023-cü ildə DMX-də İngiltərənin Azərbaycandakı səfiri F.Auld ilə görüş çərçivəsində dövlətlər arasında miqrasiya sahəsində müqavilə-hüquq bazasının genişləndirilməsinin əhəmiyyətinə diqqət yetirilmişdir [7]. Miqrasiya əlaqələrinin inkişafında siyasi münasibətlərlə yanaşı qanunvericilik bazasının təhlil olunması tədqiq olunan mövzuda əsas diqqət yetirilən məqamlardan biridir. Son illərdə Azərbaycanda formalaşan miqrasiya qanunvericiliyi daxili miqrasiya proseslərinin idarə olunmasında, miqrantların hüquqlarının müdafiə olunması baxımından vacib məsələlərdə əhəmiyyət daşıyır. Göründüyü kimi, ötən dövr ərzində Azərbaycan Respublikasının Qərbi Avropa ölkələrilə qurduğu miqrasiya əlaqələri genişlənmiş və əməkdaşlıq üçün yeni prioritetlər yaranmışdır. Azərbaycanın miqrasiya idarəçiliyi sahəsində Avropanın yeni metodlarını öyrənməsi, həmçinin respublikanın son illər mövcud sahədə əldə etdiyi nailiyyətlər qarşılıqlı əlaqələrə müsbət təsir göstərir.

Nəticə Miqrasiya idarəçiliyi, miqrant hüquqları, miqrasiya siyasəti sahəsində beynəlxalq və regional səviyyədə aparılan araşdırmalar təbii prosesin qarşısının alınmasına yönəlmiş sünii əngəllərin yaradıldığını göstərir. Burada qanunsuz miqrasiya proseslərinin idarə olunmasında Avropanın bəzi hallarda çıxılmaz vəziyyətlə üzləşməsi kimi məsələlər geniş müzakirələrə, diskussiyaya rəvac verir. Bütün çətinliklərə baxmayaraq, dövlətlərin miqrasiya əlaqələrinin yaradılmasına göstərdiyi maraq mövcud sahədə yarana biləcək problemlərin həllinə dinamik təsir göstərmək iqtidarındadır. Azərbaycan Respublikasının miqrasiya sahəsində Qərbi Avropa ölkələri ilə ciddi problemləri olmasa da hər iki tərəf müsbət təcrübəsinin öyrənilməsinə şərait yaratmaqla ikitərəfli əlaqələrin inkişafına yol açır.

Göstərilən dövr ərzində Azərbaycan Respublikası dünya birliyinin siyasi və iqtisadi baxımdan əhəmiyyətli hissəsi olan Qərbi Avropa dövlətləri ilə miqrasiya əlaqələrini inkişaf etdirmişdir. Həmin əlaqələr ilk illərdə aktiv şəkildə nəzərə çarpmasa da qeyd olunan növbəti illərdə Avropanın aparıcı dövlətləri ilə əlaqələr əməkdaşlıq münasibətlərinin yaranması və bəzi sazişlərin imzalanmasına əhəmiyyətli təsir göstərmişdir. Problemə hər iki tərəfin bir-birinə olan maraqları kontekstindən yanaşsaq, belə nəticəyə gəlmək olar ki, Azərbaycan Avropa üçün həm daşına bilən enerji, həm də COP29-un keçirildiyi respublika ilə yaşıl enerji sahəsində əməkdaşlıq baxımından hələ də diqqət mərkəzindədir. Mövcud məqam Azərbaycanın Qərbi Avropa dünyası ilə miqrasiya əlaqələrinin inkişafına əhəmiyyətli təsir göstərir və respublikada miqrant hüquqlarının qorunması, bilavasitə insan hüquqlarına yüksək səviyyədə əməl olunmasına gətirib çıxarır.

Azərbaycanda vahid miqrasiya siyasətini həyata keçirən DMX-nin son illər Qərbi Avropa istiqamətində apardığı görüşlər, beynəlxalq və regional layihələr, əməkdaşlıq sazişləri dünyanın inkişaf etmiş regionu ilə münasiəbtlərin möhkəmlənməsinə dinamik təsir göstərmişdir. Elmi-tədqiqat işində təhlil olunan bütün müsbət məqamlar sonda nəticəyə gələrək alınan elmi yeniliyin aşağıda göstərildiyi şəkildə müddəalarla əks olunmasını vacib edir:

- Azərbaycan Respublikası 44 günlük Vətən müharibəsindən sonra regionda əsas aktor kimi çıxış edir;
- Respublikanın sülhməramlı siyasəti Cənubi Qafqaz regionunda beynəlxalq investisiya mühitinin inkişafına və nəhəng layihələrin gerçəkləşməsinə səbəb yaradır;
- Burada əmək miqrasiyasına xüsusi əhəmiyyət verilməsi tədqiqat işində mühüm məqamlardan biridir;
- Hazırda ümumavropa məkanında baş verən proseslər sırasında miqrasiya ilk yedə durur. İnkişaf etmiş Qərbi Avropa regionu ölkələrinin bəzi hallarda miqrant axını və bundan irəli gələn təhlükəsizlik kimi mühüm problemlərlə qarşılaşması mövcud sahədə əlaqələrin genişləndirilməsinin vacib olduğunu göstərir;
- Azərbaycanın Həmin Avropa ölkələri ilə miqrasiya sahəsində problemləri olmasa da ikitərəfli miqrasiya əlaqələrinin öyrənilməsi elmi-nəzəri olduğu qədər də praktik əhəmiyyətə malikdir;
- Azərbaycanın dövlət müstəqilliyinin bərpasından ötən 30 ildən yuxarı dövr Avropa ilə siyasi əlaqələrinin inkişafına əhəmiyyətli təsir göstərmişdir;
- Azərbaycanın Qərbi Avropa məkanına inteqrasiyasında miqrasiya kimi həssas mövzu diqqət çəkir;
- Ölkədə sosial-iqtisadi inkişaf, insan hüquqlarının müdafiəsi, yeni iş yerlərinin açılmsı tərəqqi dövrü yaşayan Azərbaycandan emiqrasiyanı kəskin şəkildə azaltmışdır;
- Əgər 90-cı illərin əvvəllərində respublikanı tərk etmək istəyənlərin sayı kütləvi hal alırdısa, hazırda Azərbaycanda aparılan quruculuq və inkişaf prosesi ölkəyə olan marağı, yəni immiqrasiyanı aktuallaşdırmışdır;
- Azərbaycanın uzun illərdir Qərbi Avropa dövlətləri ilə qurmuş olduğu diplomatik münasibətlər, miqrasiya əlaqələrinin yaranması və irəliləməsi ilə əməkdaşlıq üçün prioritetlər yaratmışdır;
- Respublikanın Qərbi Avropanın aparıcı dövlətləri ilə qurduğu ikitərəfli əməkdaşlıq əlaqələri illər ötdükcə inkişaf edir və genişlənir;
- Həmçinin, Azərbaycanın Qərbi Avropa ölkələri ilə beynəlxalq təşkilatlar çərçivəsində qurduğu miqrasiya əlaqələri müsbət inkişafa və əməkdaşlığa əlverişli şərait yaradır;
- Azərbaycanın miqrasiya sahəsində qısa vaxt ərzində əldə etdiyi mütərəqqi təcrübə son dövrlər Avropanın diqqətini çəkir;
- Eləcə də Azərbaycanın inkişaf etmiş dövlətlərin miqrasiya idarəçiliyi ilə tanışlığı, əlaqələrin qurulması Qərbi Avropa istiqamətinin burada prioritet təşkil etdiyini əks etdirir;

- Beynəlxalq Miqrasiya Təşkilatı baş katibinin Azərbaycana baş tutan rəsmi səfərləri ikitərəfli əlaqələrə dinamizm qatır və Qərbi Avropa ilə gələcək əməkdaşlığın müzakirəsinə yol açır;
- Azərbaycanda miqrasiya idarəçiliyi sahəsində müşahidə olunan innovativ dəyişikliklər, miqrant hüquqlarına göstərilən həssasiyyət, aparıcı Avropa dövlətləri tərəfindən yüksək qiymətləndirilir;
- Qurulan əlaqələr hazırda davam etdirilir və gələcək tədqiqatlar üçün elmi-nəzəri əsaslar yaradır.

ƏDƏBİYYAT

1. Azərbaycanın Avropa üçün əhəmiyyəti günbəgün artır // "Azərbaycan" qəzeti. 8 may, 2009, s. 2.
2. Almaniya Azərbaycan ilə miqrasiya sahəsində əlaqələrin genişləndirilməsində maraqlıdır // "Azərbaycan" qəzeti. 28 iyun, 2009, s. 6.
3. Azərbaycan ilə Niderland arasında miqrasiya sahəsində əməkdaşlıq genişlənir // "Azərbaycan" qəzeti. 10 avqust, 2010, s. 2.
4. Almaniya Federativ Respublikasının nümayəndə heyəti Dövlət Miqrasiya Xidmətində olmuşdur // "Azərbaycan" qəzeti. 5 aprel, 2011, s. 4.
5. Azərbaycan Prezidenti İlham Əliyev Avstriyanın Avropa, inteqrasiya və xarici işlər federal nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib // "Azərbaycan" qəzeti, 2014, 12 sentyabr, s. 3.
6. Bakı-Brüssel (Azərbaycan-Avropa İttifaqı münasibətləri) / yaradıcı heyət: İ.Qasımov, T.Məmmədli, İ.Muxtarova, G.Nəsibov. Azərbaycan və ingilis dillərində Bakı: CBS, 2011, 405 s.
7. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfiri ilə görüş keçirilib / https://www.migration.gov.az/az/news_detail/15904 (12.05.2023).
8. Qafarova S. Avropada miqrasiya problemi: reallıqla həyata keçirilən tədbirlər arasındakı ziddiyyət // "Strateji təhlil". Say 3-4 (21-22), 2017, s. 19-29.
9. Durmazoğlu N.B. Qloballaşma şəraitində Avropa İttifaqı ölkələrində miqrasiya siyasəti / siyasi elm. üzrə fəl. dok. diss. avtoreferatı. Bakı, 2021, 24 s.
10. Dövlət Miqrasiya Xidməti rəisinin rəhbərlik etdiyi nümayəndə heyəti cari ilin 17-21 noyabr tarixlərində Almaniya Federativ Respublikasında rəsmi səfərdə olmuşdur / https://www.migration.gov.az/index.php/az/news_detail/8226 (24.11.2008).
11. Dövlət Miqrasiya Xidmətinin rəisi Arzu Rəhimov Niderland Krallığında işgüzar səfərdə olmuşdur / https://www.migration.gov.az/index.php/az/news_detail/8337 (31.10.2009).
12. Dövlət Miqrasiya Xidmətinin rəisi Arzu Rəhimov Almaniya Federativ Respublikası, Niderland və Belçika Krallıqlarında rəsmi səfərdə olmuşdur / https://www.migration.gov.az/az/news_detail/8683 (26.10.2011).

13. Dövlət Miqrasiya Xidmətinin rəisi Avstriyada səfərdədir / https://www.migration.gov.az/index.php/az/news_detail/9948 (18.05.2017).
14. İyunun 16-da Dövlət Miqrasiya Xidmətində Avstriya Respublikasının nümayəndəsi ilə görüş olub / https://www.migration.gov.az/index.php/az/news_detail/9576 (16.06.2016).
15. Əliyev Ə. Dövlətin miqrasiya siyasəti və əcnəbilər problemi // "Bakı Universitetinin Xəbərləri". Sosial-siyasi elmlər seriyası. № 1, 2007, s. 55-66.
16. Əhmədov A.P. Azərbaycan-Almaniya münasibətlərində miqrasiyanın bəzi aspektləri / "Gənc Tədqiqatçıların V Beynəlxalq Elmi Konfransı"nın materialları. Bakı, 29-30 aprel, 2021 , s. 805-808.
17. Əhmədov A.P. Azərbaycan Respublikasının miqrasiya sahəsində Niderland Krallığı ilə əməkdaşlığı // "Turizm və qonaqpərvərlik tədqiqatları". Beynəlxalq jurnal. İl 12, Say 2, 2023, s. 47-.59.
18. Osmanqızı A. "Readmissiya sazişləri yalnız Avropa olkələri ilə bağlanıb" // "Üç nöqtə" qəzeti, 182, 18 oktyabr, 2018, s. 14.
19. Ömərov V. Azərbaycan-Qərbi Avropa əlaqələri // "Səs" qəzeti. 29 yanvar, 2013, s. 14.
20. Məmmədov İ.B. Avropa ölkələrində miqrasiya prosesəlrinin tənzimlənməsi yolları // "Pedaqoji Universitetin Xəbərləri". Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası. C. 69, № 4, 2021, s. 74-83.
21. Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş səfiri Dövlət Miqrasiya Xidmətində olmuşdur / https://www.migration.gov.az/index.php/az/news_detail/8362 (13.01.2010).
22. Nərimanlı A. Qərbi Avropa Azərbaycan diasporunun ən fəal və ardıcıl fəaliyyət göstərdiyi bölgələrdən biridir // "Paritet" qəzeti. 6-7 dekabr, 2011, s. 5.
23. Seyidov V. Brüsseldə Azərbaycan ilə Avropa İttifaqı arasında yerdəyişmə üzrə tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır // "Yeni Azərbaycan" qəzeti. 7 dekabr, 2013, s. 4.
24. Агаяров А.А. Влияние пандемии на миграционные связи в Азербайджане // Вестник Челябинского государственного университета. Экономические науки. № 4(462), Вып. 76, с. 196-200.
25. Рзаев М.А. Причины трудовой миграции в Азербайджане // «Наука, техника и образование», 2018, с. 49-52.

Məqalənin redaksiyaya daxilolma tarixi: 11.07.2024
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 15.07.2024
Məqalənin çapa qəbul olunma tarixi: 17.07.2024

DOI: doi.org/10.61226/12.2.2023/20242.10
UOT: 9:327
Sehran SƏFƏROV
Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix və
Etnologiya İnstitutu, sabiq doktorant
sehran.safarov@mail.ru
https://orcid.org/0009-0000-4040-2969

XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BÖYÜK BRİTANİYANIN CƏNUBİ QAFQAZDA "MANDAT DÖVLƏT" YARATMAQ TƏŞƏBBÜSÜ VƏ ONUN UĞRUNDA MÜBARİZƏSİ

Xülasə: 1878-ci il Berlin müqaviləsinin imzalanmasından sonra dünyanın böyük gücləri Cənubi Qafqazla daha yaxından maraqlanmağa başladılar. İlk dəfə olaraq bölgədə böyük güclərin mandat hakimiyyətinin yaradılması fikri də məhz buradan ortaya çıxdı. Bölgədə "mandat" hakimiyyətinin yaradılması fikri buraya təyin edilməmiş güclərin gəlişini də təmin etdi. Bu güclər missioner qruplar idilər. Protestantlıq, katoliqlik və ortodoksluq (pravoslavlıq) adıyla fəaliyyət göstərən çox sayda radikal xristian təşkilatların bölgəyə axını başladı. Onlar bu coğrafiyada fəaliyyət göstərməklə özlərinə tərəfdaş güc yaratmaq istəyirdilər. Bu baxımdan həmin dövrdə qeyd olunan təşklilatlar ərazidəki mövcud siyasi və hərbi vəziyyəti dəyərləndirib ona uyğun addım atmağa çalışırdılar. Bu məsələlərin gedişatı onu göstərirdi ki, missioner qruplar Qafqaz və bu coğrafiyada yerləşən dövlətlərin siyasi təcrübəsizliyindən daim öz mənfəətləri üçün istifadə etmişlər. Onlar fəaliyyətlərini genişləndirmək məqsədlə hamilik etdikləri tərəfdarlarını dəstəkləyirdilər. Onlara görə mandat dövlət anlayışı buradakı dövlətləri öz təsir dairəsinə salmaq və onları asanlıqla idarə etmək fikrini ifadə edirdi. Ümumiyyətlə məqalədə Qafqaz və bu ərazilərdə mandat hayimiyyətin yaradılmasına cəhd və bu işin fəaliyyət istiqamətləri təfsilatlı araşdırılır. Eləcə də məqalədə XX əsrin əvvəllərində dünyadakı böyük güclərin Cənubi Qafqaz uğrundakı mübarizəsi, eyni zamanda Cənubi Qafqaz komissarlığının, Cənubi Qafqaz Federativ Respublikasının, Cənubi Qafqaz Seyminin və milli dövlətimiz-Azərbaycan Xalq Cumhuriyyətinin yaranması, inkişafı və süqutu, həmçinin Böyük Güclərin bu coğrafiyaya sahiblənmək istəkləri ilə bağlı məsələlər ətraflı şəkildə tədqiq, təhlil və şərh olunmuşdur.

Açar sözlər: Cənubi Qafqaz, mandat dövlət, Osmanlı dövləti, Avropa imperialistləri, Bakı Soveti, Azərbaycan Xalq Cumhuriyyəti, ingilis komandanlığı, Qafqaz İslam Ordusu.

Sehran SAFAROV

GREAT BRITAIN'S INITIATIVE TO CREATE A "MANDATE STATE" IN THE SOUTH CAUCASUS AND THE STRUGGLE FOR IT IN THE EARLY 20TH CENTURY

Abstract: After the signing of the Berlin Treaty of 1878, the great powers of the world began to be more interested in the South Caucasus. For the first time, the idea of creating a mandate authority of the great powers in the region emerged from here. The idea of establishing a "mandate" power in the region ensured the arrival of powers that were not assigned here. These powers were missionary groups. A large number of radical Christian organizations operating under the name of Protestantism, Catholicism and orthodoxy began to flow into the region. They wanted to create a partner power for themselves by operating in this geography. In this regard, the organizations mentioned at that time evaluated the current political and military situation in the area and tried to take appropriate steps. The progress of these issues showed that the missionary groups constantly used the political inexperience of the Caucasus and the states located in this geography for their own benefit. They supported their supporters in order to expand their activities. According to them, the concept of the mandate state expressed the idea of bringing the states here under their sphere of influence and controlling them easily. In general, the article examines in detail the attempt to create a mandated authority in the Caucasus and these areas and the directions of this work. Also, in the article, the struggle of the world's great powers for the South Caucasus at the beginning of the 20th century, at the same time, the establishment of the South Caucasus Commissariat, the South Caucasus Federal Republic, the South Caucasus Seym and our national state - the Azerbaijan People's Republic, development and decline, also the issues related to the desire of the Great Powers to possess this geography were studied, analyzed and interpreted in detail.

Keywords: South Caucasus, mandate state, Ottoman state, European imperialists, Baku Soviet, Azerbaijan Democratic Republic, English command, Caucasus Islamic Army.

Сехран САФАРОВ

ИНИЦИАТИВА ВЕЛИКОБРИТАНИИ ПО СОЗДАНИЮ «МАНДАТНОГО ГОСУДАРСТВА» НА ЮЖНОМ КАВКАЗЕ И БОРЬБА ЗА НЕГО В НАЧАЛЕ XX ВЕКА

Абстракт:После подписания Берлинского договора 1878 года великие державы мира стали больше интересоваться Южным Кавказом. Отсюда впервые возникла идея создания мандатного органа великих держав в регионе. Идея установления «мандатной» власти в регионе обеспечила и приход сюда неуказанных полномочий. Этими силами были миссионерские

группы. В регион стало притекать большое количество радикальных христианских организаций, действующих под названием протестантизма, католицизма и православия. Они хотели создать для себя партнерскую державу, действуя в этой географии. В связи с этим упомянутые тогда организации оценили текущую политическую и военную ситуацию в регионе и попытались предпринять соответствующие шаги. Ход решения этих вопросов показал, что миссионерские группы постоянно использовали политическую неопытность Кавказа и расположенных в этой географии государств в своих целях. Они поддержали своих сторонников, чтобы расширить свою деятельность. По их мнению, концепция мандатного государства выражала идею подчинения государств здесь своей сфере влияния и легкого контроля над ними. В целом в статье подробно рассматривается попытка создания мандатной власти на Кавказе и в этих областях и направления этой работы, также в статье рассматривается борьба великих держав мира за Южный Кавказ в начале 20 века, одновременно создание Южно-Кавказского комиссариата, Южно-Кавказской Федеративной Республики, Южно-Кавказского Сейма и нашего национального государства – Азербайджанской Народной Республики, развитие и упадок, также подробно изучались, анализировались и интерпретировались вопросы, связанные со стремлением великих держав овладеть этой географией.

Ключевые слова: Южный Кавказ, мандатное государство, Османское государство, европейские империалисты, Бакинский Совет, Азербайджанская Демократическая Республика, британское командование, Кавказская Исламская Армия.

Giriş

1878-ci ildə Berlin razılaşdırılması sadəcə, Osmanlının deyil, Qafqazın da taleyini dəyişdirdi. 1878-ci ildən sonra dünyanın böyük gücləri Osmanlının Şərq Vilayətləri ilə, o cümlədən Cənubi Qafqazla da daha yaxından maraqlanmağa başladılar. Berlin razılaşması bu baxımdan onları bəzi hüquqi əsaslarla təmin edirdi. Bölgədə "mandat" hakimiyyətinin yaradılması fikri ilk dəfə bu zaman ortaya çıxdı.

Mətn

Bu məsələ ilk öncə bölgədə dini missionerlik fəaliyyətilə başladı. Missioner təşkilatlar Tiflis, İrəvan və Bakıdakı erməni qruplarla əlaqə saxlayır, xüsusilə də Avropa dövlətləri tərəfindən geniş dəstəklənirdilər. Şərqi Anadolu və Cənubi Qafqazın vəziyyəti, xüsusilə də buradakı xristian xalqlara təbliğ edilən fikirlər nəticəsində bölgənin ənənəvi nizamı tamamilə pozulmağa başladı. Bölgənin idari sistemini yenidən tənzimləmək üçün etnik-demoqrafik kateqoriyaların yaradılması və buna bağlı olaraq yeni sistemin mənfəətləri istiqamətində homogen olan etnik ərazilərin yaradılması üçün başqa yerə nəql edilməsi "köçrülmə" düşüncəsi irəli atıldı.

Bu "köçrülmə" fikrinin hələ 1880-ci ildə ortaya atıldığı, başlıca məqsədin Anadolunun qərbində yaşayan xristianları Şərqi Anadolu və Cənubi Qafqaza, Şərqi Anadoludakı və Azərbaycanın qərbində yaşayan müsəlman əhalini isə Anadolunun qərbi ilə Azərbaycanın daxilinə köç etdirmək idi. Beləliklə, Şərqi Anadolu ilə

Cənubi Qafqazın qərbində geniş ərazidə "müsəlmanlardan təmizlənmiş bölgə" və ya "xristian ölkə" yaratmaq fikri ortaya atıldı. "Başda İngiltərə olmaqla bir çox Avropa dövlətləri isə bu siyasətin həyata keçməsi üçün bölgənin "açıq qapı" elan edilməsini istəyirdilər" [3, s. 74].

Bu mənada Hans-Lukas Kieserin ortaya çıxartdığı faktlar son dərəcə maraqlıdır. Onun yazdığına görə, "missionerlər Berlin konfransından çox şey gözləyir və böyük güclərin, xüsusilə də İngiltərə nümayəndələrinin, bölgədə yaşananlardan daima xəbərdar olması üçün əllərindən gələni edirdilər" [1, s. 175].

Osmanlı hakimiyyətinin Şərq vilayətlərində islahatlar aparmaq qabiliyyətinə şübhə ilə baxan bəzi missyoner təşkilatları bir mandat rejiminin, yəni beynəlxalq dəstəyə sahib ingilis himayəsinin yaradılmasını hədsiz arzu edirdilər. Missionerlər sadəcə, əcnəbi konsulların itaətkar, hətta pullu məlumat qaynaqları olaraq deyil, Berlin konfransından sonra Şərq vilayətlərindəki islahatların aparıcılarından biri olan gürcü nümayəndələrini, öz məsələlərinə daxil etmək üçün hər şeyə əl atacaq insanlar olaraq ortaya çıxarmışdılar.

Xristianlar üzərində himayəçilik məsələsi Şərqi Anadolu və Qafqazda böyük dövlətlərin üz-üzə gəlməsinə də səbəb olurdu. 1877-1878-ci il müharibəsində Rusiyanın Şərqi Anadoluda Osmanlıya aid üç böyük əyaləti ələ keçirməsi ermənilərə bölgədə geniş hərəkət imkanı təmin etmişdi. Lakin 1903-cü ildə Rusiya çarının əmri ilə erməni kilsə topraqlarına əl qoyulması Şərqi Anadoluda fəaliyyət göstərən erməni milliyətçi təşkilatların istiqamətini Cənubi Qafqaza çevirməsinə səbəb oldu. 1895-ci ildə Şərqi Anadoluda əsasən ermənilər ilə kürdlər arasında meydana gələn qanlı toqquşmalar sonrası 1905-1906-cı ildə Qafqazda erməni-müsəlman davasının ardını gətirdi [1, s. 353].

Digər tərəfdən 1905-1906-cı illərdə Qafqazda müsəlmanlara qarşı təşkil olunan qətliamların qarşısını uğurla almağa çalışan Difai təşkilatının gizli qolları da Osmanlı ilə paralel çalışırdı [6, s. 21].

1917-ci ilin oktyabrında Petroqradda baş verən bolşevik çevrilişi, noyabrın 2-də Bakıda sovet hakimiyyətinin elan edilməsi dünya siyasətində Cənubi Qafqazın və Şərqin rolunu strateji baxımdan artırdığından Rusiyanın keçmiş müttəfiqlərini hərəkətə keçirdi. Siyasi, iqtisadi və hərbi-strateji amillər Antanta dövlətlərinin Cənubi Qafqaz siyasətini yeni şəraitdə həyata keçirməyə sövq etdi. Bu zaman Antanta dövlətlərinin bölgədəki diplomatik-siyasi fəaliyyətləri gücləndi. Bu məqsədlə ingilis generalı V. Şort (W. Short), fransız polkovniki Şardini (Shardinie) və amerika konsulu Smit (Smith) 1917-ci il noyabrın 11-i və 15-də Tiflisdə menşevik E.Geqeçkori başda olmaqla Cənubi Qafqaz komissarlığının yaradılmasına və idarə olunmasına kömək etdilər. Smit teleqramında "Cənubi Qafqaz komissarlığının yaranmasını və Cənub Qafqaz Federasiyası ilə birləşərək hər cür separat sülhü rədd etdiklərini göstərdi. Bu Cənubi Qafqaz kommisarlığı ilə Ukrayna və Şimali Qafqaz ittifaqına bir işarə idi. O, seperat sülh dedikdə Sovet Rusiyası ilə Almaniya arasında bağlanacaq sülhü nəzərdə tuturdu. Smit Cənubi Qafqaz komissarlığı hökumətini de-fakto tanımaq üçün ABŞ Senatından ona səlahiyyət verilməsini xahiş etdi [9, s.37].

Nəsib bəy Yusifbəyli 1917-ci il noyabrın 17-də Musavat partiyasının Mərkəz

Komitəsinə göndərdiyi məktubda Cənubi Qafqaz komissarlığının təşkilində Tiflisdəki ingilis-fransız-amerkan nümayəndələrinin rolunu təsdiq edir. O, məktubunda Cənubi Qafqaz hökumətinin tərkibinə əsasən İngiltərə, Fransa və Amerika diplomatik nümayəndələrinin məsləhət gördükləri adamların daxil edildiyini bildirirdi.

Dövlət katibi R. Lansinq (Lansing) Smitin teleqramı barədə Parisə xüsusi tapşırıqla göndərilmiş prezident V.Vilsonun dostu və müşaviri polkovnik Edvard Hauza (1858-1929) məlumat verərək bu məsələyə dair İngiltərə və Fransanın mövqeyini öyrənməyi tapşırdı. Eyni zamanda Cənubi Qafqaz komissarlığının tanınmasının mümkünlüyünü öyrənmək barədə Smitə müvafiq tapşırıqlar verdi. "E.Hauz məsələni İngiltərənin baş naziri Lloyd Corc, 1917-1920-ci illərdə Fransanın baş naziri olan Jorj Benjamin Klemanso (1841-1929) və İtaliya nümayəndəsi Sanino ilə geniş müzakirə etdi. ABŞ, İngiltərə, Fransa və İtaliya nümayəndələrinin birlikdə təşkil etdikləri Cənubi Qafqazın vəziyyətinə dair həsr olunmuş müzakirədə Rumuniyadakı ingilis və fransız missiyasının Tiflisə göndərilməsi qərarlaşdırıldı. Onların məqsədi bölgədə antibolşevik güclərin vəziyyətini və müharibə qabiliyyətini öyrənmək idi" [9, s. 94].

İngiltərə ilə Fransanın təcili Tiflisə missiya göndərmələri ABŞ heyətinin də diqqətini çəkmişdir. Dekabrın 3-də ABŞ-ın təşəbbüsü ilə Antanta dövlətlərinin xüsusi konfransı təşkil edildi. "Konfransda qəbul olunan qətnamədə İngiltərənin Mərkəzi Asiya ilə Qafqazı tutmasının vacibliyi vurğulanırdı" [4, s. 86]. Bu 1878-ci ildən etibarən "mandat rejimi" yaratmaq istəyən İngiltərənin əsas arzusunun baş tutuduğu mənasına gəlirdi.

Bu dövrdə canfəşanlığı ilə diqqəti cəlb edən ABŞ-ın qeyd edilən illərdə Cənubi Qafqazda İngiltərə və Fransaya nisbətən fəaliyyəti kifayət qədər kölgə planda qalırdı. ABŞ ümumiyyətlə, Qafqazda Böyük Britaniya və Fransa ilə qarşıdurmadan çəkinirdi. Bunun başlıca səbəbi tarixən İngiltərə və Fransanın şərqdə tutduğu mövqe idi. İngiltərə və Fransa Cənubi Qafqazda ciddi fəaliyyət göstərərək təşəbbüsü öz əllərinə almağa çalışırdılar. Regionda ingilis-fransız siyasətinin bir sıra özünəməxsusluqları vardı. İngilis və fransız diplomatları bir tərəfdən regionun bolşevik Rusiyasının təsiri altına yenidən düşməsinə və eyni zamanda alman bloku tərəfindən işğalına yol vermək istəmirdilərsə, digər tərəfdən Cənubi Qafqazda hətta Avropada ABŞ-ın fəallaşmasının əleyhinə idilər. M.Qasımlının fikrincə, Sovet Rusiyasının müharibədən çıxması Həmədandan Baltik dənizinədək 3000 km-lik bir ərazinin boşalmasına səbəb oldu. Rus cəbhələrinin dağılması nəticəsində yaranmış vəziyyətdə bolşevik cərəyanı sürətlə Qərbi Avropaya və oradan da Avropa imperialistlərinin göz dikdiyi Asiyaya yayıla bilərdi. Bu proseslər müsəlman torpaqlarında müstəmləkələri olan İngiltərəni xüsusilə narahat edirdi. İngiltərə üçün başqa bir narahatlıq rus ordusunun dağılmasından yararlanan alman qüvvələrinin Qara dənizin şimalında sürətlə irəlləyərək Ukrayna və Krıma girməsi, Gürcüstanda qərargah yaratması idi. İngiltərə üçün digər narahatlıq türk qüvvələrinin Qafqaza daxil olmaq imkanlarının artması idi. Osmanlı dövləti İrandan Xəzər dənizinin şimalınadək olan ərazidə yaşayan türkləri və digər müsəlmanları istiladan xilas etmək istəyirdi. Sözsüz ki, Osmanlının hərbi-siyasi, iqtisadi və strateji niyyətləri də

var idi. İngilis müstəmləkəsi olan Hindistanın yolunun üstündə yerləşən Cənubi Qafqaza Almaniya və Osmanlının yiyələnməsi, zəngin təbii sərvətlərə sahib olması, insan ehtiyatlarını əldə etməsi Antanta ölkələri üçün fəlakətli nəticələrə gətirə bilərdi. Türklərin bu istəyi ingilisləri heç cür təmin edə bilməzdi. Bütün bu amillər müttəfiq dövlətlərin diqqətini Şərqə yönəltdi. Alman və türk hücumuna qarşı çıxış etmək hüququ müttəfiqlər tərəfindən İngiltərəyə verildi. İngiltərənin tələbini təmin etməyə yönələn bu hüququ ingilislər məmnuniyyətlə qarşıladılar. İngilislər bu hüququ almaqla Xəzər dənizinin şimalında bolşeviklərlə, Qafqazın və Xəzər dənizinin cənubunda türklərlə haqq-hesab çəkib öz planlarını reallaşdırmağa, işğal altında saxladıqları İranın şimal və şərqindən gələ biləcək təhlükəni dəf etməyə, Hindistan ətrafında türk yürüşünə və bolşevik cərəyanına qarşı geniş bir güc sahəsi yaratmağa, Qara dənizin şərqindən Xəzər dənizinə qədər olan bölgəyə nüfuz etməklə Bakı neftini ələ keçirməyə və Qafqazda yeni iqtisadi imkanlar qazanmağa çalışırdılar [7, s.19].

Dekabrın 22-də İngiltərə Xarici işlər nazirinin müavini lord R.Sesil və hərbi nazir lord A.Milne Parisə gəldilər. Onlar burada Atlanta Ali Hərbi Şurasının iclasını təşkil edərək memarandium qəbul etdilər. Memarandiumda Rusiya məsələsinə müdaxilə olmamaq fikri öz əksini tapsa da mətndə Qafqaz haqqında deyilirdi: "Birinci vəzifə Qafqaz qüvvələrini yenidən qurmaq üçün vəsait verilməsindən ibarətdir". İclasda Qafqaz üçün 60 milyon rubl vəsait ayrıldı [8, s. 231].

1917-ci il noyabrın 20-də V. Lenin və İ. Stalin imzası ilə "Rusiyanın və Şərqin bütün müsəlmanlarına" başlıqlı müraciətdə deyilirdi ki, hərbi əməliyyatlar dayandırılan kimi ordular İranı tərk edəcəklər. Bu, 450 millik ərazidə İngilislər üçün yeni bir boşluq yaranması mənasına gəlirdi. İngiltərə həmin boşluğun Osmanlı tərəfindən doldurulmasından narahat idi [8, s. 12]. Bunun qarşısını almaq üçün İngiltərə L.Denstervilə 1917-ci il dekabrtın 24-də Bağdad-Bakı-Buxara istiqamətində hərəkət əmri vermişdi. Digər tərəfdən isə İngiltərə hökuməti Tiflisə bir missiya göndərmək üçün hazırlıqlara başladı. Missiyada 200 zabit və bir o qədər əsgər yer alırdı. Missiyanın məqsədi erməni, gürcü və bolşevik rejimini qəbul etməyən rus əsgərlərindən ibarət dəstələr yaratmaq və onlara hərbi təlim keçmək idi. Formalaşdırılan dəstənin başlıca məqsədi isə Osmanlı hücumunun qarşısını almaq idi [10, s. 33].

İngilislər İranın Vüsüqəd-dövlə hökumətinin zəifliyindən istifadə edərək 1918-ci il yazınadək Cənubi Azərbaycanın bir sıra vilayətlərində, xüsusilə də Zəncan və Miyanədə möhkəmləndilər və buradan Şimali Azərbaycan və Xəzər bölgələrinə doğru hücum planları həyata keçirməyə başladılar. İngilislərin başlıca məqsədi Təbrizdə yerləşən Osmanlı türklərinin hərəkət dairəsini məhdudlaşdırmaq idi. Buna görə də Denstervil Bakıya sahib olan bolşeviklərə qarşı deyil, daha çox türklərin qarşısını almaq niyyətində idi. Buna görədə o, guya İran üçün Türkiyə tərəfindən təhlükə olması bəhanəsi ilə Zəncan və Miyanəni, sonra isə Xoy və Urmiyanı tutdu. İşğal edilən bölgələrdə ingilislər jandarma və hərbi hissələr yaratdılar. Həmin dəstələrə türklərin Bakıya gedən yolunu kəsmək təlimatı verildi. Bu məqsədlə bölgəyə dağılmış çar ordusunda fəaliyyət göstərən ermənilər də birliyə daxil etdilər [10, s. 117].

Denstervilin hərbi hissələrindən başqa İngiltərə hökuməti bölgəyə əlavə hərbi quvvələr də göndərdi.

Belə bir ağır şəraitdə Bakı Soveti və erməni-daşnak silahlı dəstələri türk hücumunun qarşısını almaq, Azərbaycanın müstəqilliyinin elan olunmasına yol verməmək məqsədilə müsəlman-türklərə qarşı kütləvi soyqırımlar törədirdilər. Bu qırğınlarda türkləri Bakıya buraxmamaqda maraqlı olan bəzi ölkələrin kəşfiyyatı da mühim rol oynadı. Bununla onlar bir tərəfdən əhali arasında nüfuzu onsuzda zəif olan Bakı Sovetinə nifrəti artırmağa, digər tərəfdən türklərin gəlişinə rəğbət bəsləyən Azərbaycan əhalisinin gözünü müvəqqəti olsa da qorxutmağa nail oldular. Transqafqaz hökuməti isə bu qırğınların qarşısını almaqda tamamilə aciz idi. Daxili və beynəlxalq amillər nəticəsində komissarlıq və seym daxilində ziddiyyətlər sürətləndi. Belə bir şəraitdə mayın 26-da Gürcüstan, 28-də isə Azərbaycan müstəqilliklərini elan etdilər. Həmin dövrdə Azərbaycan Xalq Cumhuriyyəti Bakı şəhəri işğal altında olduğundan özünün müvəqqəti paytaxtını Gəncə şəhərini elan etdi. Digər tərəfdən Osmanlı ilə danışıqlara girərək Trabzon və Batumda keçirilən konfranslarda Qafqazda müsəlman-türklərin kütləvi halda qırğınını dayandırmaq üçün İstanbul hökumətindən hərbi yardım istənildi [2, s. 119].

Denstervillə birlikdə Qafqazda fransız hərbi missiyasının rəisi polkovnik Şardini də var idi. Beləliklə, Bakıya yürüş təkcə ingilis deyil, ingilis-fransız ittifaqının birlikdə planı çərçivəsində həyata keçrilirdi. Denstervil eyni zamanda Bres-Litovski sülh müqaviləsindən sonra Cənubi Azərbaycanda qalan rus ordu hissələrini general N.Baratov və kazak dəstələri komandanı L.Biçeraxov liderliyində toplayaraq yardımçı dəstələr yaratdı. Onların əmrində 800-900 nəfərlik Terek və Kuban kazaklarından ibarət əsgərlər vardı. İngilis hökumətinin əlavə olaraq ayırdığı 14 milyon fund-sterlinq pul yardımı da ağqvardiyaçıların Moskvaya hücumu üçün ayrılmışdı. Ayrıca, Denstervil daşnaq, menşevik və eserlərlə sazişə girdi. Bu məqsədlə o, ermənilərdən və gürcülərdən ibarət türklərə qarşı vahid bir ordu təşkil etməyə çalışırdı. İyunun 5-də Gilan bölgəsində panislamist cərgəsində mübarizə aparan Mirzə Kiçik xana qarşı Biçeraxovun başladığı döyüşlərdən sonra Ənzəlidə işğalçı ordularının qərargahı yaradıldı. 26 iyunda isə Denstervil də Ənzəliyə gəldi. O, gecəni 12 nəfərlik mühafizəçi tərəfindən qorunan ingilis konsulluğunda keçirdi [10, s. 108].

Lakin istər maliyyə məsələsində, istərsə də Bakının alınmasında Biçeraxov ilə Denstervil arasında problemli məsələlər və fikir ayrılıqları mövcud idi. Biçerxovun Qafqazda var olmaq yolunu bolşeviklərlə razılaşmada görməsi ingilisləri narahat edirdi. Onun bu məqsədlə Bakıdakı bolşevik-daşnak hökumətinə göndərdiyi teleqraf da bu məqsədə xidmət edirdi: "sizlərə salam olsun Rusiya vətəndaşları" şəklindəki müraicəti ilə Biçeraxov hər şeydən əvvəl Rusiyanın birliyinə tərəfdar idi. Onun müraciəti Azərbaycan-Osmanlı hərbi birlikləri qarşısında geri çəkilməyə başlayan bolşevik-daşnakları həyəcanlandırdı. Bu onlar arasında razılığın yaranmasında başlıca amil oldu. Avqustun 3-də isə Biçeraxov Bakıya hücuma keçdiyini elan etdi [9, s. 203].

Biçeraxovun məqsədi Ələtə, oradan da Gəncə istiqamətində hərəkət edib Tiflisə getmək idi. Lakin bu plan ciddi görünmürdü, çünki artıq bölgədə İslam

Ordusu öz mövqelərini gücləndirmiş və Azərbaycan xalqından böyük dəstək görürdü. Digər tərəfdən bolşeviklərin Ənzəlidəki nümayəndəsi Çelyabin ingilislərdən kömək xahiş etdi. "Etibarsız tip" adlandırılan Çelyabinlə Denstervil arasında başlayan görüşmələrdə bəzi razılıqlar əldə edildi. Bu razılığa görə, 300 fund-sterlinq dəyərində olan benzinə 100 fund-sterlinq ödəyəcəkdi. Denstervil Bakı Sovetindən 50 min fund-sterlinq dəyərində benzin aldı. Əvəzində isə onlara 10 Ford avtomobili verməli idi. Lakin bolşevik hökumətinin süqutu maşınların göndərilməsi ehtimalını ortadan qaldırdı. Digər tərəfdən ingilislər geniş agentura vasitəsilə Bakı ilə gündəlik əlaqə saxlayır və vəziyyəti öyrənirdilər [2, 144].

Digər tərəfdən Biçeraxov iyulun 5-də Ələtə çatmışdı. Biçeraxov Bakı Soveti ordusuna rəhbərlik etmək məqsədilə 1200-1500 nəfərlik ordu, radiostansiya, 8 zirehli maşın və 4 təyyarə ilə Yevlaxa doğru hərəkət etdi. Lakin onlar Yevlax körpüsünü tuta bilmədilər və bu hücum Qafqaz İslam ordusu tərəfindən dəf edildi. İyulun 10-da Kürdəmir, 20-də Şamaxı İslam Ordusunun əlinə keçdi və buradakı bolşevik-daşnak orduları qovuldu. Beləliklə Biçeraxovun ordusu Bakıya doğru sıxışdırıldı. Türklərin hücumları qarşısında dayana bilməyən Biçeraxov 26 iyulda Dərbəndə getdi və Bakını bolşeviklərin öz ümidinə buraxdı. Bakı Soveti Biçeraxovun bu hərəkətini "xəyanət" adlandırmışdı [6, s.99].

İyulun 16-da Bakıda keçirilən iclasda eser, menşevik və daşnaqlar ingilislərin Bakıya gəlmələri üçün dəvət təklifi irəli sürdülər. Onlar Azərbaycan-Türk qüvvələri qarşısında bütün ideoloji problemləri bir tərəfə qoyub ingilislərlə ortaq hərəkət etməkdə qərarlı idilər. Lakin Bakı Soveti rəhbəri S.Şaumyanın Moskva ilə apardığı danışıqlar ingilislərin dəvət qərarına qarşı çıxırdı. Belə ixtilaflar ortasında Bakı Soveti 31 iyula qədər fəaliyyətini göstərə bildi. 1 avqust günü daşnaklar və eserlər Bakıdakı ingilis konsulu MakDonelin iştirakı ilə "Mərkəzi Xəzər diktaturası" elan etdilər. Daha sonra isə Denstervilə müraciət qəbul edildi. Lakin bu vaxt Denstervilin əmrində lazımi hərbi dəstələr yox idi. Ona görə də o, polkovnik Stoksun başçılığında 300 nəfərlik dəstəni Bakıya göndərdi. Dəstə Ənzəlidən avqustun 4-də Bakıya çıxdı. Onunla birlikdə fransız missiyası rəhbəri Şardini də Bakıya gəldi. Stoks Mərkəzi Xəzər orduları qərargahının rəisi, fransız polkovnik Şardini isə inspektor oldu.

Denstervil özü isə avqustun 17-da "Prezident Kryüger" gəmisi ilə 17 saatlıq dəniz səfərindən sonra Ənzəlidən Bakıya gəldi. Artıq Bakıda 900 əsgərə sahib bir ingilis üsul-idarəsi təşkil edilmişdi. Daşnak, eserlərin dəstəyi ilə onun əmrində 3 minlik ordu vardı. Bu 1878-ci ildən etibarən ingilislərin xəyalında qurduqları bölgədə bir mandat dövləti yaratmaq arzusunun reallaşması mənasına gəlirdi.

Azərbaycan Xalq Cumhuriyyətinin nümayəndələrindən olan M.Mehdizadə ingilislərin Bakıya gəlişini birbaşa neftlə əlaqələndirmişdir. Doğrudan da ingilislər bütün cəhdlə Bakı neftinin türklərin və almanların əlinə keçməsini istəmirdilər.

İngilsilər hər ay Bakıdan Mesopotamiya cəbhəsinə 80 min pud benzin göndərilməsini menşevik-daşnak-eser birliyindən tələb edirdilər. Bakıda olduqları 41 gün ərzində ingilis komandanlığı Bakı neftini və neft məhsullarını döyüşən ingilis cəbhələrinə göndərirdi. Avqustun 21-də onlar Mərkəzi Xəzər diktaturasından 15 min pud maşın yağı, 30 min pud benzin, 60 min pud mazut göndərməyi tələb

etdilər. Bu tələb yerinə yetirildi. Belə məlum olur ki, ingilislərin Bakıdakı əsas məqsədi Asiyada, xüsusilə də Yaxın Şərqdə müttəfiqlərin neftə olan tələbatını qarşılamaq idi [10, s.208].

Denstervilin Bakıdakı hakimiyyəti bir sıra problemlərlə qarşılaşdı. Birincisi o daşnak ermənilərinin özbaşnalığının və ordudan qaçışının qarşısını ala bilmədi. Denstervilin şəhərdə nizam-intizam yaratmaq cəhdləri də uğursuz oldu. Ən böyük problem isə neft hasilatında yaşanan düşmə idi. Üçüncüsü isə Bakıda əhalinin təchizatı daha da pisləşdi. 1918-ci ildə meydana gələn mart soyqırımından sonra Bakıda müsəlman əhalisi ciddi şəkildə azalmışdı. Qalanları isə erməni, daşnak, eser və bolşeviklərin zülmündən cana doymuşdular.

Vəziyyətin mürəkkəbliyini görən Denstervil Dərbəndə gedib Biçeraxovla görüşmək istəsə də bolşeviklər buna maneə oldular və nəticədə o 23 avqustda əli boş Bakıya qayıtdı. Bir gün sonra isə 24 avqustda Qafqaz İslam ordusunun Bakı hərəkatı başladı. Çıxış yolları axtaran Denstervil Bakının müdafiəsinin mümkünsüzlüyünü başa düşürdü. 1 sentyabrda Bağdaddan Bakıya bir günlük səfərə gələn general Lyuinlə müzakirələr keçirən Denstervil Bakının müdafiəsinin faydasız olduğunu, ingilis ordusunun şəhəri tərk etməsi vacibliyinə qərar verdi. [10, s. 121].

Sadəcə ingilislər deyil, almanlar da türklərin Bakını ələ keçirməsini istəmirdilər. Ancaq bütün cəhdlərə baxmayaraq sentyabrın 10-da Bakı hücumuna rəhbərliyi Nuru Paşa öz üzərinə götürüb hərəkat əmri verdi. Sentyabrın 12-də isə Xəlil Paşa şəhərin azad edilməsinin vacib olduğunu bəyan etdi.

Nəticə

Beləliklə, Böyük Britaniyanın Cənubi Qafqaz uğrundakı mübarizəsi və "mandat dövlət" yaratmaq təşəbbüsü uğursuzluqla nəticələndi. Göndərdikləri generallar əllərindən gələni etmələrinə baxmayaraq fəaliyyətləri səmərəli olmadı. Buna səbəb kimi həmin dövrün siyasi və hərbi vəziyyəti arzularını reallaşdırmağa heç bir halda imkan vermədi.

ƏDƏBİYYAT

1. Kieser Hans-Lukas, İskalanmış Barış, Doğu Vilayetleri`nde Misyonerlik, Etnik Kimlik və Devlet (1839-1939), tərcümə edən-Atilla Dirim, İstanbul: İletişim, 2010, 459 s.
2. Başak Tolga, İngiltere`nin Ermeni Politikası (1830-1923), İstanbul: İQ Kültür Sanat, 2008, 330 s.
3. Çağlayan Tuncer Kaya, "Dünya Savaşı Sonunda Enver Paşa`nın Kafkasya`daki Planları ve İngiltere", Ankara: Atatürk Araştırma Merkezi, 2014, 280 s.
4. Hobsbawm E., İmparatorluk Çağı (1875-1914), təcümə edən-Vedat Arslan, Ankara: Dost, 2013, 492 s.
5. Roberts J.M., Europe (1880-1945), London and New York: Longman 1989, p.340
6. Məmmədzadə Mirzə Bala, Milli Azərbaycan hərəkatı, Bakı: Gənclik 1992, 280 s.

7. Yusifzadə S.Z., Birinci Azərbaycan Respublikası: İngilis – Azərbaycan münasibətlərinin tarixi, hadisələr, faktlar, Bakı, Maarif, 1998, 270 s.
8. Yılmaz Reha, "Birinci Dünya müharibəsinin başlanğıcında Osmanlı dövlətinin Qafqaz siyasəti", Bakı: 2008. 457 s.
9. Kazımzadeh F., The Struggle For Transcaucasia 1917-1921, London:Anglo Caspian Press 2008, 360 s.
10. Денстервил Л., Британский империализм в Баку и Персии (1917-1918), Воспоминания, Пер. с англ. Б.Руденка, Тбилиси: Советский Кавказ 1925, с.281.

Məqalənin redaksiyaya daxilolma tarixi: 22.05.2024
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 29.05.2024
Məqalənin çapa qəbul olunma tarixi: 19.07.2024

DOI: doi.org/10.61226/12.2.2023/20242.11
UOT: 069
Səbinə BABAYEVA
Azərbaycan Turizm və Menecment Universiteti,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent əvəzi
sabina.babayeva@atmu.edu.az
https://orcid.org/0000-0003-1372-4852

Сабина БАБАЕВА

ИСТОРИЯ СОЗДАНИЯ И РАЗВИТИЯ ВЫСТАВОЧНОЙ ДЕЯТЕЛЬНОСТИ СОВРЕМЕННЫХ МУЗЕЕВ

Абстракт: Выставка занимает важное место в мире искусства. Посредством организации и проведения выставок культурно-исторического наследия музей решает важнейшие образовательно-просветительские и воспитательные функции. Дискурсы в историю и теорию искусства, кураторскую практику показывают значимость проведения музейных выставок для современного общества. Для всестороннего раскрытия истории развития выставок необходимо определиться с самим определением выставки. В научной среде и среди музейных практиков существуют множество определений выставки. Самое простое описание выставки – это показ предметов или изображений. Широко распространено мнение, что этот термин подразумевает, что то либо иное культурно-историческое произведение выставляется на обозрение публики в специально предназначенном для этой цели месте - музее или галерее.

Ключевые слова: выставка, музей, первые музеи, история выставок, WORLD EXPO, Арт-биеннале

Səbinə BABAYEVA

MÜASİR SƏRGİ FƏALİYYƏTİNİN YARANMASI VƏ İNKİŞAF TARİXİ

Xülasə: İncəsənət sahəsində sərgi mühüm yerlərdən birini tutur. Muzeylər mədəni-tarixi irslə bağlı sərgilərin təşkili və keçirilməsi ilə mühüm maarifləndirici və tərbiyəvi funksiyaları yerinə yetirir. Tarixən incəsənətlə bağlı nəzəriyyələr, həmçinin kuratorluq təcrübəsi muzey sərgilərinin keçirilməsinin müasir cəmiyyət üçün əhəmiyyətini göstərir. Sərgilərin inkişaf tarixinin hərtərəfli öyrənilməsi üçün ilk növbədə sərgi sözünün anlamını, etimologiyasını müəyyən etmək lazımdır. Belə ki, sərginin ən sadə təsviri, anlamı obyektlərin və ya əsərlərin nümayişidir. Geniş elmi ictimaiyyətdə və muzey təcrübəsində belə bir fikir də mövcuddur ki, sərgilər mədəni-tarixi əsərlərin xüsusi olaraq sərgiləmək məqsədilə müəyyən edilmiş yerdə - muzeydə və ya qalereyada insanlara nümayiş etdirilməsini nəzərdə tutur.

Açar sözlər: sərgi, muzey, ilk muzeylər, sərgilərin yaranma tarixi, WORLD EXPO, Art Biennales

Sabina BABAYEVA

HISTORY OF CREATION AND DEVELOPMENT OF EXHIBITION ACTIVITIES OF MODERN MUSEUMS

Abstract: The exhibition occupies an important place in the field of art. Museums perform important educational and educational functions by organizing and holding exhibitions related to cultural and historical heritage. Historical theories about art, as well as curatorial practice, show the importance of holding museum exhibitions for modern society. For a comprehensive study of the history of the development of exhibitions, first of all, it is necessary to determine the meaning and etymology of the word exhibition. So, the simplest description and meaning of the exhibition is the display of objects or works. There is also an opinion in the general scientific community and in the museum experience that exhibitions involve showing cultural-historical works to people in a place specifically determined for the purpose of exhibition - in a museum or gallery.

Keywords: exhibition, museum, first museums, history of exhibitions, WORLD EXPO, Art Biennales.

История выставок уходит корнями в глубокую древность. Еще в древности и в средние века обычным явлением были разнообразные ярмарки и рынки, на которых купцы и ремесленники демонстрировали свои товары и услуги. Торговцы путешествовали с места на место, встречаясь с клиентами и устанавливая деловые отношения.

Выставочная деятельность музеев берет своё начало со времени зарождения музеев. Первые музеи создавались на основе коллекций богатых людей, отдельных семей, учреждений искусства. Самым старым из существующих публичных музеев является музей Эннигальди-Нанны, создание которого датируется около 530 г. до н.э. и находился в древнем месопотамском городе Ур. В нем была собрана небольшая коллекция месопотамских древностей. Эннигальди-Нанна, являвшаяся жрицей лунного божества Сина и дочерью Нововавилонского царя Набонида, занималась упорядочением и маркировкой различных артефактов.

Первым прототипом современного музея являлся музей в древнеегипетском городе Александрии под названием Мусейон. Он был создан в 290 году до н.э. и состоял из большого количества различных комнат. Кроме того, там располагалась знаменитая Александрийская библиотека, которая не сохранилась до нашего времени.

Зарождение ряда современных музеев относится к историческому периоду между эпохой Возрождения и 18 веком. Одним из старейших публичных музеев являются Капитолийские музеи (Musei Capitolini). Музей создан на основе коллекций, переданных римским папой Сикстом IV жителям

Рима в 1471 году. Капитолийские музеи организовывают выставки предметов искусства средневековья и эпохи Возрождения, древнеримских статуй, коллекций монет и ювелирных изделий.

Следующим старейшим музеем в мире является Музеи Ватикана (Musei Vaticani), которые берут свое начало от выставленной на всеобщее обозрение коллекции скульптур, созданной в 1506 году Папой Юлием II. Музеи Ватикана -это группа музеев, расположенных внутри Ватикана, в которых представлены произведения из огромной коллекции, собранной Римско-католической церковью на протяжении веков, включая некоторые из самых известных классических скульптур и наиболее важные шедевры искусства эпохи Возрождения в мире. К старейшим музеям относятся: королевская оружейная палата в лондонском Тауэре (The Royal Armouries in the Tower of London) - старейший музей Великобритании, который был открыт для публики в 1660 году. Эшмоловский музей (The Ashmolean Museum), первые коллекции которого были подарены богатым антикваром Элиасом Эшмолом, открылся в 1683 году. Он является первым публичным музеем Великобритании и старейшим университетским музеем в мире. Кабинет Амербаха (The Amerbach Cabinet), первоначально находившийся в частной коллекции, был куплен университетом и городом Базелем в 1661 году и является первым публичным музеем в мире и открыт для публики с 1671 года. Музей изящных искусств и археологии в Безансоне (The Musée des Beaux-Arts et d'archéologie in Besançon) был основан в 1694 году после того, как аббат Жан-Батист Буасо передал свою личную коллекцию бенедиктинцам города, чтобы создать музей, открытый для публики два дня в неделю. Кунсткамера в Петербурге (The Kunstkamera in St. Petersburg) была основана в 1717 году в Кикином зале и официально открыта для публики в 1727 году в старом здании Петербургской Академии наук. Британский музей в Лондоне (The British Museum in London) был основан в 1753 году и открыт для публики в 1759 году. Личная коллекция артефактов сэра Ханса Слоана послужила первоначальной основой для коллекции Британского музея. Сегодня его коллекции, насчитывающие более семи миллионов предметов, являются одними из крупнейших и наиболее полных в мире и происходят со всех континентов, иллюстрируя и документируя историю культуры человечества от ее истоков до наших дней. Государственный Эрмитаж в Санкт-Петербурге был основан в 1764 году Екатериной Великой и открыт для публики с 1852 года. Музей Прадо в Мадриде был основан в 1785 году королём Испании Карлом III и впервые был открыт для публики в 1819 году. Музей Лувр в Париже, также бывший королевский дворец, открылся для публики в 1793 году [1].

С момента своего появления в 15 и 16 веках музеи демонстрировали свои коллекции ограниченному количеству посетителей, являющихся выходцами исключительно из знатного сословия. С 17 века музеи открываются для широкой публики и с этого времени одной из направлений деятельности музеев становятся выставки, выполнявшие множество

разнообразных функций - от демонстрации впечатляющего богатства мира, систематических описаний жизни исторических личностей, развития городов и стран, различных культурно-исторических событий, до сценического отражения эволюционного развития природы и человеческого общества. Проводились различные временные выставки, особенно регулярные показы преимущественно нового искусства в крупных городах. Парижский Салон Академии изящных искусств, находившийся под эгидой Французской королевской академии живописи и скульптуры, был самым известным из них, салонные выставки в котором начиная с 1667 года проводились раз в два года, а с 1737 года стал открытым для публики. К середине 18 века Салон и музеи в других странах превратились в один из основных источников для развития и поддержания репутация современных художников. С конца 18 века выставки, проводимые музеями ранее эпизодически, приобретают регулярный характер. Так, Летняя выставка Королевской академии в Лондоне стала проводится ежегодно с 1769 года, а с 1805 по 1867 год Британский институт проводил временные выставки, обычно два раза в год, на одной из которых представлены новые британские картины, а на другой - работы старых мастеров из Королевской коллекции и аристократические коллекции английских загородных домов.

Однако свою актуальность музейная выставка полностью обрела в XIX веке. Открытие французским революционным правительством для публики королевских коллекций произведений искусства во дворце Лувр в 1790-х годах, убежденность эпохи Просвещения в важности образования в наряду с требованием социального равенства и демонстрации политического (национального) превосходства посредством показа культурных артефактов обусловило создание значительного количества музеев в девятнадцатом веке. А это, в свою очередь, стало существенным фактом того, что уже к середине XIX века многие национальные музеи Европы стали проводить выставки своих собственных коллекций или коллекций, предоставленных во временное пользование, а также коллекций из обоих источников. Такая форма организации выставок восходит к «Хронологии временных выставок в Британском музее» к 1838 году является актуальной в настоящее время.

Значительное влияние на выставочную деятельность оказала промышленная революция XVIII-XIX веков. С развитием промышленности и техническим прогрессом появились первые промышленные выставки. Одним из наиболее заметных событий такого рода стала Великая выставка 1851 года в Лондоне. Она привлекла миллионы посетителей и продемонстрировала современные научно-технические достижения той эпохи. Популярность первой выставки была настолько неоспоримой, что такие же выставки, демонстрирующие технологическое развитие были организованы в нескольких европейских столицах и в ряде городов США.

Как правило, такие выставки приурочивались к юбилейным датам в истории той или иной страны либо нации. Так, Филадельфийская выставка 1876 г. проводилась в год столетия провозглашения американской

независимости. Филадельфия была выбрана, поскольку именно там была принята 4 июля 1776 г. знаменитая Декларация независимости. Выставка 1889 г. отмечала столетие Великой Французской революции, Колумбова выставка 1893 г. – пусть и с опозданием на год из-за организационных сложностей – четыреста лет открытия тропической Америки Х. Колумбом. Внедрение электричества, телеграфа, телефона, радио и телевидения оказало огромное влияние на развитие выставочной деятельности. Эти достижения позволили улучшить коммуникацию, продвижение продукции и создание привлекательных выставочных стендов.

Со временем выставки стали главным событием для демонстрации новых технологий и изобретений, а также для реализации архитектурных и технических достижений, таких как Эйфелева башня или движущиеся дорожки. В свою очередь, они стали идеальными площадками для национального брендинга, давая странам возможность продвигать свое искусство, культуру и инженерные достижения. Огромный интерес к организации и проведению такого рода выставок обусловил необходимость законодательного упорядочения этих событий. С этой целью в 1928 году в Париже состоялась международная конференция. На ней была принята Конвенция о международных выставках, которую подписали 31 страна. Она определила типы выставок, их продолжительность и частоту, установила нормативную процедуру для принимающих стран и стран-участниц, а также создала руководящий орган для применения Конвенции - Международное бюро выставок (Bureau International des Expositions). С этого времени упорядочилось проведение всемирных выставок (World Expo). Они стали четко организованными вокруг конкретной темы, направленной на повышение знания человечества, учет человеческих и социальных устремлений, демонстрацию научного, технологического, экономического и социального прогресса, а также культурно-историческое достояние организаторов и участников выставок. С момента проведения первой всемирной выставки в 1851 году в Лондоне до 2020 года состоялись 35 таких событий мирового уровня, а с 1933 года по настоящее время – 18 специализированных международных выставок. Так, в трети из проведенных всемирных выставок одна из тем посвящалась пропаганде культуры, искусства и образования.

Особый интерес представляют шесть всемирных выставок, состоявшихся в Париже во второй половине XIX века (1855, 1867, 1878, 1889 и 1890 годы) и в XX веке (1900 и 1937 годы). В частности, всемирная выставка, проведенная в Париже в 1855 году, посвящалась сельскому хозяйству, промышленности и изобразительному искусству (Agriculture, Industry and fine arts) привлекла представителей 28 стран и более пяти миллионов посетителей. Во дворце изящных искусств размещались салоны, галереи и частные коллекции из Австрии, Англии, Бельгии, Голландии, Испании, Сардинии, Пруссии, Швейцарии и Франции. Были выставлены сотни картин и скульптур известных художников и скульпторов, а также

культурно-исторические артефакты. Только Англией были представлены 232 картины, известных художников. Наряду с Францией и Бельгией, это была наиболее широко представленная страна в сфере искусства [2].

На всемирной выставке в Париже 1867 году изобразительное искусство было широко представлено предметами истории и культуры из музеев, выставленных в павильонах Англии, Баварии, Бельгии, Голландии, России, Швейцарии и других стран. А во всемирной выставке 1889 года в Париже, посвященной 100-летию французской буржуазной революции, были широко представлены всемирно известные шедевры живописи, скульптуры и гравюры века, представляющие собой обширный синтез истории искусства, обычаев, костюмов и политических событий целого периода. В одном только во французском павильоне были выставлены музейные и частные коллекции истории и культуры, содержащие около 650 картин, 350 рисунков, 200 скульптур и 400 гравюр [3].

Парижская выставка 1900 года, также известная как Paris Exposition Universelle или Paris Expo, была Всемирной выставкой, проходившей в Париже на рубеже веков. Это мероприятие стало пятой и самой необычной Всемирной выставкой, проводившейся в мире. Темой выставки была «19 век: обзор» (19th century: an overview). Для Всемирной выставки 1900 года французское правительство построило в центре Парижа два здания, демонстрирующих изящные искусства: Гран-Палас (the Grand Palais) и Петит-Палас (the Petit Palais). В них была представлена обширная панорама французского искусства от его зарождения до 1900 года. Помимо живописи и скульптуры, здесь было декоративное искусство, и в целом доминировала ретроспектива, посвященная произведениям, созданным за предыдущие годы. Наряду с французским искусством были представлены павильоны, в которых были выставлены предметы истории и культуры Австрии, Бельгии, Дании, Великобритании и других европейских стран, а также стран из Азии и Латинской Америки [4].

Всемирная выставка 1937 года в Париже была попыткой символически примирить искусство и промышленность. Она являлась средством пропаганды национальных достижений в области промышленности и сельского хозяйства с одной стороны и культуры и искусства с другой стороны. Каждая страна делала все возможное, чтобы показать миру превосходство политической, экономической и культурно-социальной системы, отражавшиеся в объектах, представленных в ее национальных павильонах.

В ряду всемирных выставок, посвященных прямо либо опосредованно пропаганде предметов культуры и искусства, были выставки, прошедшие в Вене (1873 год), Филадельфии (1876 год), Мельбурне (1880 год), Барселоне (1888 год), Брюссель (1910 год), а также выставки второй половины XX – начала XXI веков – Монреаль (1967 год), Осака (1970 год), Севилья (1992 год).

Таким образом, всемирные выставки, прошедшие во второй половине

XIX-начала XX веков демонстрировали технологический прогресс в области промышленности и сельского хозяйства того или иного общества. Посредством демонстрации культурно-исторических предметов страны-участницы этих событий пропагандировали прогресс в общественно-политическом и культурном развитии своих обществ. Многие из вышеупомянутых выставок проводились в высоко художественных зданиях, в которых вместе артефактами прошлого демонстрировались работы современных художников и скульпторов того времени.

В современную эпоху Всемирные выставки не имеют себе равных среди международных мероприятий по размеру, масштабу, продолжительности и количеству посетителей. Это крупномасштабные платформы, отражающие уровень прогресса в области инновационных технологий, образования и культуры, достигнутые человечеством. Таковы всемирные выставки, прошедшие в Ганновере (2000 год), Аичи (Япония, 2005 год), Шанхае (2010 год), Милане (2015 год) и Дубае (2020 год).

Следующая Всемирная выставка пройдет в Осаке, Кансай, Япония, с 13 апреля по 13 октября 2025 года под лозунгом «Проектирование будущего общества для нашей жизни» (“Designing Future Society for Our Lives”).

В 2023 году государства-члены BIE выбрали Саудовскую Аравию страной-организатором Всемирной выставки «Экспо-2030», которая будет организована в Эр-Рияде под лозунгом «Эра перемен: вместе ради дальновидного завтра» (“The Era of Change: Together for a Foresighted Tomorrow”) [5].

Вместе со всемирными выставками с конца 19 века стали проводиться регулярные выставки ведущих музеев мира. Однако, поистине международный характер пропаганда предметов культуры и искусства приобретает со времени проведения международные выставки. Одним из таких событий является Венецианская биеннале[1] (La Biennale di Venezia). Она стала первой международной художественной выставкой, созданной исключительно для демонстрации современного искусства для международной аудитории.

История Венецианской биеннале берет свое начало с 1895 года, когда была организована первая Международная художественная выставка и около 130 лет является одним из самых престижных культурных учреждений мира. За этот период зародились новые фестивали: Музыки, Кино и Театра (Венецианский кинофестиваль 1932 стал первым кинофестивалем в истории). В 1980 году состоялась первая Международная выставка архитектуры, а в 1999 году танец дебютировал на биеннале. Популярность этого события подчеркивает тот факт, что художественную выставку La Biennale в 2022 году посетила более 800 тысяч человек [6]. Ежегодно Венецианская биеннале проводит десятки выставок, посвященных различным направлениям культуры

[1] Биеннале (итал. Biennale-двухгодичный) – выставки произведений искусства и культуры, фестивали культурного назначения, проходящие раз в два года (авт.)

и искусства.

Сегодня существуют ряд международных арт-выставок, значимость которых такова, что они придают современному искусству оригинальность и ценность. Это - Маастрихт на юге Голландии проводится каждый март; Art Basel, который каждый июнь привлекает в Швейцарию коллекционеров, кураторов и дилеров; лондонская ярмарка искусств Frieze, проводимая каждый октябрь. Кроме этого, проводятся сотни других выставок, таких как Art Forum Berlin, Art Toronto, Showcase Singapore, Art Dubai и другие.

Современные международные художественные выставки, проводимые в наши дни, включают как традиционные формы искусства, такие как живопись и скульптура, так и новые формы, такие как перформанс и искусство инсталляции, а также новые виды искусства, такие как цифровые и веб-работы онлайн видеохудожников художников. Эти выставки состоялись в Тайпее (Тайвань, 2002год), Прага (2003 год), а также в Китае и Японии – Шанхай (1996 год), Этиго -Цумари (2000 год), Иокогама (2001 год), Гуанчжоу (2002 год) Пекин (2003 год) и других городах.

Примечательным событием в пропаганде культуры и искусства нашей страны стала IV Международная биеннале «Алюминий» - выставка современного искусства, проходившая с 11 по 18 декабря 2009 года во Дворце Ширваншахов и других художественных галереях Баку. Мероприятие собрало 60 мастеров современного искусства из 21 страны мира. Тридцать пять азербайджанских художников приняли участие в биеннале, которая предоставила беспрецедентную возможность увидеть огромное количество произведений современного искусства и отметить новые события в международном искусстве [7].

По данным независимой международной арт-организации “Biennial Foundation” по состоянию на июнь 2024 года в мире насчитывалось 294 арт-учреждений, проводящих на регулярной основе выставки в области культуры и искусства и охватывающих всех континенты мира [8].

Наряду с изложенным, все больше музеев наряду с активным участием в различных Art Biennales, начинают проводить свои собственные биеннале, первым из которых является первое осуществление проекта «Поколение: моложе Иисуса» в Новом музее современного искусства (Museum of Modern Art) в Нью-Йорке (18 апреля – 14 июня 2009 г.). Музей американского искусства Уитни (Whitney American Art Museum) начиная с 1937 года, музей перешел на ежегодные выставки под названием «Ежегодники» (Annuals). А с 1973 года музей организует каждые два года организует биеннале, активно пропагандируемая во всех средствах массовой информации. В ряду музейных биеннале можно отметить Красноярскую музейную биеннале, которая ведет свое начало с 1995 года. Она включает в себя ряд программ: экспозиционную, паблик арт, музейную, коммуникационную, образовательную, а также спецпроекты. В биеннале принимают участие российские и зарубежные художники/ Каждую выставку посещает около 200 тысяч человек [9]. Такие же мероприятия проводятся и другими ведущими музеями мира.

Современные достижения в области инновационных технологий оказали позитивное влияние на организацию и форму проведения современных выставок. Посредством Интернета и социальных сетей существенно упрощена коммуникация организаторов с участниками выставок. В связи с этим посетители более не являются пассивными участниками выставок. Они активно вовлечены в сам процесс прохождения данных событий, принимают участие в обсуждении различных аспектов выставок, выдвигают предложения по улучшению проводимых мероприятий. Наряду с физическим посещением этих событий, появилась возможность онлайн участия в них. Все это способствует дальнейшему развитию выставочной деятельности во всех областях человеческого бытия.

Предоставляя уникальное пространство для межкультурного сотрудничества, выставки служат преобразующим инструментом прогресса во всех сферах человеческой жизни и деятельности. За последние 170 лет формат и масштабы выставок развивались и адаптировались, отражая меняющиеся политические, экономические и социальные течения. Идя в ногу со временем с 1851 года, выставки являются связующим звеном между прошлым, настоящим и будущим, продвигая одни и те же ценности и цели объединения мира в пользу прогресса для всех.

ЛИТЕРАТУРА

1. The world’s oldest museum [İnternet resurs]. URL: https://museums.eu/highlight/details/105317/the-worlds-oldest-museums
2. World fairs. [İnternet resurs]. URL: https://en.worldfairs.info/ expolistepavillons.php?expo_id=23
3. World fairs. [İnternet resurs]. URL: https://en.worldfairs.info/ expopavillondetails.php? expo_id=6&pavillon _id=995
4. Paris Musees. [İnternet resurs]. URL: https://www.parismuseescollections.paris.fr/en/parcours-thematiques/ focus-on-paris-1900
5. Bureau International des Expositions. [İnternet resurs]. URL: https://www.bie-paris.org/site/en/expo-index/all-world-expos
6. La Biennale di Venezia. [İnternet resurs]. URL: https://www.labiennale.org/en/history
7. International Contemporary Art Biennale opens in Baku. [İnternet resurs]. URL: https://azertag.az/en/xeber/international_contemporary_art_biennale_opens_ in_baku-587321
8. Biennial Foundation. [İnternet resurs]. URL: https://www.biennialfoundation.org/network/biennial-map/
9. Красноярская музейная биеннале. [İnternet resurs]. URL: https://biennale.ru

Məqalənin redaksiyaya daxilolma tarixi: 01.07.2024
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.07.2024
Məqalənin çapa qəbul olunma tarixi: 22.07.2024

DOI: doi.org/10.61226/12.2.2023/20242.12
UOT 327:94
Firuzə RAŞOVA
Azərbaycan Turizm ve Menecment Universitesti,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, baş müəllim
f.rashova@atmu.edu.az
https://orcid.org/0000-0003-0756-7774

CƏNUBİ QAFQAZDA MULTİKULTURAL DƏYƏRLƏRİN İNKİŞAFI

Xülasə: Azərbaycan, Gürcüstan və Ermənistan kimi ölkələri özündə birləşdirən Cənubi Qafqaz regionu müxtəlif sosial strukturları arasında multikultural dəyərlərin becərilməsi sahəsində dinamik təkamül müşahidə edib. Məqalədə bu regionda multikulturalizmin inkişafının çoxşaxəli aspektlərini, tarixi mürəkkəblikləri, ictimai-siyasi keçidləri və müasir çağırışları araşdırır. Cənubi Qafqaz Avropa və Asiyanın kəsişməsində yerləşən strateji mövqeyə görə tarixən mədəniyyətlərin, dillərin və adət-ənənələrin qaynayıb-qarışdığı məkan olub. Bununla belə, tarixi münaqişələr, siyasi gərginliklər və ərazi mübahisələri mədəniyyətlərarası münasibətləri gərginləşdirərək, vahid multikultural etosun yetişməsinə mane olur. Son illərdə multikultural dəyərlərin ictimai birliyi və dinc yanaşı yaşayışı təşviq etmək vasitəsi kimi təbliğinə səylər göstərilmişdir. Tolerantlıq, müxtəlifliyin qiymətləndirilməsi və mədəniyyətlərarası dialoqu vurğulayan təhsil islahatları həyata keçirilib və bu islahatların məqsədi müxtəlif etnik qruplara və dinlərə hörməti erkən yaşlardan aşılamaqdır. Vətəndaş cəmiyyəti təşəbbüsləri, mədəni mübadilə proqramları və kütləvi hərəkatlar fikir ayrılıqlarının aradan qaldırılmasında və mədəniyyətlərarası anlaşmanın təşviqində mühüm rol oynamışdır. Bu təşəbbüslər mədəni müxtəlifliyin zənginliyini qeyd etməyə çalışır, eyni zamanda tarixi münaqişələr zamanı yararnan küskünlüklərə əsasən barışığı təşviq edir. Çətinliklər, o cümlədən həll olunmamış münaqişələr, sosial-iqtisadi qeyri-bərabərlik və siyasi qeyri-sabitlik multikultural dəyərlərin tam reallaşmasına maneələr yaratmaqda davam edir. Etnik qrupların hüquqları, inklüzivlik və dil siyasəti məsələləri mübahisəli olaraq qalır və aradan qaldırılması üçün hökumətlərin, institutların və icmaların davamlı səylərini tələb edir. Müxtəlif icmalar arasında dialoqun, empatiyanın və qarşılıqlı hörmətin vurğulanması regionda daha inklüziv və harmonik cəmiyyətə yol açа bilər.

Açar sözlər: Cənubi Qafqaz, multikultural dəyərlər, mədəni müxtəliflik.

Firuza RASHOVA
DEVELOPMENT MULTICULTURAL VALUES İN THE SOUTH CAUCASUS

Abstract: The South Caucasus region, which includes countries such as Azerbaijan, Georgia and Armenia, has seen a dynamic evolution in the cultivation of multicultural values between different social structures. The article examines the multifaceted aspects of the development of multiculturalism in this region, historical difficulties, socio-political transitions and modern challenges. The South

Caucasus has historically been a place of mixing cultures, languages and traditions due to its strategic position at the intersection of Europe and Asia. However, historical conflicts, political tensions and territorial disputes exacerbate intercultural relations, hindering the development of a single multicultural ethos. In recent years, efforts have been made to promote multicultural values as a means of promoting social unity and peaceful coexistence. Educational reforms emphasizing tolerance, diversity assessment and intercultural dialogue have been implemented to promote respect for different ethnic groups and religions from an early age. Civil society initiatives, cultural exchange programs and grassroots movements have been instrumental in bridging divides and promoting intercultural harmony. These initiatives seek to celebrate the richness of cultural diversity and also promote reconciliation based on grievances useful during historical conflicts. Difficulties, including unresolved conflicts, socioeconomic inequality, and political instability continue to create barriers to the full realization of multicultural values. Issues of ethnic rights, inclusiveness and language policy remain contentious and require continued efforts by governments, institutions and communities to address them. Emphasizing dialogue, empathy and mutual respect between different communities can lead to a more inclusive and harmonious society in the region.

Key words: South Caucasus, multicultural values, cultural diversity.

Фируза РАШОВА

РАЗВИТИЕ МУЛЬТИКУЛЬТУРНЫХ ЦЕННОСТЕЙ НА КАВКАЗЕ

Абстракт: Регион Южного Кавказа, включающий в себя такие страны, как Азербайджан, Грузия и Армения, наблюдал динамичную эволюцию в области культивирования мультикультурных ценностей между различными социальными структурами. В статье рассматриваются многогранные аспекты развития мультикультурализма в этом регионе, исторические сложности, общественно-политические переходы и современные вызовы. Южный Кавказ исторически был местом смешения культур, языков и традиций в силу своего стратегического положения на пересечении Европы и Азии. Однако исторические конфликты, политическая напряженность и территориальные споры обостряют межкультурные отношения, препятствуя развитию единого мультикультурного этоса. В последние годы предпринимаются усилия по продвижению мультикультурных ценностей как средства содействия общественному единству и мирному сосуществованию. Осуществлены образовательные реформы, подчеркивающие толерантность, оценку разнообразия и межкультурный диалог, целью которых является привитие уважения к различным этническим группам и религиям с раннего возраста. Инициативы гражданского общества, программы культурного обмена и массовые движения сыграли важную роль в устранении разногласий и содействии межкультурному согласию. Эти инициативы стремятся отметить богатство культурного разнообразия, а также способствуют примирению, исходя из обид во время исторических конфликтов. Трудности, в том числе

нерешенные конфликты, социально-экономическое неравенство и политическая нестабильность продолжают создавать препятствия для полной реализации мультикультурных ценностей. Вопросы прав этнических групп, инклюзивности и языковой политики остаются спорными и требуют постоянных усилий правительств, институтов и общин для их устранения. Подчеркивание диалога, эмпатии и взаимного уважения между различными сообществами может привести к более инклюзивному и гармоничному обществу в регионе.

Ключевые слова: Южный Кавказ, мльтикультурные ценности, культурное разнообразие.

Giriş

Qafqaz müxtəlif xalqların məskunlaşdığı unikal geosiyasi məkan hesab edilir. Bu region bütövlükdə qədim tarixi, orijinal mədəniyyəti, ənənələri və özünəməxsus mənəvi, fəlsəfi və dini dünyagörüşünə malik olduğunu nümayiş etdirir. Qafqaz xalqlarının qarşılıqlı mədəniyyət əlaqəsi tarixi ictimai-siyasi və sosial-iqtisadi əlaqələr əsasında inkişaf etmişdir. Qafqaz regionunda baş verən tarixi, siyasi və mədəni hadisələr çox vaxt qlobal miqyasda əhəmiyyət kəsb edir. Zəngin mədəni palitrası ilə seçilən Qafqaz bu gün birlikdə yaşayan və birgə mehriban qonşuluğun müsbət nəticələrini verən ümumi ənənələrə malik olan müxtəlif etnik qrupların və dinlərin bütöv bir dünyasını təmsil edir. Burada qədim zamanlardan multikulturalizmə təkcə tolerantlıq kimi deyil, həm də xalqların tam hüquqlu dostluğu kimi baxılır.

Qafqaz regionunda məskunlaşmış və yaşamaqda davam edən çoxsaylı xalqların keçmişi, mədəni və tarixi irsi var, onların hər biri qədim zamanlardan bu günə qədər öz inkişaf yolu var. Eyni zamanda, qafqazlılar antropologiya, arxeologiya, etnoqrafiya, epiqrafiya, dilçilik baxımından vahid ailədir. Qafqaz "ailəsi" onu digər dünya icmalarından fərqləndirən və unikal edən bir çox ümumi xüsusiyyətlərə malikdir.

Tarixi şəraitlə müəyyən edilmiş xalqlar arasındakı dostluq əlaqələri Qafqaz regionunu etnomozaikliyi ilə seçilməsi səbəb olmuşdur. Etnik qruplar arasında daimi və uzunmüddətli qarşılıqlı əlaqə tarixi və mədəni bölgə formatında böyük ölçüdə vahid və ayrılmaz olan mədəni birliyin formalaşmasına kömək etdi.

Təbii-coğrafi, ictimai və sosial şərait mədəni mənimsənilmələrə, daimi etnik miqrasiyalara, çoxdilliliyin yaranmasına gətirib çıxartmışdır.

Tarixən müxtəlif həyat şəraitinə və inkişaf templərinə malik olan Qafqaz xalqları birləşdirən dəyərlər mövcuddur. Bəziləri əvvəllər, digərləri daha sonra tarixi, mədəni, siyasi və iqtisadi inkişafın oxşar mərhələlərini keçib, bir-birlərinin təcrübələrini və nailiyyətlərini mənimsəmiş və ya assimilyasiya etmiş.

XX əsrin sonunda dünyanın siyasi xəritəsində baş verən əsaslı dəyişikliklər, bir çox dövlətlərin milli müstəqillik əldə etməsi Qafqaz xalqlarının tarixi-mədəni irsinin obyektiv şəkildə "təcrid olunmasına" səbəb olmuşdur.

Müasir ictimai-siyasi kontekstdə Qafqaz xalqlarının özünəməxsus sabit ənənələri, regionda qədim köklərə malik olan mənəvi, fəlsəfi və dini dünyagörüşü, tarixi tolerantlığı və rəngarəngliyi daha da diqqət çəkmişdir.

Qafqaz öz iqtisadi və mədəni tipini dəyişməmiş, özünəməxsusluğunu itirməmişdir. Qafqaz xalqlarının mədəniyyətinin yerli etnik dəyərlərdən fərqləndirən mentaliteti və mənəvi tərəfdən mənimsənilməsinin qarşısını alan səbəb mədəni ənənələrin sabitliyində gizlənir. Qədim dövrlərdən bu günə qədər Qafqaz bütün dünyaya açıq, yüksək tolerantlıq mühitinin üstünlük təşkil etdiyi region kimi tanınır.

Qloballaşan dünyanın reallığı göstərir ki, mədəniyyətlərarası dialoq ciddi mədəni çərçivədən çıxıb və böyük siyasət məsələsinə çevrilib. Müxtəlif ölkələrin vətəndaşları eyni zamanda ümumi məkanın - bəşəriyyətin üzvləridir. Bu gün Avropa siyasətçiləri və ideoloqları tərəfindən qeyd olunan multikulturalizmin iflasa uğraması və hətta süqutu bu ideyanın konkret olaraq Qafqazda həyata keçirilməsində müasir müsbət tendensiyalar tərəfindən təkzib olunur. [5, s.427]

Əsrlər boyu Azərbaycanda etnomədəni rəngarəngliyi ilə fərqlənən dinlər və xalqlar arasında münasibətlər birgəyaşayış prinsipləri əsasında formalaşmışdır. Azərbaycanda multikulturalizm dövlət siyasətinin tərkib hissəsi olmaqla eyni zamanda da azərbaycanlıların həyat tərzinə çevrilmişdir. Azərbaycan birgəyaşayış modelinin ən uğurlu nümunələrindən biridir. Azərbaycan Resöublikasının Konstitusiyasında da "Azərbaycan xalqı" dedikdə, dini, etnik və sosial mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquq bərabərliyi, dini azadlığı və dostluq münasibətlər nəzərdə tutulur. Burda yaşayan xalqlar dövlətimiz həyata keçirtdiyi siyasəti nəticəsində öz mədəni müxtəlifliklərini, adət-ənənələrini, yaşam tərzlərini və inanclarını qoruyub saxlaya biliblər. Xalqlar və dinlər arası baş verən mədəniyyət mübadiləsi nəticəsində ümumazırbaycan mədəniyyətinə böyük tövhələrini vermişlər. [1, s.5]

44 günlük müharibə ərzsində Azərbaycan Milli Ordusunun sıralarında müxtəlif xalqların nümayəndələri xidmət etmiş və dövlətimizin müdafiəsinə qalxmışlar. Şuşa azad olduqdan sonra canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinə "Azərbaycan musiqisində multikulturalizm" mövzusunda "Xarı bülbül" musiqi festivalı həsr edimişdir. Azərbaycanda yaşayan müxtəlif xalqların ifaçıları və musiqi qrupları bu festivalda iştirak edərək qardaşlıq mesajını bütün dünayaya vermişlər.

Multikultural dəyərlərin qorunmasını təmin edən Azərbaycan günü-gündən inkişaf etməkdədir. Azərbaycan regionu multikultursl dəyərlərin qorunub inkişaf etdirilməsi görə ən sabit və lider ölkə kimi tanınır. Azərbaycan multikulturalizm modelinin dayanıqlı inkişafda olmasının əsas səbəbi isə onun tarixi təcrübəyə söykənməsi, bu siyasətin qısa vaxt ərzində həyat tərzinə çevrilməsidir. Azərbaycan modeli etnomədəni rəngarəngliyin sosial-mədəni və hüquqi müstəvidə təminatı üçün müxtəlif etnik mədəniyyətlərin dirçəldilməsini, qorunmasını və inkişafını dəstəkləmiş, dini-etnik icmaların Azərbaycan cəmiyyətinə fəal inteqrasiya olunması üçün əlverişli şərait yaratmış, mədəni plüralizmi yeni mərhələyə yüksəldə bilmişdir. Fərqli dinlərin, etnik mədəniyyətlərin qovuşduğu coğrafi məkanda

yerləşən Azərbaycanın zəngin mədəni-mənəvi irsə multikulturalizm və tolerantlıq ənənələrinə malik olan ölkədir.

Azərbaycanda məskunlaşan hər bir xalq öz etnik xüsusiyyətini saxlamaqla Azərbaycan dilində və həm də, özünün etnik dilində danışır, ümummilli və etnik bayramları qeyd edirlər, öz mədəni mərkəzlərini, assosiasiyalarını və digər qurumlarını yaradırlar, öz dillərində müxtəlif qəzetlər və materiallar dərc edirlər, radio və televiziya proqramları yayımlayırlar, orta məktəbdə Azərbaycan və öz dillərində dərs keçirlər, öz ölkəsinin tarixini və millətinin tarixini öyrənirlər. Azsaylı xalqların və milli azlıqların qorunması, maddi və mənəvi mədəniyyətlərin öyrənilməsi məqsədilə, respublikamızda mədəniyyət mərkəzləri yaradılmışdır.

Azərbaycan Respublikasının qanunları dinindən, milliyyətindən, mənşəyindən və dilindən asılı olmayaraq hamını eyni hüquq və azadlıqla təmin edir. Buna sübut kimi Azərbaycan Respublikasının Konstitusiyasında qəbul olunmuş qərarları misal göstərmək olar.

Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsində deyilir ki, Dövlət irqindən, milliyyətindən, dilindən, dinindən və mənşəyindən asılı olmayaraq hər kəsin bərabərliyinə təminat verir. Vətəndaş hüquqlarını və azadlıqlarını milli, dil, dini, irqi, əqidə, mənşəyi, siyasi və digər mənsubiyyətə görə məhdudiyyət qoymaq qadağandır. [2]

Azərbaycan yeganə ölkədir ki, burada dini və etnik ədavət, sayından asılı olmayaraq, dini azlıqlarla münasibətdə ayrı-seçkilik qoymur və bu rəngarənglik baxımından palitranı xatırladır. Onlar bir Azərbaycan ailəsidir. Dövlətimiz onların hər birinə ayrı-ayrılıqda eyni qayğı bəsləyir, azsaylı xalqların mətbəxini, adət-ənənəsini, folklorunu əhatə edən filmlər və verilişləri dünya dillərinə tərcümə etdirərək Avropa tamaşaçılarına təqdim edir, özlərinə xas adət-ənənələri, mədəni örnəkləri qoruyub saxlayır.

Azərbaycanda məskunlaşan etnik qrupların və müxtəlif xalqların nümayəndələrini bu gün Azərbaycanın hər bir sahəsində - iqtisadiyyatda, idmanda, siyasətdə, mədəniyyətdə və digər sahələrdə görmək mümkündür.

Multikulturalizm siyasəti Azərbaycançılıq ideologiyasının tərkib hissəsidir və bu ideologiyanın yayılmasını təmin edən eyni zamanda da onu möhkəmlədən mexanizmdir. Azərbaycanda yaşayan milli azlıqların və müxtəlif xalqların nümayəndələrinin etnik-mədəni dəyərlərini, adət-ənənələrini qorumaqla multikulturalizm siyasəti Azərbaycançılığın sosial bazasını möhkəmlədir və onun ölkədə yaşayan bütün etnik qrupların və xalqların ideologiyasına çevirir. Azərbaycan xalqının iqtisadi, siyasi, mədəni və sosial yüksəlişini təmin etməkdə Azərbaycançılıq ideologiyası multikulturalizm siyasətindən önəmli bir üsul kimi istifadə edir.

NƏTİCƏ

Azərbaycan xalqlarının dillərini, maddi-mədəni və qeyri-maddi irslərinin qorunub inkişaf etdirilməsi, dini etiqadları üçün heç bir məhdudiyyətin qoyulmaması, əksinə müsəlman ölkəsində kilsə və sinaqoqların tikintisi və bərpası üçün dövlət tərəfindən hərtərəfli dəstəyin verilməsi bu gün dünyanın bir sıra ölkələrində örnək olaraq göstərilməkdədir.

Bütün bunlar bir daha göstərir ki, multikulturalizm bu gün Azərbaycanda gedən demokratik proseslərin ayrılmaz tərkib hissəsidir. Azərbaycanda müxtəlif xalqların nümayəndələri, fərqli dinlərin daşıyıcıları qarşılıqlı hörmət və anlaşma şəraitində birgə yaşayır, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər.

Beləliklə, Azərbaycan multikulturalizm modelinin hüquqi və siyasi qaynaqların formalaşması qədim tarixə malikdir. Azərbaycan multikulturalizminin siyasi qaynaqları bu ərazidə yaranan ilk tayfa birliklərində özünü göstərirdi. Lakin hüquqi qaynaqlar isə tarixin sonraki proseslərində formalaşır. Azərbaycan multikulturalizminin siyasi və hüquqi qaynaqları ölkədə insanların davranışlarını tolerantlığa, multikulturalizmə əsaslandıraraq, cəmiyyətdəki mültikulturalizm ənənələrini inkişaf etdirərək bu mühiti möhkəmlədir.

ƏDƏBİYYAT

1. Axundova N. Multikulturalizm Azərbaycan xalqının mədəniyyətinin cövhəridir: [Zaqatalada keçirilən "Azərbaycan folkloru və mədəni müxtəliflik" mövzusunda Beynəlxalq elmi-praktik konfransda Türkiyə, Çexiya və İrandan olan mütəxəssislər də iştirak ediblər] /Nərgiz Axundova //Azərbaycan.- 2016. - 20 may. - S.7.
2. Akademik Kamal Abdullayevin 18 noyabr 2015-ci il tarixində Stokholm şəhərində "Multikulturalizm və dinlərarası tolerantlıq: Azərbaycanın təcrübəsi və onun Avropa üçün əhəmiyyəti" mövzusunda keçirilən konfransda çıxışı.
3. Aslanova R. Qloballaşma və mədəni müxtəliflik /Rəbiyyət Aslanova.- Bakı: Elm, 2004.- 264 s.
4. Beynəlxalq mədəni əlaqələr : dərslik / M. Manafova [et al.] ; elmi red. V. İ. Məmmədova; red.: M. C. Manafova, N. T. Əfəndiyeva. - Bakı: Sabah, 2008. - 655 s.;
5. Əhədova S. Mədəniyyətlərin qarşılıqlı əlaqələrində YUNESKO-nun rolu /Sevda Əhədova; red. N. Cəfərov. - Bakı: Beynəlxalq kitab, 2014.- 78 s.
6. Əhədova S. Müasir dünyada mədəniyyətlərarası münasibətlər: monoqrafiya /Sevda Əhədova; elmi məsl. A.Mustafayeva; elmi red. və ön söz. müəl. İ.Hüseynov.- Bakı: Elm, 2014.- 347 s.
7. Əliyeva S. S., "Mədəniyyətin tarixi və nəzəriyyəsi" dərslik, 2010, Bakı
8. Быстрова А.Н. Мир культуры (Основы культурологии). М.: Изд-во Федора Конюхова; Новосибирск: ЮКЭА, 2002. 712 с.
9. Дадашева, С. Культурология как методологическая основа культурной политики. Mədəniyyət dünyası. Bakı, VII bur., 2003, s.99-103
10. Мамедалиева, С. Культура в эпоху глобализации: Философские аспекты /Севда Мамедалиева; ред. Ф.Кочарли. - Баку: Сада, 2004. - 234 с.
11. Хантингтон С. «Столкновение цивилизаций»; Пер. с англ. Т. Велимеева. Ю. Новикова. — М: ООО «Издательство АСТ», 2003. — 603, [5] с. — (Philosophy).

Məqalənin redaksiyaya daxilolma tarixi: 27.06.2024
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 15.07.2024
Məqalənin çapa qəbul olunma tarixi: 18.07.2024

DOI: doi.org/10.61226/12.2.2023/20242.13
UOT: 7.03
Kəmalə MUSTAFAYEVA
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, doktorant
kamalamustafazadeh@gmail.com
https://orcid.org/0009-0001-4166-8838

BAYRAM HACIZADƏNİN BEYNƏLXALQ KARİKATURA MÜSABİQƏLƏRİNDƏ VƏ SƏRGİLƏRDƏ UĞURLARI

Xülasə: Məqalədə karikaturaçı rəssam Bayram Hacızadənin beynəlxalq karikatura müsabiqələrində, festival və biennalilərdə qazandığı uğurları, mükafatları, karikaturaçı rəssamların Bayram Hacızadə haqqında fikirləri yer almışdır. Beynəlxalq aləmdə və respublikada baş verən ictimai-siyasi hadisələri, gündəlik həyatın ümumi mənzərəsini öz yaradıcılığında əhatəli və çoxşaxəli şəkildə təsvir edən karikaturaçı rəssamın əsərləri bütün dövrlərdə özünün mövzu müxtəlifliyi, bədii təsvir vasitələrinin rəngarəngliyi, aktuallığı və müasirliyi ilə seçilmişdir. Rəssamın ölkəmizdə və xaricdə təşkil olunmuş sərgilərdə nümayiş olunmuş karikaturalarının mövzu müxtəlifliyindən, onun yaradıcılığında beynəlxalq aləmdə baş verən qloballaşma, ekologiya, terrorizm, işğal və gündəlik həyat hadisələrinin satirik təcəssümündən bəhs edilir. Ölkənin və cəmiyyətin yaşadığı siyasi böhran, torpaqlarımızın işğalı, sosial, iqtisadi və mədəni problemlər B.Hacızadənin yaratdığı əsərlərin mövzu və forma biçiminə təsir etmiş, yaradıcılığının ümumi inkişaf istiqamətini və bədii təzahür formalarını müəyyənləşdirmişdir. Yeni ifadə tərzi, yeni formalar axtarışında olan karikaturaçı rəssam milli dəyərlərə, milli kökə istinad edərək yaratdığı əsərlər müasir dövrümüzün ictimai-siyasi və mədəni mənzərəsini əks etdirən aynasıdır. Rəssamın qrafikasına xas olan konturların plastik həlli, formaların incəliklə işlənməsi, ştrixləmə vasitəsi ilə maraqlı işıq-kölgə effektinə nail olunması karikaturalarının özünəməxsus cəhəti kimi üzə çıxaraq, təqdim olunan əsərləri baxımlı edir. Bayram Hacızadənin beynəlxalq karikatura təşkilatları ilə əməkdaşlığı, eləcə də ictimai fəaliyyəti, yaradıcılığında çeşidli problemlərin işıqlandırılması istiqamətində səmərəli addımları qeyd olunur. Məqalədə, rəssamın çoxşaxəli yaradıcılığı, fəaliyyətinin müxtəlif dövrlərində işləyib hazırladığı müxtəlif mövzulu karikaturaları və satirik rəsmləri təhlil edilir.

Açar sözlər: karikatura, müsabiqə, sərgi, beynəlxalq, tənqid, qrotesk, yaradıcılıq, rəssam

Kamala MUSTAFAYEVA

BAYRAM HAJIZADE'S SUCCESSES IN INTERNATIONAL CARTOON COMPETITIONS AND EXHIBITIONS

Abstract: The article contains the achievements and awards of cartoonist Bayram Hajizade in international caricature competitions, festivals and biennials, and the opinions of cartoonists about Bayram Hajizade. The works of the caricaturist, who depicts the social and political events in the international world and the republic, the general picture of everyday life in his creativity in a comprehensive and multifaceted manner, have been selected for the variety of topics, the variety, relevance and modernity of the means of artistic representation in all periods. The artist's caricatures presented in exhibitions organized in our country and abroad are discussed about the variety of topics, the satirical embodiment of globalization, ecology, terrorism, occupation and everyday life events in his work. The political crisis experienced by the country and society, the occupation of our lands, social, economic and cultural problems affected the subject and form of the works created by B. Hajizade, and determined the general development direction of his creativity and the forms of artistic expression. The caricaturist, who is in search of a new way of expression, new forms, referring to national values and national roots, creates works that reflect the socio-political and cultural landscape of our modern era. The plastic solution of contours typical of the artist's graphics, the delicate processing of forms, and the achievement of an interesting light-shadow effect by hatching are revealed as a unique aspect of his caricatures, making the presented works attractive. Bayram Hajizade's cooperation with international caricature organizations, as well as his public activities and effective steps towards the illumination of various problems in his creativity, are noted. In the article, the multifaceted creativity of the artist, his caricatures and satirical paintings with different themes developed in different periods of his activity are analyzed.

Keywords: caricature, competition, exhibition, international, criticism, grotesque, creativity, artist

Камала МУСТАФАЕВА

УСПЕХИ БАЙРАМА ГАДЖИЗАДЕ НА МЕЖДУНАРОДНЫХ КОНКУРСАХ И ВЫСТАВКАХ МУЛЬТФИЛЬМОВ

Абстракт: В статье приведены достижения и награды художника-карикатуриста Байрама Гаджизаде на международных конкурсах карикатуры, фестивалях и биеннале, а также мнения художников-карикатуристов о Байраме Гаджизаде. Произведения карикатуриста, комплексно и многогранно изображающие в своем творчестве общественно-политические события в международном мире и республике, общую картину повседневной жизни, отобраны за многообразие тем, разнообразие, актуальность и современность

средств художественного изображения во все периоды. Карикатуры художника, представленные на выставках, организуемых в нашей стране и за рубежом, обсуждают разнообразие тем, сатирическое воплощение в его творчестве глобализации, экологии, терроризма, оккупации и событий повседневной жизни. Политический кризис, переживаемый страной и обществом, оккупация наших земель, социальные, экономические и культурные проблемы повлияли на тематику и форму произведений, созданных Б.Гаджизаде, определили общее направление развития его творчества и формы художественного творчества. выражение. Карикатурист, находящийся в поисках нового способа выражения, новых форм, обращаясь к национальным ценностям и национальным корням, создает произведения, отражающие социально-политический и культурный ландшафт нашей современной эпохи. Свойственное графике художника пластическое решение контуров, тонкая обработка форм, достижение интересного светотеневого эффекта штриховкой раскрываются как уникальная сторона его карикатур, делающая представленные произведения привлекательными. Отмечается сотрудничество Байрама Гаджизаде с международными карикатурными организациями, а также его общественная деятельность и эффективные шаги по освещению различных проблем в его творчестве. В статье анализируется многогранное творчество художника, его карикатуры и сатирические картины различной тематики, разработанные в разные периоды его деятельности.

Ключевые слова: карикатура, конкурс, выставка, международный, критика, гротеск, творчество, художник.

Giriş. Azərbaycan təsviri sənətinin ayrılmaz tərkib hissəsi olan karikatura janrının cəmiyyətdə tanınması və inkişafı istiqamətində əvəzsiz xidmətlər göstərmiş rəssamlarımız müstəqillik dövrünün ilk illərindən ölkəmizi beynəlxalq sərgilərdə, müsabiqələrdə, mötəbər tədbirlərdə layiqincə təmsil etmişlər. Seçdikləri peşəyə, xidmət etdikləri sənətə sevgi ilə yanaşan karikaturaçı rəssamlarımızın beynəlxalq aləmdə, eləcə də ölkənin ictimai-siyasi və mədəni həyatında baş verən hadisələri özündə əks etdirən əsərləri mövzu aktuallığı, yüksək bədii səviyyəsi ilə seçilir, müasir yanaşma tərzi və orijinal rəssam tapıntısı ilə diqqət çəkir.

Mətn. "XX əsrin səksəninci illərində yaranmış nisbi yaradıcı azadlıqdan bəhrələnmiş rəssamlar sırasında Bayram Hacızadənin adı bugünkü zaman distansiyasından aydın görünməkdədir. Bir qərinəni əhatə edən Bayram Hacızadə yaradıcılığında çoxsaylı mövzuların səmimi, tamaşaçısını tam inandıra biləcək bədii-satirik yozumunu görmək olar. Bu, rəssamın sənətə gəlişində və sahə seçimində yaradıcı insan kimi gələcəkdə rastlaşa biləcəyi çətinliklərə hazır olduğunu və öz işinə əminliyini bir daha sübut edir" [5, s. 3].

Əməkdar incəsənət xadimi, sənətşünas alim Ziyadxan Əliyevin öz həmkarı haqqında söylədiyi bu fikirlər dəqiq və obyektivdir. Həqiqətən də Bayram Hacızadə keçən əsrin 80-ci illərindən, Sovet senzurasının mövcud olduğu mürəkkəb siyasi şəraitdə özünün siyasi və məişət mövzulu karikaturaları, eləcə də təbliğat və təşviqat xarakterli rəsmləri ilə dövri mətbuat səhifələrində çıxış etməyə başlamışdır.

Müəllifi olduğu əsərlərdə rəssam, bəşəri, ekoloji və sosial problemləri işıqlandırmış, ölkədə mövcud olan əyintilərə və eybəcərliklərə qarşı çıxaraq, bu nöqsanları gündəmə gətirmiş, irticaçı ideologiya, təcavüzkar siyasət, cəmiyyətin inkişafına mane olan ünsürləri tənqid atəşinə tutaraq ifşa etmişdir.

Müstəqililk dövründə yeni inkişaf mərhələsinə qədəm qoymuş Azərbaycan satirik qrafikasının tədqiqi, bu sahədə uğurla fəaliyyət göstərən B.Hacızadə yaradıcılığının araşdırılması, faktiki materialların təhlili onu deməyə əsas verir ki, bu illər rəssamın müasir, eyni zamanda milli-mənəvi köklərə bağlı olan yeni ruhlu əsərləri ilə yadda qalmışdır. Karikaturaçı rəssam B.Hacızadənin müxtəlif mövzuları əhatə edən, özündə sarkazm, tənə və ironiya daşıyan əsərlərində məzmunun ideyası milli maraqlar baxımından işlənmiş, süjetin seçimində daha çox mətnaltı mənanın ifadəliyinə üstünlük verilmişdir ki, bu da satiranın kəskinləşməsi, istehzanın mahiyyətinin dərinləşməsi ilə müşayiət olunurdu. Tədqiq etdiyimiz bu dövrdə dünya rəssamlarının, eləcə də B.Hacızadənin yaradıcılığında əsas yerlərdən birini tutan "beynəlxalq dil"də danışan yeni ruhlu karikaturaların, müasir məzmunlu rəsmlərin çoxluq təşkil etdiyinin şahidi oluruq. Bəzən "sözsüz" karikatura adlandırdığımız bu rəsmlər karikaturaçılarımızın beynəlxalq sərgi və müsabiqələrdə iştirakını asanlaşdırır, onlara özlərini ifadə üçün yeni yaradıcılıq imkanları açır desək, həqiqəti söyləmiş olarıq. Bu karikaturalarda süjet aydın və anlaşıqlı tərzdə təqdim edildiyindən əlavə şərhə ehtiyac duyulmur. Müəllifdən yüksək peşəkarlıq və xüsusi hazırlıq tələb edən bu rəsmlərdə tənqid hədəfini süjet xəttində göstərilən vizual təsvirdə yox, onun əsasında çıxarılan məntiqi nəticədə axtarmaq lazımdır. Bu isə öz növbəsində rəssamın qarşısına orijinal və lokal ifadə vasitələrindən maksimum istifadə etməklə, bir vizual təsvirlə iki və daha artıq mətnaltı mənanın ifadəsinə nail olmaq, tamaşaçıya daha artıq informasiya ötürmək və s. bu kimi vəzifələr qoyur. Bu vəzifələrin öhdəsindən layiqincə gələn, tamaşaçını özünün müasir məzmunlu əsərləri ilə düşündürən B.Hacızadənin yaradıcılığı və bu sahədəki fəaliyyəti diqqətəlayiqdir. Daim yenilik axtarışında olan rəssamın müasir dövrlə səsləşən, yüksək bədii səviyyəsi ilə seçilən, "beynəlxalq dil"də danışan əsərləri bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır.

Müstəqillik dövrünün ilk illərindən beynəlxalq karikatura müsabiqələrində və sərgilərində özünün "beynəlxalq dil"də danışan "sözsüz" karikaturaları ilə uğurla iştirak edən B.Hacızadənin əsərləri ABŞ, Almaniya, Belçika, Bolqarıstan, Çin, Efiopiya, Fransa, Hindistan, İran, İsrail, İtaliya, Kipr, Koreya, Kuba, Polşa, Rumıniya, Rusiya, Serbiya, Suriya, Türkiyə, Ukrayna, Yunanıstan və digər ölkələrdə qızıl, gümüş və bürünc medallara, yarışmanın xüsusi mükafatı və diplomlarına layiq görülmüşdür. Beynəlxalq karikatura müsabiqələri və festivallarında otuzdan artıq mükafat qazanmış B.Hacızadənin yüzdən artıq əsəri müxtəlif kataloqlarda, albom və kitablarda dərc olunmuşdur [5, s. 4; 16; 10, s. 308; 11, s. 328]. Tanınmış karikaturaçı rəssam B.Hacızadənin 2005-ci ildə Çində təşkil olunmuş "Lenq-Mu" beynəlxalq karikatura müsabiqəsində qızıl medala, İsraildə keçirilən XI beynəlxalq karikatura müsabiqəsində xüsusi mükafata, 2007-ci ildə Kubada, beynəlxalq yumor və qrafika biennalesində I yerə və yarışmanın "Siyasi karikatura" nominasiyasında xüsusi mükafata, ABŞ-da "Tamaşaçı rəğbəti"

nominasiyası üzrə xüsusi mükafata, Kiprdə, "Pulya" beynəlxalq karikatura müsabiqəsində xüsusi mükafata, İsraildə, "Hayfa" beynəlxalq karikatura müsabiqəsində "Ən orijinal karikatura" nominasiyasında xüsusi mükafata, Türkiyədə, "Yılmaz Güney" mədəniyyət və incəsənət festivalında münsiflər heyyətinin xüsusi mükafatına, 2009-cu ildə ABŞ-da, beynəlxalq siyasi karikatura müsabiqəsində I yerə və yarışmanın xüsusi mükafatına, Polşada, "Jake-bede" beynəlxalq karikatura müsabiqəsində bürünc medala, Bolqarıstanda, "Kavarna" beynəlxalq karikatura müsabiqəsində xüsusi mükafata, 2010-cu ildə, İranda IX beynəlxalq karikatura müsabiqəsində xüsusi mükafata, 2011-ci ildə Hindistan, Rusiya, Yunanıstan, Ukrayna və İranda keçirilən beynəlxalq karikatura müsabiqələrində yarışmanın xüsusi mükafatlarına, 2014-cü ildə Suriyada beynəlxalq karikatura müsabiqəsində qızıl medala və yarışmanın "Uğur" xüsusi mükafatına, eləcə də 2018-2019-cu illərdə Çində, Çexiyada, Suriyada və Kiprdə keçirilən beynəlxalq karikatura müsabiqələrində xüsusi mükafatlara və fəxri diplomlara layiq görülmüşdür [16; 9, s. 12; 2, s. 17].

B.Hacızadənin beynəlxalq müsabiqələrdə qazandığı uğurlar haqqında Azərbaycan Rəssamlar İttifaqının katibi, xalq rəssamı Ağaəli İbrahimov yazır: "ABŞ-da təşkil olunan "Davenport" beynəlxalq karikatura müsabiqəsində B.Hacızadənin yarışmanın qızıl və eyni zamanda bürünc medallarını qazanması, Kubada keçirilən beynəlxalq yumor və qrafika biennalesində I yerə və müsabiqənin "Siyasi karikatura" nominasiyasında xüsusi mükafata layiq görülməsi, Çində keçirilən, 80 ölkədən minlərlə rəssamın qatıldığı "Lenq-Mu" beynəlxalq karikatura müsabiqəsində II və III yerə, eləcə də Suriyada təşkil olunmuş beynəlxalq müsabiqədə qızıl medala və "Uğur" mükafatına layiq görülməsi, əlbəttə ki, bir yaradıcı insan kimi B.Hacızadənin uğurudur. Bu hadisə eyni zamanda müasir Azərbaycan karikaturasının ölkəmizdə inkişafını, beynəlxalq aləmdə tanınması və təbliğini sübut edən mühim amil kimi qəbul edilməlidir" [15; 9, s. 12].

B.Hacızadənin əsərlərinin təhlili onu deməyə əsas verir ki, rəssamın yaradıcılığını səciyyələndirən xüsusiyyətlərindən biri də onun əsərlərinin mənəvi-psixoloji tutuma, eyni zamanda beynəlmiləlçi bədii-ruha malik olmasıdır. Müraciət etdiyi və təsvirə gətirdiyi ən müxtəlif mövzuların aktuallığına və müasir bədii həllinə görə hər bir ölkədə mətnsiz və izahatsız anlaşılması da onun əsərlərinin məkansız və zamansız olmasını sübut edir. 2009-cu ildə ABŞ-da təşkil olunmuş, dünyanın ən mötəbər yarışmalarından biri olan "Davenport" beynəlxalq karikatura müsabiqəsində B.Hacızadənin qızıl medala layiq görülmüş əsəri də özünün mənəvi-psixoloji tutumuna görə diqqət çəkir. Bu karikaturada həyatın haqsızlıqlarından, insanların riyakarlığından, bəlkə də səfalətdən və ya xəyanətindən zara gəlmiş bir insanın intihar səhnəsini görmək olar. Burada müxtəlif, boğazına kəndir keçirib özünü asmağa hazır olan insanın ayağının altında stul və ya hər hansı bir əşya əvəzinə onun sədaqətli dostunu − onun itini təsvir etmişdir. Rəsmdən aydın olur ki, dünyadan artıq bezmiş bu insanı sözün hər mənasında həyata bağlayan yeganə varlıq − ancaq onun itidir. Ömrünün son anında, bəlkə də müəyyən tərəddüdlərinə son qoymaq məqsədi ilə öz yegənə dostunu

yoxlamaq qərarına gələn bu insan, əlindəki sümüyü itə atır. Sədaqət və etibar simvolu olan itin, onu həyata bağlayan yeganə canlının öz sahibini atıb sümük arxası ilə qaçmayacağına ümid edən qəhrəman, bu dəfə də yanılır… Bir parça sümüyü görən it dərhal öz sahibini qoyub, yeməyin arxasınca qaçır və əlbəttə ki, bununla da kəndir çəkilir və əsərin qəhrəmanının həyatına son qoyulur. Bəlkə də həyatda, müasir dövrümüzdə tez-tez rastlaşdığımız, bəlkə də artıq alışdığımız xəyanət mövzusuna rəssam, öz əsərində acı gülüş qataraq, bu səhnəni tamaşaçıya çox fərqli bir vəziyyətdə və gözlənilməz formada təqdim etmişdir [5, s. 54; 9, s. 12] (şək.1).

"Adı dünyanın tanınmış karikatura ustaları ilə yanaşı çəkilən Bayram Hacızadənin sənəti həsədaparıcı dərəcədə insanidir desək, həqiqəti söyləmiş olarıq. Həyat hadisələrinə müxtəlif, hətta ən kəskin münasibətində belə, rəssamın tənqid etdiyi insanları sevdiyi, onların halına acıdığı, onlarla həmdərd olduğu, gördükləri və çəkdiklərinin qarşılığında duyğulandığı aydın görünür. Dünya şöhrətli karikatura ustası Oleq Karpoviç (Belarus) onun yaradıcılığındakı bu keyfiyyətləri belə qiymətləndirir: "Bayram Hacızadənin sənət dili sülh və tolerantlıq dilidir. Onun hər bir əsərində sevgi və dostluq, sülh və barış mesajını asanlıqla duymaq olar. Bu isə çox böyük istedaddır". Həqiqətən də belədir.

Rəssamın incə müşahidə qabiliyyətindən xəbər verən çoxsaylı



Şəkil 1. Bayram Hacızadə - Sədaqətli dost


karikaturalarında onun baş verənlərə, insanların davranışlarına çox diqqətlə, həssaslıqla – nüfuzedici şəkildə göz qoyduğu aydın duyulur" [5, s. 4].

Eyni fikiri İsrailli karikatura ustası Boris Erenburq da təsdiqləyərək bu haqda yazır: "Bayram Hacızadənin karikaturalarının ana xəttini tolerantlıq, səmimiyyət, sağlam düşüncə, bugünkü mürəkkəb dünyamızda o qədər də aktual səslənməsə də - xalqlar dostluğu, insani münasibət və bu kimi yüksək keyfiyyətlər təşkil edir. Həmkarımız, tanınmış rus karikatura ustası Mixail Zlatkovski Bayrama heykəl qoymaq təklifi ilə çıxış etmişdir. Düşünürəm ki, ehtiyac yoxdur. Bayram hər bir

əsəri, hər bir yeni kitabı, hər yeni proyekti ilə öz-özünə artıq heykəl qoyub" [17; 10, s. 89].

Karikatura sahəsində artıq öz sözlərini demiş bu böyük şəxsiyyətlərin fikirləri B.Hacızadə yaradıcılığı, onun iç dünyası, həyata və hadisələrə baxışı haqqında bir mənzərə yaradır, desək yanılmarıq. Həqiqətən də rəssamın müəllifi olduğu, insanlığı, alicənablığı alqışlayan, xalqlar, insanlar arasında olan dostluq körpüsünü yandırmamağa çağıran karikaturaları kifayət qədərdir. Bu rəsmlər sırasında yaxınları tərəfindən unuulan məhbus (Çin, 2005), kitabı qızıla bərabər tutan ziyalı (Koreya, 2006), təbiəti məhv edən, dünyanı fəlakətə sürükləyən insanlara öz hiddətini bildirən meymunlar (ABŞ, 2007), futbol oyunundan zövq alan terrorçular (Çin, 2007), xilası dostluqda görən ruhanilər (Kuba, 2007), dünya malında gözü olmayan sənət adamları (İsrail, 2007), həyatdan bezib, ölümə razı olan qocanın həyat yoldaşının sədaqəti (İsrail, 2008), ölümdən əvvəl məhkumu doyunca yedizdirən cəlladlar (Çexiya, 2008), oğul arzusu ilə yaşayan kişi (Türkiyə, 2008), təzyiqlərə, qadağalara dözməyib sərhədləri dağıdan köməksiz insan (Luksemburq, 2008), möcüzələrə inanan sadəlövh hindular (Rusiya, 2008), səhrada səsinin eşidilməsinə ümid edən ərəb (Avstriya, 2008), uca binalar arasında qalmış yeganə ağacı qoruyan qoca (Efiopiya, 2009), döyüş silahlarını bir qarın çörəyə dəyişən Don Kixot (Kipr, 2009), məğlubiyyətdən zara gəlmiş futbolçu (İtaliya, 2009), son dəqiqəyə qədər danışıqlar masasını tərk etmək istəməyən diplomat (Slovakiya, 2010), alma ağacını məhv etməyə ürəyi gəlməyən hərbiçi (Ukrayna, 2016), Darvin nəzəriyəsini qəbul edən rahib (Yunanıstan, 2016), şəkil çəkdirməyə can atan çadralı qadınlar (Belarus, 2016), ən son anda belə öz insanlığını itirməyən Roma əsgəri (Fransa, 2016), keşişlərə və rahiblərə kömək göstərməyə çalışan Karlo ata (İspaniya, 2017), cəbhə bölgəsində özünə ev şəraiti düzəltmiş zabit (Suriya, 2019) və digər qəhrəmanları müəllifin özü kimi son ana qədər insana, onun kamalına, sağlam fikirin, məntiqi düşüncənin zəfər çalacağına inanır" [12, s. 79] (şək.2).


Şəkil 2. Bayram Hacızadə - Sədaqətli həyat yoldaşı



Hər bir rəssamın yaradıcılığında bədii vasitələrin özünəməxsus tətbiqi ilə yaranmış üslubun, dəst-xətinin ilk baxışdan tanınması onun yaradıcı "mən"inin formalaşmasının göstəricisidir. "B.Hacızadə üçün də belə yaradıcı "mən"in yaranması və tədricən cilalanması da önəmli məsələlərdəndir" [5, s. 9]. Rəssamın, tamaşaçını güldürən və düşündürən, özünün mövzu aktuallığı və məzmununa görə diqqət çəkən əsərlərinin təhlili onun artıq kamilləşmiş, özünəməxsus qrafik üslubuna sahib olduğunu təsdiqləyir. Qrafikanın bədii-texniki ifadə imkanlarından bütünlüklə bəhrələnən B.Hacızadənin satirik lövhələrində istifadə etdiyi incə cizgilər rəssamın özünəməxsus üslubu, onun bədii tapıntıları kimi qiymətlidir. Bəzən bu əsərlər ofort və ya ksiloqrafiya texnikasında işləndiyi təəssüratını yaratsa da, əslində bu, B.Hacızadənin dəzgah qrafikası texnikalarının bədii xüsusiyyətlərindən yaradıcılıqla faydalanmasının nəticəsi kimi qəbul olunmalıdır.

Bu əsərlər sırasında "Müasirlik", "İstedadlı rəssam", "Mətbuat", "Lombartda", "Urbanizasiya", "Neft kəməri" Rodenin məşhur "Mütəfəkkir" və Rembrandtın "Səfil oğulun qayıtması"nın "müasir versiyası", ekoloji tarazlığı pozan, yer üzünü cəhənnəmə döndərənlərdən yaxa qurtarmağa çalışanların buludlara pənah aparmasını yumorla gündəmə gətirən "Ümid işığı", Ç.Darvin nəzəriyyəsi mövzusunda işlənib hazırlanmış "Sən bizdən deyilsən", "Bu da sonu...", A.Eynşteynin kəşfinin nəticələrini acı gülüşlə işıqlandıran "Ağır nəticə", insan xisləti və sədaqətsizlik mövzusunda işlənmiş, tamaşaçıda təəssüf doğura biləcək "Sədaqətli dost", "Dustaqxanada" və s. bu kimi satirik lövhələri bədii həqiqətlərin obrazlı yozumuna görə doğrudan da qiymətlidir (şək.3).


Bayram Hacızadə müsahibələrinin birində müxbirin "Beynəlxalq karikatura müsabiqələrində mükafat qazanmış əsərləriniz sırasında ən dəyərlisi hansıdır?" sualını belə cavablandırmışdır: "Əlbəttə ki, mənim üçün hər bir karikaturam doğmadır. Hər birinin öz yeri, öz tarixçəsi var. Amma, deyə bilərəm ki, 2007-ci ildə ABŞ-da təşkil olunmuş beynəlxalq karikatura yarışmasında "Tamaşaçı rəğbəti" nominasiyasında xüsusi mükafata layiq görülmüş "Darvin nəzəriyyəsinə yox!" adlı karikaturam mənim üçün daha qiymətlidir. Səbəbi - bu rəsmin məhz tamaşaçıların, sıravi amerikalıların səs çoxluğu ilə bəyənilib, seçilməsi və beynəlxalq müsabiqənin "tamaşaçı rəğbəti" xüsusi mükafatına təqdim edilməsi olmuşdur. Bu mükafat mənim üçün çox böyük əhəmiyyət kəsb edir. Qeyd etməliyəm ki, "Davenport" beynəlxalq yarışması çox nüfuzlu və ciddi tərkibli münsiflər heyəti olan müsabiqələrdən biridir. Uzun illərdir ki, bu müsabiqədə əsas mükafatları ABŞ və ya avropa karikaturaçıları qazanırdılar. Bu baxımdan Azərbaycan təmsilçisinin bu beynəlxalq müsabiqədə mükafat alması mənim üçün həm gözlənilməz, həm də sevindirici hal idi" [3, s. 14; 16]. Rəssam B.Hacızadənin bu karikaturasının mövzusu aktual, ideyası isə orijinaldır. Karikaturanın süjet xətti Çarlz Darvinin insanların meymundan yaranması nəzəriyyəsi üzərində qurulmuşdur. Rəsmdə, ön planda Ç.Darvinin heykəlini, heykəlin ətrafında isə alimə öz etirazlarını xüsusi formada bildirən meymunları görmək olar. Arxa planda isə amosferə zəhərli qazlar buraxan, qara tüstüləri havaya yüksələn çoxlu sayda zavod, fabrik və atom elektrik stansiyaları təsvir olunmuşdur. Təbiəti zəhərləyən, ekologiyanı məhv edən bu müasir zavodların fəaliyyəti əslində bütün planetin faciəsi olduğunu bədii vasitələrlə tamaşaçıya çatdırmağa çalışan müəllif, bu fəlakətin insanların törətdiyini acı gülüşlə gündəmə gətirmişdir. Sözsüz də anlaşılan



Şəkil 3. Bayram Hacızadə - Neft kəməri

bu rəsmdən aydın olur ki, təbiətin bir hissəsi olan meymunlar planetə vurduqları ziyanın nəticələrini insanlardan fəqli olaraq anlayır və dərk edirlər. Onların, Ç.Darvinin abidəsinin önünə gəlib, öz hiddətlərini ona bu cür bildirməklərinin səbəbi də alimin "insan meymundan yaranıb" nəzəriyyəsi ilə etirazları olmuşdur. Bir qrup meymun "insanlar bizdən törəməyib, onların bizə heç bir aidiyyatı yoxdur, bizdən törənənlər belə iş tutub, təbiəti bu hala gətirməzdilər" deyərək, "biz insanlardan imtina edirik!" şüarları ilə alimin bu nəzəriyyəsinə öz haqlı etirazlarını bildirirlər. Karikaturaçının rəssamın seçdiyi mövzu xarakter etibarilə ciddi problemi gündəmə gətirir, faciənin əsl mahiyyətinə nüfuz edərək, onu acı gülüşlə tamaşaçıya çatdırır (şək.4). Uzun illər "Kirpi" satirik jurnalının bədii redaktoru vəzifəsində çalışmış, görkəmli karikatura ustası Adil Quliyev (Adil Elçin) Bayram Hacızadənin yaradıcılığı və ictimai fəaliyyəti haqqında yazır: "Bayram Hacızadənin istedadı çoxşaxəlidir. O, Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin sədri, Azərbaycan Rəssamlar İttifaqının rəyasət heyətinin və jurnalistlər birliyinin üzvüdür. Beynəlxalq Karikaturaçılar Təşkilatları Federasiyasında Azərbaycan qrupunun prezidentidir. Bu gün Bayram tanınmış karikaturaçı rəssam olmaqla yanaşı, Azərbaycan sənətşünaslığının ən parlaq şəxsiyyətlərindən biridir. Təəssüf hissi ilə deməliyəm ki, bu günə kimi B.Hacızadədən başqa, Azərbaycan karikaturasını əsaslı şəkildə araşdıran, təhlil və təbliğ edən sənətşünas olmamışdır. Onun, çox böyük sevgi ilə işləyib hazırladığı karikaturalarının beynəlxalq sərgilərdə və müsabiqələrdə mükafatlara layiq görülməsi, müəllifi olduğu kitablar, dərsliklər, monoqrafiyalar və albomların nəşri və geniş şəkildə yayılması dünya ictimaiyyətinə Azərbaycan karikaturasını tanıtmağa, ölkəmizin təbliğinə və əlbəttə, bu janrın inkişafına xidmət edir" [5, s. 10; 15]. Həqiqətən də B.Hacızadənin beynəlxalq sərgi və müsabiqələrdə uğurları və qələbələri, eyni zamanda karikatura sənətinin, tarixinin tədqiqi və təbliği sahəsində Azərbaycan sənətşünaslığına verdiyi töhfələr əvəzsizdir. Tədqiqatçı-rəssam XX əsr Azərbaycan təsviri sənətinin inkişafında böyük rolu olmuş Ə.Əzimzadə ənənələrini yaşadan rəssamların yaradıcılığını araşdırmaqla, bu nadir və mübariz sənət növünü tanıtmaqla, təbliği ilə məşğul olmaqla, həm də özünün bu sahədə baş verən proseslərə dərindən bələd olduğunu nümayiş etdirmişdir. Həqiqətən də bu gün, B.Hacızadənin məhsuldar və səmərəli fəaliyyəti sayəsində geniş beynəlxalq ictimaiyyətin Azərbaycan karikaturası, onun tarixi və müasir dövrdə yeni inkişaf mərhələləri haqqında məlumat almaq imkanları yaranmışdır.

Şəkil 4. Bayram Hacızadə - Çarlz Darvin



Dünya və İran karikaturasının tanınmış simalarından biri olan rəssam Şahram Rezai Bayram Hacızadə haqqında belə yazır: "Bu böyük və dəyərli müəllimimizin sayəsində dünya Azərbaycan karikatra tarixi, eləcə də müasir Azərbaycan karikatura sənəti ilə tanış oldu" [7, s. 36]. Tanınmış karikatura ustasının bu fikri ilə razılaşmaya bilmərik. B.Hacızadənin son illər ərzində Azərbaycanda və dünyanın bir çox ölkələrində "Azərbaycan karikaturası" başlığı altında təşkil etdiyi sərgilər, yeni nəşrlərin təqdimatı, tanınmış karikatura ustaları ilə görüşlər iranlı həmkarı Şahram Rezai söylədiyi kimi – həqiqətən də Azərbaycan karikaturasının beynəlxalq aləmdə tanınması və təbliği istiqamətində atılmış mühüm addımlardandır.B.Hacızadənin təşkilatçılığı ilə həyata keçirilən bu tədbirlərdə, sərgi və müsabiqələrdə dünyanı və ölkəmizi narahat edən problemlər, müharibə, terrorizm, seperatizm, torpaqlarımızın işğalı, xalqımızın üzləşdiyi haqsızlıqları əks etdirən, ekstrizmi və təcavüzü ifşa edən karikaturalar "İşğala son!" başlığı altında nümayiş olunmuş, xalqımızın haqq səsi beynəlxalq ictimayyətə çatdırılmışdır [4, s. 22].

Bu istiqamətdə apardığı məhsuldar və səmərəli fəaliyyətinə, karikatura sənətinin öyrənilməsi, tədqiqi və təbliği, bu janrın inkişafında göstərdiyi xidmətlərə görə karikaturaçı rəssam Bayram Hacızadə 2007-ci ildə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənabları tərəfindən "Əməkdar İncəsənət Xadimi" fəxri adına layiq görülmüşdür [1, s. 1; 3, s. 2].

"2018-ci ildə 50-illik yubileyi münasibəti ilə Bayram Hacızadə Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü seçilmişdir. Bu xoş müjdənin önəmli cəhəti Azərbyacan sənətkarının bu nüfuzlu elmi-yaradıcı quruma xarici ölkələrdən seçilən ilk karikaturaçı rəssam olması idi. Qənaətimizcə, 260 illik mövcudluğu ərzində bilavasitə klassik sənət sahələri təmsilçilərinin fəaliyyətini dəyərləndirməyə üstünlük verən akademiyanın bu dəfə öz sıralarına satirik rəsm – karikatura ustasını qəbul etməsi ilk növbədə B.Hacızadənin öz yaradıcılığında klassik karikaturaya onun yeni bədii-estetik nəfəs verməsi ilə bağlı olmuşdur.

Rusiya Rəssamlıq Akademiyasında keçrilən təqdimetmə mərasimində Rusiya Rəssamlıq Akademiyasının prezidenti, SSRİ xalq rəssamı, akademik Zurab Sereteli Azərbaycanlı rəssamın yaradıcılığını yüksək qiymətləndirmiş, ona uğurlar arzulamışdır. Tədbir zamanı SSRİ xalq rəssamı Tahir Salahov çıxış edərək, Bayram Hacızadəni görkəmli Sovet-rus rəssamı Boris Yefimovdan sonra bütün post-sovet məkanında karikaturanı tədqiq və tədris edən, bu janrın inkişafında və cəmiyyətdə tanınmasında ciddi fəaliyyəti ilə seçilən ikinci şəxs adlandırmışdır" [5, s. 17; 12, s. 91].

Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin sədri Bayram Hacızadənin məhsuldar fəaliyyəti nəticəsində 2005-2022-ci illərdə ölkəmizdə və onun hüdudlarından uzaqlarda 50-dən artıq beynəlxalq sərgi və karikatura müsabiqəsi uğurla keçirilmişdir [13, s. 9]. Qeyd etməliyik ki, layihə rəhbəri və təşkilatçısı Bayram Hacızadə olan "Molla Nəsrəddin" beynəlxalq karikatura müsabiqəsinə hər il əllidən artıq ölkədən yüzlərlə karikaturaçı rəssam qatılır. Bu isə Azərbaycanın çox yaxın gələcəkdə beynəlxalq karikatura mərkəzinə çevrilmə ehtimalını artırır, desək yanılmarıq. Təsadüfi deyil ki, "Molla Nəsrəddin" beynəlxalq karikatura müsabiqəsi beynəlxalq karikatura təşkilatları federasiyası tərəfindən səsvermənin obyektivlyi və təşkilatı məsələlərin yüksək səviyyəsinə görə ən yüksək balla – 5 ulduzla qiymətləndirilmişdir. Bu haqda FECO-nun prezidenti xanım Merlin Pole yazır: "Sevindirici haldır ki, bu gün dünyada ciddi karikatura təşkilatları da vardır və onlar karikaturaçıların hüquqlarının qorunması kimi çox həssas və incə məsələyə diqqətlə yanaşır, xüsusi əhəmiyyət verirlər. Bu mənada Bayram Hacızadənin rəhbərliyi altında Azərbaycanda keçirilən "Molla Nəsrəddin" beynəlxalq karikatura müsabiqəsinin adını çox böyük sevinc hissi ilə ən mötəbər, ciddi və əhəmiyyətli müsabiqələrdən biri kimi çəkərdim. Artıq üçüncü ildir ki, Azərbaycanda beynəlxalq karikatura müsabiqəsi elan edilir və müvəffəqiyyətlə keçirilir. Bu müsabiqənin şərtləri FECO-nun qaydaları ilə tam uyğun gəlir və bu səbəbdən də "Molla Nəsrəddin – 2010" karikatura müsabiqəsi bizim tərəfimizdən ən yüksək qiymətə - beş ulduza layiq görülmüşdür. Əminəm ki, bizim azərbaycanlı həmkarımız qazandıqları bu yüksək nüfuzu gələcəkdə də qoruyub saxlayacaqlar" [8, s. 84].

Yaradıcılıq axtarışları prosesində bədii yetkinlik mərhələsinə yüksəlmiş, davamlı olaraq öz üzərində çalışan B.Hacızadənin bu illər ərzində Ərdəbildə, "Fədək" Mədəniyyət kompleksinin sərgi salonunda "Dolanbac küçələr", Təbrizdə, karikatura muzeyində "Müasir Azərbaycan karikaturası", Əskişəhərdə, Anadolu Universitetinin Karikatura muzeyində "Azərbaycandan sevgilərlə", Kiyevdə, Taras Şevçenko adına Milli muzeydə "Satirik qrafika" ("Сатирическая графика"), Minskdə, Yakub Kolas dövlət memorial muzeyində "Sözsüz" ("Без слов"), İstanbul karikatura evində "Bayram Hacızadə", Yekaterinburqda, bədii sərgi salonunda "Dünya karikatura ustaları" ("Мастера мировой карикатуры"), muzey sərgi kompleksində "İronik qrafika" ("Ироничная графика"), Barselonada, "Mezanina" incəsənət mərkəzində "Cartoons", Poltava muzey mərkəzinin sərgi salonunda "Karlyuka", Hayfada, "Tveriya" sərgi qaleriyasında "Tolerantlıq", eləcə də Bakıda, Əzim Əzimzadə ev muzeyində "Əzimzadənin davamçıları", Muzey

Mərkəzində "Hophopnamə", Milli İncəsənət muzeyində "Müasir karikatura", Şamaxıda "M.Ə.Sabir – 150" və digər fərdi sərgiləri də təşkil olunmuşdur [14, s. 22; 16]. Dünya karikaturasının klassiklərindən sayılan, rəssam və nəzəriyyəçi Vladimir Kazanevski yazır: "Bayram Hacızadənin Rusiya, Belarus, Türkiyə, İspaniya, İsrail, İran və Ukraynada keçirilən yubiley sərgilərini alıqışlayırıq. 2018-ci ildə Bayram Hacızadənin Kiyevdə Taras Şevçenko adına Milli Muzeydə təşkil olunmuş "Satirik qrafika" ("Сатирическая графика") adlı fərdi sərgisi şəhər ictimaiyyətinin marağına səbəb olmuşdur. Onun böyük sevgi ilə işləyib hazırladığı hər bir əsərində rəssamın qəlbini oxumaq, iç dünyasına daxil olmaq mümkündür. Sanki hərarətli Bakı günəşi kimi işıq saçan bu lövhələrinin hər birində incə yumor, sətiraltı tənqid, ciddi fəlsəfə aydın görünür. Peşəkar rəssam əlinin məhsulu olan bu karikaturalarda məzmun, ideya, mövzu aktuallığı, hədəfin düzgün seçilməsi dəqiq və düzgündür. Təsadüfi deyil ki, onun əsərləri yüzlərlə beynəlxalq karikatura müsabiqələrinin kataloqlarında yer alıb. Rəssam çoxlu sayda beynəlxalq mükafatlara, titullara, fəxri diplomlara layiq görülüb. Mən bunu bir neçə dəfə demişəm və təkrar etmək istəyirəm: "Bayram Hacızadə dünya karikatura sənətinin inkişafını sürətləndirməyə qadir bir qüvvədir" [1, s. 16; 14, s. 3].

2017-ci ildə Türkiyə Karikaturaçılar Assosiyasiyasının təşkilatçılığı ilə İstanbulda keçirilən Bayram Hacızadənin fərdi sərgisində çıxış edən Türkiyə Karikaturaçılar Assosiyasiyasının sədri Mətin Pekər rəssamı karikatura janrının inkişafı istiqamətindəki səmərəli fəaliyyətini yüksək qiymətləndirmiş, onun barış və tolerantlıqdan qaynaqlanan yaradıcılığını xüsusilə vurğulamışdır. "Bayram Hacızadə müasir dünya karikaturasında bir hadisədir. Onun müasir dildə danışan, hər birimiz üçün anlaşıqlı olan sülh və insanlara sevgi ilə aşılanmış karikaturaları öz dərin fəlsəfəsi, rəssam işi, mövzu aktuallığı baxımından kamil sənət əsəridir. Bayram Hacızadə tək Azərbaycanın və türk dünyasının yox, dünya karikatura sənətinin çox önəmli simalarından biridir". Bu tədbirdə Bayram Hacızadə Türkiyə Karikaturaçılar Assosiyasiyasının fəxri üzvü seçilmiş, ona dünya karikatura sənətinin inkişafında göstərdiyi xidmətə görə xüsusi diplom və fəxri fərman təqdim olunmuşdur [12, s. 81]. Ömrünün son illərini İsraildə yaşamış, görkəmli karikatura ustası Adil Quliyev Bayram Hacızadənin İsraildə təşkil olunmuş fərdi sərgisi haqqında öz təəssüratları ilə bölüşür: "Hayfa şəhər meriyası və İsrail Karikaturaçılar Birliyinin təşəbbüsü ilə Bayram Hacızadənin İsraildə təşkil olunmuş fərdi sərgisi böyük təntənə ilə keçirilmişdi. İsrail-Azərbaycan dostluğuna, karikatura sənətinin təbliğinə xidmət edən bu sərgi şəhər ictimaiyyəti tərəfindən maraqla və rəğbətlə qarşılanmışdı. Təsadüfi deyil ki, "Az.In.News" mətbuat agentliyinə müsahibəsində "Sholumi" mərkəzinin rəhbəri Şayl Simon Tov demişdir: "Hər birinizə bu sərgini diqqətlə seyr etməyi tövsiyyə edirəm - əsl incəsənətlə təmasda olacaqsınız". Təsadüfi deyil ki, sərgi üçün İsrail Karikaturaçılar Assosiyasiyasının hazırladığı afişalar "Наш Байрам" ("Bizim Bayram") başlığı ilə çap olunmuşdur. Hesab edirəm ki, bu, israilli həmkarımızın həmyerlimizə dostluq münasibətinin və rəğbətinin göstəricisidir" [12, s. 82].

Elə dünyanın digər ölkələrindən olan karikaturaçı rəssamlar da B.Hacızadənin məhsuldar və nəhayətsiz fəaliyyəti haqqında yüksək fikirlər

söyləmişlər. Mixail Zlatovskinin (Rusiya) "Bu cür xeyirxah bir adama heykəl qoymaq üçün elə indi vəsait toplamağı təklif edirəm. Azərbaycan mədəniyyətinə bu cür mücahidi olmasına görə qibtə edirəm", Andrey Feldşteynin (ABŞ) "Hər bir ölkəyə belə bir fədakar gərəkdir, təcili belə bir adamın klonlaşdırılmasına başlamaq lazımdır", Boris Erenburqun (İsrail) "Azərbaycan karikaturası və karikaturaçılarının bəxti gətirib ki, onların belə bir lideri vardır", Gennadi Çeqodayevin (Rusiya) "Bayram Hacızadənin səmərəli işi sayəsində Bakının dünyanın daha bir yumor paytaxtına çevriləcəyinə inanıram", Rəhim Əsgər (İran) "Bayram Hacızadənin məqsədyönlü və səmərəli fəaliyyətinin nəticəsində dünya "Molla Nəsrəddin" satirik jurnalını, zəngin ənənələri olan Azərbaycan karikatura tarixinin dünəni və bu günü ilə nəhayət ki, tanış oldu", Viktor Boqoratın (Rusiya) "Bayram kimi vətəndaşı olan ölkəyə qibtə edirəm", Hüseyn Çakmak (Kipr) Bayram Hacızadə ilə nə qədər fəxr etsək, yenə də azdır", "Marat Veliaxmetovun (İspaniya) "Axı bu insanı necə sevməmək olar?" və s. bu məzmunlu fikirlər rəssamın yaradıcılığına və fəaliyyətinə verilən layiqli qiymətdir [5, s. 17; 17; 15]. Dünyanın tanınmış karikatura ustaları, Rusiyadan İqor Smirnov, Stanislav Aşmarin, Aleksandr Şmidt, Ukraynadan Oleq Qutsal, Valeri Momot, Belarusdan Anatoli Qarmaza, Marina Qorelova, Türkiyədən Yurdagün Göker, Atila Özər, İsmayıl Kar, ABŞ-dan Jen Sorenson, Almaniyadan Marlen Pole, Fransadan Bernard Bouton, Jean Marle Bertin, Serbiyadan Zoran Matic Mazos, İtaliyadan Aleksandro Qatto, İrandan Sevda Cənnəti, İsraildən Sergey Sıçenko, Yaponiyadan Yuko Şimizu, Bolqarıstandan Valentin Giorgiyev, Makedoniyadan Cordan Pop-İliyev, Ruminiyadan Juliyan Pena-Pai, Çindən Leng Mu, Sudandan Talal Nayer və digərlərinin bakılı həmkarları haqqında söylədikləri çox yüksək fikirlər hər birimizin qəlbini qürurla doldurur [6, s. 44]. Bu gün öz yaradıcılıq zirvəsindən arxaya – etdiklərinə qürurla baxmağa haqqı çatan Bayram Hacızadənin ürəkdən bağlandığı karikatura sənətinə təmənnasız xidməti onun məhsuldar və səmərəli fəaliyyətində öz əksini tapır. Bütün yaradıcılığı boyu Azərbaycan milli karikatura ənənələrini uğurla davam etdirən, bədii-estetik yozuma malik beynəlmiləl ruhlu əsərlərində özünün yaradıcı-vətəndaş mövqeyini sərgiləyən Bayram Hacızadə bu gün haqlı olaraq beynəlxalq karikatura aləmində müasir Azərbaycan karikatura sənətinin lideri kimi tanınır.

Nəticə. Haqqında danışdığımız dövrdə, tanınmış karikatura ustası B.Hacızadənin beynəlxalq müsabiqələrdə və sərgilərdə nümayiş olunan satirik əsərlərində mövzu aktuallığı, beynəlmiləlçilik ruhu, problemə yanaşma aspektinin yeniləşməsi tendensiyası ilə qarşılaşırıq. Bu illər ərzində, rəssam, zəngin yaradıcılıq prosesləri zamanı ərsəyə gətirdiyi satirik lövhələrində maraqlı obrazlar qalereyası yaratmağa müvəffəq olmuşdur. Obrazlı ifadə tərzi, satirik qrafikanın tükənməz imkanları, obrazların təsvir variantları və qrotesk həddi, karikaturanın bədii estetik kəsəri üzərində daima yaradıcılıq axtarışları aparan B.Hacızadə milli karikatura sənətimizin beynəlxalq aləmdə tanınması və təbliği istiqamətində müvəffəqiyyətlə çalışmış, ölkəmizin hüdudlarından kənarda təşkil olunmuş beynəlxalq karikatura sərgilərində və müsabiqələrində Azərbaycanı layiqincə təmsil etmişdir.

ƏDƏBİYYAT

1. "Azərbaycan" qəzeti // Bakı: "Azərbaycan" nəşriyyatı - 16 may - 2007.
2. "Biz və karikatura" jurnalı // Bakı: "Çaşıoğlu" nəşriyyatı – 2006 - № 1 - 24 s.
3. "Biz və karikatura" jurnalı // Bakı: "Çaşıoğlu" nəşriyyatı – 2007 - № 4 - 24 s.
4. Əliyev Z. Azərbaycan incəsənəti II-III cild / Bakı: "Letterpress" nəşriyyatı – 2011 - 146 s.
5. Əliyev Z. Azərbaycanın karikaturaçı rəssamları - Bayram Hacızadə / Bakı: "Azəri-Dizayn" nəşriyyatı – 2018 - 80 s.
6. Əliyev Z. Əzim Əzimzadənin davamçıları / "Qobustan" sənət toplusu // Bakı: Azərbaycan Yazıçılar Birliyinin nəşriyyatı – 2010 - № 2.
7. Hacızadə B. "Multikulturalizm və karikatura" / Bakı: "Bestpack" mətbəəsi – 2018 - 210 s.
8. Hacızadə B. "Neft və karikatura"/ Bakı: "Azəri-dizayn" nəşriyyatı – 2010 - 388 s.
9. Məhərrəmli Q. "Azərbaycanlı rəssamın ABŞ zəfəri" / "Zaman" qəzeti // Bakı: "Zaman-Azər" mətbəəsi – 2009 - №1-2 - 16 s.
10. Mustafayeva K. "Bayram Hacızadə yaradıcılığında mövzu müxtəlifliyi" // - Naxçıvan: 2022 - AMEA-nın Naxçıvan bölməsi. İncəsənət, Dil və Ədəbiyyat İnstitutu - ISSN 2311-8482 "Axtarışlar" jurnalı - Cild 16, № 2 (42) - "Tusi" nəşriyyatı - 330 s.
11. Mustafayeva K. "Beynəlxalq dildə danışan "sözsüz" karikaturalar" elmi məqalə // - Bakı: AMEA "Filologiya və sənətşünaslıq" elmi məcmuəsi – 2023 - 363 s.
12. Mustafayeva K. "Müasir Azərbaycan karikatura sənəti" / Magistr dərəcəsi almaq üçün dissertasiya // - Bakı – 2020 - 101 s.
13. Nərimanqızı N. "Sadəliyin rəng yozumu" // - Bakı: "Mədəniyyət" qəzeti – 2009 - 8 iyul.
14. Казаневский В. "Сатирическая графика – Байрама Гаджизаде" // - Киев: 2016 - 24 s.
15. https://www.azercartoon.com
16. https://www.azercartoon.com/prizes.htm
17. https://www.cartoonblues.com/forum/

Məqalənin redaksiyaya daxilolma tarixi: 22.06.2024
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.07.2024
Məqalənin çapa qəbul olunma tarixi: 18.07.2024

Məqalə yazma qaydaları

1. Jurnala təqdim edilən məqalələr Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının dövri elmi nəşrlərin qarşısında qoyduğu tələblərə və Azərbaycan Turizm Menecment Universitetinin qaydalarına cavab verməlidir;
2. Jurnalda çap olunan hər bir məqaləyə Rəqəmsal Obyekt İdentifikatoru (DOI – Digital Object Identifier) təyin olunur ;
3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar göstərilməlidir;
4. Müəllif ORCİD kodunu qeyd etməlidir;
5. Məqalə müəllifinin adı, soyadı, iş yeri, e-mail adresi yuxarıda sağda yazılmalıdır;
6. Azərbayacan dilində olan məqalələrin xülasəsi azərbaycan, ingilis və rus dillərində, rus dilində olan məqalələrin xülasəsi rus, azərbaycan və ingilis dillərində verilməlidir, ingilis dilində olan məqalələrin xülasəsi azərbaycan, ingilis və rus dillərində verilməlidir (minimum 200 söz);
7. Xülasələrin yazıldığı dillərdə açar sözlər verilməlidir;
8. Hər bir xülasədə məqalənin adı, müəllif(lər)in tam adı göstərilməlidir;
9. Məqalə "Giriş", "Mətn" (yarımbaşlıqlara bölmək şərtilə), "Nəticə" və "İstifadə edilmiş ədəbiyyat siyahısı"ndan ibarət olmalıdır;
10. Məqalə "Times New Roman"-da, 12 şriftilə yazılmalı, mətn Microsoft Word proqramında (2003/2007) və A4 kağız formatına görə tərtib edilməlidir;
11. Yuxarıdakı şərtlər nəzərə alınmaqla məqalələr 7-12 səhifə həcmində olmalıdır;
12. Məqalənin yazılışı zamanı iddiaçı istifadə etdiyi materialların mənbələrinə və müəlliflərinə mütləq istinad etməlidir. Mətndəki istinaddan sonra kvadrat mötərizədə əsərin ədəbiyyat siyahısındakı nömrəsi, cild (çoxcildli əsərlər üçün) və müvafiq səhifə(lər) verilir. Məsələn, [54, s.162], [155, c.2, s.82-83], [54, s.162; s.23], və s. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin tələbləri əsas götürülməlidir. "İstifadə edilmiş ədəbiyyat" siyahısında qeyd edilənlər aşağıdakı nümunələrdə göstərilən qaydada verilməlidir:

    Kitabın təsviri: Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c. 45. – 2013. – 384 s.

    Jurnal məqaləsi: Həbibbəyli, İ.Ə. Maarifçilik və realizm // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Humanitar elmlər seriyası, – 2018. №1, – s. 3-10.

    Konfrans, simpozium və digərləri: Gatys, L.A., Ecker, A.S., Bethge, M. Image style transfer using convolutional neural networks // IEEE Conference on Computer Vision and Pattern Recognition. Las Vegas, Nevada, USA, – 2016, – p. 2414-2423.

    Dissertasiyalar və avtoreferatlar: Səfərov, E.S. Xəzər dənizinin səviyyə tərəddüdlərinin məsafədən zondlama üsulları ilə tədqiqi: / coğrafiya

üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2018. – 151 s.

Arxiv mənbələri: Xarici İşlər naziri Məhəmməd Həsən Hacınskinin məruzəsi (Gəncə: 15 iyul 1918-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 1061, siyahı №1, iş № 95, vərəq – 1.

Qəzet mənbələri: Abdullayev, F. Azərbaycanı Respublikası Konstitusiyasının qəbul edilməsindən 24 il keçir // Respublika. – 2019, 9 noyabr. – s. 2.

Müəlliflik şəhadətnamələri və patentlər: Səfərov, A.R., 1,4 – Butandiolun alınma üsulu, İxtira i2017 0005, Azərbaycan Respublikası / Əliyev A.M., Əliyev F.V., Mətiyev K.İ. [və b.].

İnternet mənbələri: Azərbaycan etnik musiqisi: [Elektron resurs] / tərt. ed. T.Məmmədov və b.; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. – Bakı, 2006. – DVD+; 13 sm.

Mənbə: https://aak.gov.az/single/492

13. Ədəbiyyatlara istinad edərkən son 10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir. Mətndə istifadə edilməyən mənbələr "İstifadə edilmiş ədəbiyyat" hissəsində göstərilməməlidir;
14. Əvvəllər çap olunmuş əlyazmaların jurnala tədqim edilməsi yolverilməzdir;
15. Elmi dərəcəsi olan müəlliflər istisna olmaqla, hər məqalə üçün müvafiq elm sahəsi üzrə elmlər doktorunun rəyi təqdim edilməlidir;
16. Məqalələr redaksiyanın aşağıdakı elektron ünvanına (th.journal@atmu.edu.az) göndərilməlidir;
17. Jurnala məqalə il ərzində mütəmadi olaraq 4 dildə -Azərbaycan, Türk, İngilis və Rus dillərində qəbul edilir.
18. Jurnal ildə 4 dəfə olmaqla-**yanvar, aprel, iyul və oktyabr** aylarında çap olunur. Jurnalın elektron versiyasını(http://atmu.edu.az/az/arxiv) universitetin saytından əldə etmək olar.

Guidelines for articles

1 The articles submitted to the journal must meet the requirements set by the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan for periodical scientific publications and the rules of Azerbaijan Tourism Management University;
2 Digital Object Identifier (DOI - Digital Object Identifier) is assigned to each article published in the journal;
3 UOT indexes or PACS type codes must be indicated on each article;
4 The author must record the ORCID code;
5 The name, surname, workplace, e-mail address of the author of the article should be written on the upper right;
6 Abstracts of articles in Azerbaijani language should be given in Azerbaijani, English and Russian languages, abstracts of articles in Russian language should be given in Russian, Azerbaijani and English languages, abstracts of articles in English should be given in Azerbaijani, English and Russian languages (minimum 200 words);
7 Key words should be given in the languages in which summaries are written;
8 Each abstract must include the title of the article, the full name of the author(s);
9 The article should consist of "Introduction", "Text" (provided it is divided into sub-headings), "Conclusion" and "Reference list";
10 The article should be written in "Times New Roman", 12 font, the text should be compiled in Microsoft Word program (2003/2007) and A4 paper format;
11 Taking into account the above conditions, articles should be 7-12 pages long;
12 When writing the article, the claimant must refer to the sources and authors of the materials used. The reference in the text is followed by the number in the bibliography of the work, the volume (for multivolume works), and the corresponding page(s) in square brackets. For example, [54, p.162], [155, c.2, p.82-83], [54, p.162; p. 23], etc. When providing a bibliographic description of the cited source, the requirements of the "Referenced literature" section of the current instruction of the High Attestation Commission under the President of the Republic of Azerbaijan on the "Rules of Dissertations" should be taken as a basis. What is mentioned in the list of "used literature" should be given in the order shown in the following examples:

Book: Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] /

H.Əliyev. – Bakı: Azərnəşr, – c. 45. – 2013. – 384 s.

Journal: Həbibbəyli, İ.Ə. Maarifçilik və realizm // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Humanitar elmlər seriyası, – 2018. №1, – s. 3-10.

Conference, symposium and others: Gatys, L.A., Ecker, A.S., Bethge, M. Image style transfer using convolutional neural networks // IEEE Conference on Computer Vision and Pattern Recognition. Las Vegas, Nevada, USA, – 2016, – p. 2414-2423.

Dissertations and abstracts: Səfərov, E.S. Xəzər dənizinin səviyyə tərəddüdlərinin məsafədən zondlama üsulları ilə tədqiqi: / coğrafiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2018. – 151 s.

Archival sources: Xarici İşlər naziri Məhəmməd Həsən Hacınskinin məruzəsi (Gəncə: 15 iyul 1918-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 1061, siyahı №1, iş № 95, vərəq – 1.

Newspaper sources: Abdullayev, F. Azərbaycanı Respublikası Konstitusiyasının qəbul edilməsindən 24 il keçir // Respublika. – 2019, 9 noyabr. – s. 2.

Copyright certificates and patents: Səfərov, A.R., 1,4 – Butandiolun alınma üsulu, İxtira i2017 0005, Azərbaycan Respublikası / Əliyev A.M., Əliyev F.V., Mətiyev K.İ. [və b.].

Internet sources: Azərbaycan etnik musiqisi: [Elektron resurs] / tərt. ed. T.Məmmədov və b.; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. – Bakı, 2006. – DVD+; 13 sm.

Source: https://aak.gov.az/single/492

13 When citing literature, scientific articles, monographs and other reliable sources of the last 10 years should be preferred. Sources not used in the text should not be indicated in the "Literature used" section;

14 Submission of previously published manuscripts to the journal is not allowed;

15 Except for authors with a scientific degree, the opinion of a doctor of science in the relevant field of science must be submitted for each article;

16 Articles should be sent to the following e-mail address of the editorial office (th.journal@atmu.edu.az);

17 Articles to the journal are regularly accepted throughout the year in 4 languages - Azerbaijani, Turkish, English and Russian.

18 The journal is published 4 times a year - in January, April, July and October. The electronic version of the journal (http://atmu.edu.az/az/arxiv) can be obtained from the university's website.

“BİROL GROUP” MMC
Çapa imzalanmışdır: 30.07.2024-cü il
Kağız formatı 70x100 1/16

Tiraj: 100.